**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU**

ISSN 2219-9810 (Print)

# ELMİ ƏSƏRLƏR

BEYNƏLXALQ ELMİ-NƏZƏRİ JURNAL

**2024, №2/43**

# SCIENTIFIC WORKS

**Jurnalın indeksləməsi / Indexed by**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası

INTERNET ARCHIVE

Academia.edu share research

calaméo

Directory of Research Journal Indexing DRJI

CiteFactor Academic Scientific Journals

SCRIBD

**International index COPERNICUS**

**(https://journals.indexcopernicus.com/search/detail?id=65528&lang-pl)**

**ELMİ ƏSƏRLƏR**

Beynəlxalq elmi-nəzəri jurnal. 2006-cı ildən nəşr edilir.
ISSN (Print) 2219-9810

Jurnal 17 fevral 2006-cı ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir (№ 1704).
«Elmi əsərlər» beynəlxalq elmi-nəzəri jurnal öz fəaliyyətini Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın qərarları, öz əsasnaməsi və beynəlxalq standartların tələblərinə əsasən təşkil edib. Jurnalın əsas məqsədi Azərbaycan elminin inkişaf etməsi üçün layiqli töhfələr vermək, fəlsəfə, politologiya, siyasi elmlər, psixologiya və sosiologiya üzrə aparılan tədqiqatları öz səhifələrində işıqlandıraraq dünya elmini onlarla tanış etmək, geniş elmi müzakirələrə səbəb ola biləcək problemlərin fənlərarası yanaşma müstəvisində araşdırılmasının nəticələrinin, alim və tədqiqatçılar arasında elmi diskussiya yaradacaq postneoklassik elmin paradiqmaları, yenilikləri barədə araşdırmaların geniş yayılmasına vəsilə olmaqdır.
Məqalələr Azərbaycan, rus, türk və ingilis dillərində, ildə 2 dəfə dərc olunur. Jurnalda müəlliflərin şəxsi maraqlarını əks etdirən, elmi-nəzəri, praktik nəticəsi olmayan məqalələr qəbul edilmir.
Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının **fəlsəfə, sosiologiya və siyasi elmlər** üzrə tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.

---

© Elmi əsərlər, 2024

**SCIENTIFIC WORKS**

International scientific-theoretical journal. Published since 2006.
ISSN (Print) 2219-9810

The journal was registered at the Ministry of Justice of the Republic of Azerbaijan on February 17, 2006 (№ 1704).

«Scientific works» international scientific-theoretical journal has organized its activity in accordance with the decisions, regulations and international standards of the Supreme Attestation Commission Under the President of the Republic of Azerbaijan. The main purpose of the journal is to make a worthy contribution to the development of Azerbaijani science, to acquaint the world science with them by publishing research on philosophy, political science, psychology and sociology on its pages, disseminating the results of the investigation of problems that will create a scientific debate between scientists and researchers, lead to broad scientific debates in the interdisciplinary approach, research into the paradigms and innovations of post- neoclassical science. Articles are published twice a year in Azerbaijani, Russian, Turkish and English. The journal does not accept articles that reflect the personal interests of the authors and do not have scientific- theoretical or practical results. The journal is among the scientific publications in **philosophical, sociological and political sciences** recommended by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.

---

© Scientific works, 2024

**Təsisçi**
**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI FƏLSƏFƏ VƏ SOSİOLOGİYA İNSTİTUTU**

**Baş redaktor**
İlham Məmmədzadə - fəlsəfə elmləri doktoru, professor
**Baş redaktorun müavini**
Eynulla Mədətli - tarix elmləri doktoru, dosent
**Məsul katiblər**
Həbib Hüseynov - fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
Zeynəddin Şabanov - fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Redaksiya heyəti**
Bəxtiyar Əliyev - AMEA-nın müxbir üzvü (Azərbaycan)
Aleksandr Çumakov - fəlsəfə elmləri doktoru, professor (Rusiya)
Doğan Özləm – professor (Türkiyə)
Rəfiqə Əzimova - fəlsəfə elmləri doktoru (Azərbaycan)
Əli Abasov - fəlsəfə elmləri doktoru, professor(Azərbaycan)
Hüseyn Qaraşov – sosiologiya elmləri doktoru, professor (Azərbaycan)
Əbülhəsən Abbasov - fəlsəfə elmləri doktoru, professor (Azərbaycan)
Rəna Mirzəzadə - fəlsəfə elmləri doktoru (Azərbaycan)
Füzuli Qurbanov - fəlsəfə elmləri doktoru (Azərbaycan)
Adil Əsədov- fəlsəfə elmləri doktoru (Azərbaycan)
Arzu Hacıyeva - fəlsəfə elmləri doktoru (Azərbaycan)
Rafail Əhmədli - fəlsəfə elmləri doktoru (Azərbaycan)
Taxir Mahamatov - fəlsəfə elmləri doktoru professor (Rusiya)
Şaban Teoman Durali - professor (Türkiyə)
Nizami Məmmədov - fəlsəfə elmləri doktoru, professor (Rusiya)
Kerem Karabulut- professor (Türkiyə)
Ramiz Sevdimalıyev – siyasət elmləri doktoru, professor (Azərbaycan)
Sakit Hüseynov- fəlsəfə elmləri doktoru, professor (Azərbaycan)
Aydın Əlizadə -fəlsəfə elmləri doktoru (Azərbaycan)
Səadət Məmmədova –sosiologiya elmləri doktoru (Azərbaycan)
Lea Razo - Dr. prof. (Fransa)
Larussi Mizuri - Dr. prof. (Tunis)
Bogdana Todorova - Dr. prof. (Bolqarıstan)
Leyla Xəlifə - Dr. prof. (İordaniya)
Alessandro Fiqus - Dr. prof. (İtaliya)
Quido Amoretti - Dr. prof. (İtaliya)
Zöhrə Əliyeva - fəlsəfə üzrə fəlsəfə doktoru, dosent (Azərbaycan)
Abdulrəhim əl Aləmi - Dr. prof. (Mərakeş)
Zaim Xənşələvi - Dr. prof. (Əlcəzair)
Mahmud Haydar - Dr. prof. (Livan)
Arif Buniyadov – fəlsəfə elmləri doktoru, professor (Azərbaycan)
Anar Qafarov - fəlsəfə üzrə fəlsəfə doktoru, dosent (Azərbaycan)
Anar Bağırov - siyasi elmlər üzrə fəlsəfə doktoru (Azərbaycan)

**Founder**
**NATIONAL ACADEMY OF SCIENCES OF AZERBAIJAN INSTITUTE OF PHILOSOPHY AND SOCIOLOGY**

**Editor-in-Chief**
Ilham Mammadzade - Doctor of philosophical sciences, professor
**Deputies Editor-in-Chief**
Eynullah Madatli - Doctor of historical sciences, associate professor
**Executive Editors**
Habib Huseynov – Ph.D in Philosophy, associate professor;
Zeynaddin Shabanov – Ph.D in Philosophy, associate professor
**Editorial Board**
Bakhtiyar Aliyev - Associate Member of the ANAS (Azerbaijan)
Alexander Chumakov – professor (Russia)
Doghan Ozlem – professor (Turkey)
Rafiga Azimova - doctor of philosophical sciences (Azerbaijan)
Ali Abasov – professor, doctor of philosophical sciences (Azerbaijan)
Husein Garashov - professor (Azerbaijan)
Abulhasan Abbasov- professor (Azerbaijan)
Rana Mirzazada - professor (Azerbaijan)
Fuzuli Gurbanov- doctor of philosophical sciences (Azerbaijan)
Adil Asadov - doctor of philosophical sciences (Azerbaijan)
Arzu Hajiyeva - doctor of philosophical sciences (Azerbaijan)
Rafail Ahmadli - doctor of philosophical sciences (Azerbaijan)
Takhir Makhamatov – professor (Russia)
Shaban Teoman Duraly – professor (Turkey)
Nizami Mammadov – professor (Russia)
Kerem Karabulut - professor (Turkey)
Ramiz Sevdimaliyev - doctor of political sciences (Azerbaijan)
Sakit Huseinov - doctor of philosophical sciences (Azerbaijan)
Aydin Alizadeh - doctor of philosophical sciences (Azerbaijan)
Saadet Mammadova- doctor of sociological sciences (Azerbaijan)
Lea Razo- Dr. professor (France)
Laroussi Mizuri– professor (Tunisia)
Bogdana Todorova – professor (Bulgaria)
Leyla Khalifa – Dr. professor (Jordan)
Alessandro Figus - professor (Italy)
Quido Amoretti - professor (Italy)
Zohra Aliyeva - associate professor (Azerbaijan)
Abdurrahimal-Alami- professor (Morocco)
Zaim Khanshelevi - professor (Algeria)
Mahmud Haydar - professor (Lebanon)
Arif Buniyatov - professor (Azerbaijan)
Valentina Fedotova - professor (Russia)
Ahmad Gashamoglu - associate professor (Azerbaijan)
Anar Gafarov - associate professor (Azerbaijan)
Anar Bagirov - doctor of philosophy (Azerbaijan)

# İÇİNDƏKİLƏR

## FƏLSƏFİ BAXIŞ VƏ YANAŞMALAR

**Ziba Ağayeva (Azərbaycan)**
Azərbaycan dünya çağırışları kontekstində: COP29-un məqsəd və məramı ........ 9
**Leyla Xəlifə (İordaniya)**
İbn Ərəbinin doktrinasına əsasən "aralıq" (bərzah) konsepsiyasına baxış: elm və din arasında üçüncü yerdə görüş təklifi ........ 17
**Faiq Ələkbərli (Azərbaycan)**
Akademik Firudin Köçərlinin yaradıcılığında Azərbaycan fəlsəfə tarixinin tədqiqi və fəlsəfi məsələlər ........ 32
**Yavuz Belendir, Serra Sevde Hatipoğlu (Türkiyə)**
Süni intellekt fəlsəfəsi narahatlıq və risk baxımından: Azərbaycan və Türkiyə nümunəsi ........ 43
**Xanım Mustafayeva, Tural Orucov (Azərbaycan)**
Rəqəmsal dünyada İmmanuel Kantın etik kodeksinin kibерməkana inteqrasiyası ........ 49

## EPİSTEMOLOGİYA VƏ MƏNTİQ

**Vüsal Zülfüqarov (Azərbaycan)**
“Postakademik” və “postnormal” elm: fənlərarası yanaşma ........ 63

## SİYASİ ELMLƏR: NƏZƏRİYYƏ VƏ REALLIQLAR

**Günel Məlikli (Azərbaycan)**
Prezident İlham Əliyev mədəni abidələrimizin bərpası haqqında ........ 71
**Məhəbbət Seyidova (Azərbaycan)**
Beynəlxalq münasibətlərdə hərbiləşmə amili ........ 76
**Zaur Əliyev (Azərbaycan)**
İşğal dövründə Şuşada oğurlanıb Ermənistana aparılan türklərə məxsus qədim ox ucları ........ 87
**Emin Bəylərov (ABŞ)**
Süni intellekt tərəfindən idarə olunan kibermüdafiə: Sİ-in müasir şəbəkə təhlükəsizliyinə təsirinin təhlili ........ 90
**Bəxtiyar Nəcəfli (Azərbaycan)**
Almaniyanın daxili və xarici siyasətində islamofobiya ........ 109
**Tural Ələkbərov (Azərbaycan)**
Siyasi legitimlik böhranına qarşı tədbirlər: beynəlxalq təcrübənin təhlili ........ 117
**Rauf Abbasov (Azərbaycan)**
“Böyük qayıdış” timsalında Azərbaycanda bərpa prosesinin digər ölkə təcrübələrindən fərqlənməsi ........ 124

## SOSİOLOJİ ARAŞDIRMALAR VƏ DAVAMLI İNKİŞAF

**Həbib Mahmudov (Azərbaycan)**
Sosial marketinqdə sosial problemlərin həllinə dair yanaşmalarda kommunikasiya nümunələrinin təhlili ........ 132

## OXUCU RƏYİ

**Şölət Zeynalov (Azərbaycan)**
Eynulla Mədətlinın “Heydər Əliyevin siyasi irsi: azərbaycançılıq və Azərbaycan–Türkiyə birliyinin fəlsəfəsi” monoqrafiyası haqqında ........ 140

**CONTENS**

**PHILOSOPHICAL VIEW AND APPROACHES**

**Ziba Agayeva (Azerbaijan)**
Azerbaijan in the context of world challenges: goals and objectives of COP29 ................................ 9
**Leyla Khalifa (Jordan)**
Overview of the concept of 'isthmus' (barzakh) according to ibn arabi's doctrine: a proposal for a third space of dialogue between science and religion" .................................................................... 17
**Faig Alakbarli (Azerbaijan)**
Research and philosophical issues of the history of Azerbaijan philosophy in the works of academician Firudin bey Kocharli ..................................................................................... 32
**Yavuz Belendir, Serra Sevde Hatipoğlu (Azerbaijan)**
Philosophy of artificial intelligence in the perspective of concern and risk: the case of Azerbaijan and Turkey .................................................................................................................. 43
**Khanim Mustafayeva, Tural Orujov (Azerbaijan)**
Cyber space integration of Immanuel Kant's code of ethics in the digital world ............................. 49

**EPISTEMOLOGY AND LOGIC**

**Vusal Zulfugarov (Azerbaijan)**
"Post-academic" and "post-normal" science: an interdisciplinary approach .................................... 63

**POLITICAL SCIENCES: THEORY AND REALITIES**

**Gunel Malikli (Azerbaijan)**
President Ilham Aliyev about restoration of our cultural monuments .............................................. 71
**Mahabbat Seidova (Azerbaijan)**
Militarization factor in international relations .................................................................................. 76
**Zaur Aliyev (Azerbaijan)**
Ancient arrowheads belonging to the turks that were stolen and taken from Shusha during the occupation ........................................................................................................................... 87
**Emin Baylarov (USA)**
Aİ-driven cyber defense: analyzing the impact of artificial intelligence on modern network security.......................................................................................................... 90
**Bakhtiyar Najafli (Azerbaijan)**
Islamophobia in domestic and foreign policy of Germany ............................................................. 109
**Tural Alakbarov (Azerbaijan)**
The measures against the crisis of political legitimacy: the analysis of international experience ... 117
**Rauf Abbasov (Azerbaijan)**
The difference of the reconstruction process in Azerbaijan in the example of the "Great return" from the experiences of other countries ................................................................. 124

**SOCIOLOGICAL STUDIES AND SUSTAINABLE DEVELOPMENT**

**Habib Mahmudov (Azerbaijan)**
Communication patterns analysis in social marketing approaches for resolution of social problems ................................................................................................................ 132

**READERS OPİNİON**

**Sholat Zeynalov (Azerbaijan)**
About the monograph of "Political heritage of Heydar Aliyev: azerbaijanism and philosophy of Azerbaijan-Turkiye union" by Eynulla Madatli ..................................................... 140

## FƏLSƏFİ BAXIŞ VƏ YANAŞMALAR

**UOT 101.1:316**
**https://doi.org/10.30546/ifs.2024.2(43).005**

# AZƏRBAYCAN DÜNYA ÇAĞIRIŞLARI KONTEKSTİNDƏ: COP29-UN MƏQSƏD VƏ MƏRAMI

**Ziba Ağayeva**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
ziba.agayeva57@gmail.com
https://orcid.org 0009-0006-2053-6007

**Xülasə.** Məqalədə dövrümüzün qlobal problemləri dünya çağırışları kontekstində tədqiq edilmiş, inkişaf etmiş böyük dövlətlər tərəfindən müasir texnika və texnologiyanın nəzarətsiz istifadəsi nəticəsində yaranmış qlobal ekoloji problemlər arasında yerin iqlim dəyişikliyinin son onillikdə bəşəriyyəti təhdid edən olduqca ciddi problemə çevrilməsi məsələsi fəlsəfi aspektdən təhlilə cəlb edilmişdir. O cümlədən məqalədə XXI əsrdə ekoloji təhlükəsizliyin xüsusi rolu, ekoloji böhranın təzahürlərindən biri kimi iqlim dəyişikliyinin daha spesifik bir problem olması və bu səbəbdən onun həlli istiqamətində elm və siyasət arasında qarşılıqlı əlaqənin zəruriliyi məsələsi, eləcə də problemin həllində həlledici amil elm olsa da, elmin nəticələrinin əksər hallarda siyasətçilərin prioritet məqsədləri ilə üst-üstə düşməməsi kimi məsələlər təhlil edilmişdir. Məqalədə BMT-nin İqlim Dəyişikliyi üzrə hər il keçirilən konfranslarına diqqət yetirilmiş, bu konfranslarda Azərbaycanın iştirakı və xüsusilə Azərbaycanda 12-24 noyabr 2024-cü il tarixində keçirilmiş COP29 konfransı təhlil edilmişdir.

**Açar sözlər:** qlobal problemlər, dünya çağırışları, ekoloji fəlakətlər, iqlim dəyişikliyi, ekoloji təhlükəsizlik, elm və siyasət, BMT, COP29, tarixi qələbə

# АЗЕРБАЙДЖАН В КОНТЕКСТЕ ГЛОБАЛЬНЫХ МИРОВЫХ ВЫЗОВОВ: COP 29 ЦЕЛИ И ЗАДАЧИ

**Зиба Агаева**

**Резюме.** В статье исследуются глобальные проблемы нашего времени в контексте мировых вызовов, акцентируя внимание на вопросе изменения климата как одной из наиболее серьезных угроз для человечества в последние десятилетия. Особое внимание уделено философскому анализу этого вопроса. В статье рассматривается особая роль экологической безопасности в XXI веке, необходимость взаимодействия науки и политики для решения этой проблемы. Подчеркивается, что результаты науки часто не совпадают с приоритетными целями политиков, хотя наука является решающим фактором в решении данной проблемы. Внимание уделяется ежегодным конференциям ООН по изменению климата; участию Азербайджана в этих конференциях и, в частности, конференции COP 29, которая прошла с 12 по 24 ноября 2024 года в Азербайджане.

**Ключевые слова:** глобальные проблемы, мировые вызовы, экологические катастрофы, изменение климата, экологическая безопасность, наука и политика, ООН, COP 29, историческая победа

# AZERBAIJAN IN THE CONTEXT OF WORLD CHALLENGES:

# GOALS AND OBJECTIVES OF COP29

**Ziba Agayeva**

**Abstract.** This article explores the global problems of our time in the context of world challenges, focusing on the issue of climate change as one of the most serious threats to humanity in recent decades, caused by the uncontrolled use of modern technology and techniques by developed nations. The philosophical aspects of this issue have been analyzed. The article also examines the special role of environmental security in the 21st century, climate change as a more specific problem among the manifestations of the ecological crisis, and the necessity of interaction between science and politics to address this issue. It is emphasized that while science is the decisive factor in solving the problem, the results of science often do not align with the priority goals of politicians. The article pays attention to the annual UN climate change conferences, participation of Azerbaijan in these conferences, and particularly the COP 29 conference, which took place from November 12 to 23, 2024, in Azerbaijan.

**Keywords:** global problems, world challenges, ecological disasters, climate change, environmental security, science and politics, UN, COP 29, historical victory.

## Giriş

Dövrümüzün qlobal problemləri, yer kürəsində müasir həyatın müxtəlif sahələrini əhatə edən, xüsusilə qlobal iqtisadiyyatın qeyri-bərabər, balanssız inkişafı nəticəsində təbiət-cəmiyyət münasibətlərinin pozulmasına adekvat reaksiya olaraq, təbiətdə bəşəriyyəti təhdid səviyyəsinə qədər yüksəlmiş olduqca kəskin ekoloji problemlərin dərinləşməsi səbəbindən yaranmış kataklizmlərin, eyni zamanda bir çox siyasi (məs.: müasir müharibələr, münaqişələrin dərinləşməsi, hərbi sənayenin sürətlə inkişafı və s.) və sosial problemlərin məcmusu olmaqla, müasir dünya çağırışlarını şərtləndirir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 fevral 2021-ci il tarixində imzaladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncamda müasir dünya çağırışları nəzərə alınmış, ölkəmizin növbəti on il ərzində qüdrətli dövlət və yüksək rifah cəmiyyəti kimi inkişafını təmin edəcək, sosial-iqtisadi inkişafının əsas hədəflərini müəyyənləşdirən milli yol xəritəsi təqdim edilmiş, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşmasına əsaslı zəmin yaradılmışdır. Çünki hazırki dövrdə bəşəriyyətin və sivilizasiyanın yaşamasını, əhalinin sosial rifah halının yaxşılaşdırılmasını, bütövlükdə sosial tərəqqini şərtləndirən əsas məsələ qlobal problemlərin həllindən asılıdır.

## Müasir dünyanın problemləri

Müasir dünyanın durmadan dəyişdiyini bəyan edərkən, biz elmi dövriyyəyə yeni heç nə gətirmirik, yəni “evrika” açmırıq. Çünki hələ V əsrdə dialektikanın banisi Heraklitin “hər şey axır, hər şey dəyişir”, “hər şey axır və heç nə yerində qalmır”, Platonun dialoqlarından birində qorunub saxlanılan və başqa bir frazeoloji ifadə olan – "eyni suya ( çay axdığından) iki dəfə daxil ola bilməzsən" kimi məşhur ifadələri eramızdan əvvəl insan həyatında və cəmiyyətdə durmadan, fasiləsiz olaraq baş verən dəyişikliklərin qaçılmaz olduğunu sübut edir. Həqiqətən də, dünyada qalıcı olan, sükunətdə, ətalətdə qalan heç bir şey yoxdur, zaman gedir, “hər şey axır və hər şey dəyişir”. Bu, izaha ehtiyacı olmayan bir aksiomadır [13]. Lakin dünyada baş verən hətta ən cüzi dəyişikliklər belə, bəlkə də gündəlik həyatın axarında o qədər hiss edilməsə də, zaman ötdükcə yeni xüsusiyyətlər qazanaraq, yalnız cəmiyyətin mənəvi, iqtisadi, sosial həyatında deyil, eləcə də beynəlxalq müstəvidə ölkələrin inkişaf səviyyəsini müəyyənləşdirən ən mühüm amilə çevrilir.

Müasir dövrdə yalnız indifferent insanlar (bilik, əxlaq, din və ictimai həyat məsələlərinə daimi biganə insanlar) iqlim dəyişikliyinə, ətraf mühit problemlərinə, ekoloji fəlakətlərə laqeyd münasibət bəsləyə bilər. Əslində isə statistika müasir dövrdə təbii və texnogen faciələrin sayının artdığını, nəticələrinin isə insan həyatı üçün nə dərəcədə ağır və təhlükəli olduğunu göstərir. Orta hesabla son bir neçə onillikdə təbii fəlakətlər hər il dünyada on minlərlə insanın ölümü ilə nəticələnmişdir. Məsələn, təkcə Türkiyədə 1923-cü ilin fevral ayında baş vermiş zəlzələ nəticəsində, rəsmi

məlumatlara görə, 17 min 480 ölüm hadisəsi baş vermiş, 23 min 781 insan xəsarət almış, 133 min 683 bina çökmüş, təxminən 600 min insan evsiz-eşiksiz qalmışdır [12]. Düzdür, təbii fəlakətlər qlobal miqyasda bütün ölümlərin cüzi bir hissəsini təşkil edir, lakin bununla belə, xüsusilə yoxsul, infrastrukturu zəif və orta gəlirli ölkələrdə bu, həssas əhaliyə böyük təsir göstərir.

Əlbəttə ki, müasir dünyada baş vermiş istənilən ekoloji fəlakət (qasırğalar, zəlzələlər, meşə yanğınları, daşqınlar, torpaq sürüşmələri, tornadolar, sunamilər və s.) onu yaşayan insanlar üçün böyük faciədir. Bu tip faciələr digər insanlar üçün, bütövlükdə bəşəriyyət üçün “qırıq pəncərə” effekti verə biləcək bir hadisədir. Çünki dünyanın bir başında baş vermiş təbii fəlakət dolayısı ilə o biri başında rezonans doğurur. Düzdür, Amerika sosioloqları C.Uilson və C.Kellinqin (1982) “qırıq pəncərə” nəzəriyyəsi (əgər binada bir pəncərə sınıbsa və heç kim onu dəyişmirsə, bir vaxtdan sonra bu binada bir dənə də olsa salamat pəncərə qalmayacaq) [11] tam bir hüquqi-kriminoloji mahiyyətli nəzəriyyə olsa da, onu insan həyatının bütün sahələrinə – idarəetməyə, iqtisadi, sosial, psixoloji, eləcə də ekoloji sahələrə aid etmək mümkündür. Çünki müasir dövrdə insanlar nə qədər ki “təsir əks təsirə malikdir” qanunundan bir nəticə çıxarmayaraq təbiətə qarşı, cüzi də olsa, antropogen təsir göstərəcəklər, deməli, antropogen xarakterli ekoloji fəlakətlərin sayı da durmadan artacaqdır.

Bəşər tarixinin inkişafının xüsusilə böyük mərhələsini əhatə edən sənaye inqilabından əvvəlki dövrdə sosial orqanizmin bütün aspektləri vahid bir tamın hissələri kimi demək olar ki, bir-biri ilə əlaqəli, koordinasiyalı şəkildə, sanki “paralel” şəkildə dəyişirdi. Sənayeləşmə dövründə isə əl əməyinin maşın əməyi ilə əvəz olunması iqtisadiyyatın inkişafına görünməmiş təkan verməklə, tam ilə hissələr arasında mövcud “tarazlığı”, zəncirvari əlaqəni kəskin şəkildə pozmuş oldu. Bu isə öz növbəsində sosial həyatın müxtəlif sahələrində, xüsusilə ekoloji sahədə təbiət-cəmiyyət sistemində yaranmış disbalans nəticəsində baş vermiş dəyişikliklərin sürətinin və əhatə trayektoriyasının kəskin şəkildə artmasına və paralel olaraq dünya siyasətinə də təsirsiz ötüşmədi.

Hazırda yerin iqlim dəyişikliyi son onillikdə bəşəriyyəti təhdid edən olduqca ciddi problemə çevrilmişdir. Bir sıra alimlər bunu iqlimdəki təbii dalğalanmanın pozulmasının (son minilliklər ərzində karbon qazının səviyyəsi təbii şəkildə dəyişsə də, hazırda insanların atmosferə atdığı karbon qazı təbii dalğalanmaların ritmini pozmuş və onu qat-qat üstələyir) [10], digərləri isə insanın qlobal miqyasda təbii proseslərə müdaxiləsinin nəticəsi kimi izah edir. Zənnimizcə, bu məsələdə hər iki səbəbin biri digərini şərtləndirdiyindən, onların bir tam şəklində nəzərdən keçirilməsi daha məqsədəuyğun olardı. Çünki hər iki səbəbin tək nəticəsi ondan ibarətdir ki, iqlim dəyişikliyi əvvəlki dövrlərdən fərqli olaraq daha sürətli və qeyri-sabit proses halına gəlmişdir. Bu, bir acınacaqlı faktdır və prosesin belə gedişi yer kürəsində iqlim dəyişikliyi tendensiyasının öyrənilməsini dövrün ən aktual problemlərindən birinə çevirmişdir.

XXI əsrdə dünya səviyyəli ekspertlərin və nüfuzlu siyasətçilərin böyük əksəriyyəti bəşəriyyətin davamlı inkişafında ekoloji təhlükəsizliyin xüsusi rolunu durmadan qeyd edirlər. Hətta din xadimləri də məsələyə olduqça ciddi yanaşaraq, əksər dini tədbirlərdə ekoloji təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirirlər.

İslam Ekologiya və Ətraf mühitin mühafizəsi elmləri Assosiasiyasının verdiyi məlumata görə, 2015-ci ilin avqustunda İstanbulda keçirilən Beynəlxalq İslam Ekoloji Simpoziumda aparıcı müsəlman alimləri İqlim Dəyişikliyi haqqında xüsusi Bəyannamə qəbul ediblər. Bu bəyannamədə ekoloji tarazlığın pozulmasının dayandırılması, yoxsulluğun artması tendensiyasının qarşısının alınması, həmçinin iqtisadi münasibətlərin formalarına yenidən baxılması tələbi BMT-nin İqlim Dəyişikliyi Konfransına dünya müsəlmanları adından göndərilən müraciətdə öz əksini tapmışdır [7; s.156] .

Eləcə də, 2019-cu ildə BMT-nin iqlim dəyişikliyi üzrə sammitinə müraciətində Roma Katolik Kilsəsinin rəhbəri iqlim dəyişikliyi probleminin bilavasitə “etikanın, əxlaqın, bərabərlik ruhunun, sosial ədalətin, mənəviyyatın tənəzzülü və insan ruhunun deqradasiyası” ilə bağlı olduğunu demişdir [9]. Son dövrlərdə BMT-nin və onun təsis etdiyi qurumlarda, nüfuzlu beynəlxalq forumlarda “Səkkizlər qrupu”nun, “İyirmilər qrupu”nun [8] fəaliyyətində ekoloji problemlərə böyük önəm verilir.

Bir çox müsəlman ilahiyyatçı alimləri də ekoloji böhran probleminin insan mənəviyyatı ilə birbaşa bağlı olması məsələsini önə çəkirlər. Məsələn, indoneziyalı müsəlman alim Məhəmməd Əli

də ekoloji böhranı “mənəvi böhran” adlandırır. Onun fikrinə görə, “ekoloji böhran, insanların maddi zənginliyə tuşlanmış varlanmaq ehtirası ilə təbii sərvətlərin həddindən artıq istismarının nəticəsidir. Bu, ruhu qurudur, eqoizm və ifrat fərdiyyətçiliyə səbəb olur. İnsan artıq nə öz ruhu, nə də təbiət haqqında düşünür. Ekoloji fəlakət sosial mövqeyindən, etnik mənsubiyyətindən və əqidəsindən asılı olmayaraq bütün insanlar üçün Allahın cəzasıdır” [7; s.146].

Hazırda ekoloji böhran, nəticələri və onunla mübarizə metodları məsələsi dünya ölkələrinin siyasi gündəliyində önəmli yer tutsa da, bir qayda olaraq beynəlxalq münasibətlərdə əksər hallarda ekoloji arqumentasiya dövlət maraqlarından asılı olaraq istifadə edilir. Yəni, ekoloji böhranın təzahürlərindən biri kimi, iqlim dəyişikliyi daha spesifik bir problem olduğundan, elm və siyasət arasında qarşılıqlı əlaqənin zəruriliyi məsələsi gündəmə gətirilir.

Bir məsələni də xüsusilə qeyd etmək laımdır ki, ekoloji və xüsusilə iqlim xarakterli problemlərin yaranmasında elmin məsuliyyəti olduqca böyükdür. Yeni texnika və texnologiyaların hədsiz inkişafı və iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərin bu texnologiyalardan nəzarətsiz istifadəsi və ümumən antropogen fəaliyyət nəticəsində ətraf mühit parametrlərinin dəyişməsinə və bu parametrlərin hətta bəşəriyyəti belə təhdid edəcək səviyyəyə çatmasına səbəb olmuşdur. Eyni zamanda məhz elmin ekoloji böhranın və iqlimlə bağlı problemlərin miqyasının müəyyənləşdirilməsindəki və problemin aradan qaldırılmasının mümkün inkişaf yollarının və metodlarının tapılmasındakı rolu şübhəsiz olduğundan, göründüyü kimi, elm həm səbəbkar, həm də xilaskardır. Bununla belə, iqlim dəyişikliyinin həllində həlledici amil elm olsa da, elmin nəticələri əksər hallarda siyasətçilərin prioritet məqsədləri ilə üst-üstə düşmür.

Son onilliklərdə beynəlxalq birlik iqlim dəyişikliklərinin həllinə yönəlik çoxlu sayda qərarlar qəbul etmişdir [6]. Bunun üçün imzalanmış çoxsaylı və çoxtərəfli sazişlərin tarixinə və xronologiyasına nəzər salmaq kifayətdir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, iqlim dəyilikliyi problemi əhəmiyyətli dərəcədə sənayeləşmənin, nüvə texnikası və texnologiyasının törəməsi olub, iqtisadi mahiyyət daşısa da, problemin həlli tarixi onun dünya siyasətindən, inkişaf etmiş sənaye dövlətlərinin mövqeyindən asılı olan bir problem olduğunu göstərir. Bu səbəbdən qlobal səviyyədə qəbul olunan qərarlar əksər hallarda ayrı-ayrı ölkələr tərəfindən əvvəlcədən qəbul olunmuş qərarlarla müəyyənləşdirilir. Eyni zamanda, qlobal səviyyədə ziddiyyətlərin ana xətti ənənəvi olaraq iqtisadi maraqları əksər hallarda fərqli olan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasından keçir.

XX əsrin sonlarından başlayaraq beynəlxalq birliyin gündəliyində istər təhlükəsizliyin geniş, istərsə də xüsusi aspektlərində ekoloji təhlükəsizlik problemi əsas yer tutmağa başlayıb. İqlim dəyişikliyi probleminə gəlincə isə onun müzakirəsi artıq 1970-ci illərin sonu, 1980-ci illərin əvvəllərində konkret diplomatik müstəviyə keçərək, bu sahədə qismən də olsa, müəyyən müsbət nəticələrin əldə olunmasına səbəb olmuşdur. 1988-ci ildən isə iqlim dəyişikliyi problemi prioritet ekoloji problemlərdən birinə çevrilmişdir.

BMT-nın 1994-cü ildə qəbul etdiyi İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasından başlayaraq, bütövlükdə beynəlxalq birliyin iqlim dəyişikliyi üzrə bütün fəaliyyətini iki mərhələyə bölmək olar: öz işini başa vurmuş Kioto mərhələsi və qlobal fəaliyyətin yeni mərhələsi olan 2015-ci ildə konsensusla qəbul edilmiş, 2016-cı ildə imzalanmış və bu günə qədər davam edən Paris sazişi.

Son dövrlərdə dünyada beynəlxalq ekoloji təhlükəsizliyə təhdid yaradan iki təhlükəli proses ortaya çıxmışdır:

- Müasir beynəlxalq və hərbi-siyasi şəraitin radikal dəyişikliklərə məruz qalması, dünyanın aparıcı dövlətləri arasında beynəlxalq gərginliyin artması, Rusiya-Ukrayna, İsrail-Fələstin müharibələri, Yaxın Şərq coğrafiyasındakı hərbi münaqişələr kontekstində durmadan kəskinləşən ekoloji problemlər və ekoloji təhlükəsizlik sahəsində qəbul olunmuş qanunların vəziyyətlə ayaqlaşa bilməməsi;
- Müasir mövcud siyasi paradiqmalar çərçivəsində BMT-nın ekoloji təhlükəsizlik sahəsində apardığı əsas danışıqlar mexanizminin effektivliyinin azalması.

Ekoloji problemlərin gərginləşməsi dünyada gedən siyasi, hərbi, iqtisadi proseslərlə birbaşa əlaqəli olduğundan iqlim dəyişikliyi problemi də, yuxarıda qeyd etdiyimiz kimi, siyasi aktuallıq daşıyır.

Hazırda müasir iqlim dəyişikliyi problemi planetimizdə mövcud olan digər qlobal problemlərdən: iqtisadi böhrandan, yeni virus və xəstəliklərin yaranması və yayılması təhlükəsindən, Yer kürəsi əhalisinin həndəsi silsilə ilə artımı tendensiyasından, ərzaq çatışmazlığı və bir sıra ölkələrdə mövcud olan içməli su problemindən heç də az əhəmiyyət kəsb etmir. Vəziyyətin belə təhlükəli həddə çatması ekoloji təhlükəsizlik və iqlim dəyişikliyi ilə bağlı problemlərin qlobal siyasi gündəmin xüsusilə mühüm bəndinə çevrilməsinə səbəb olmuşdur.

**Ekoloji təhlükəsizlik və iqlim dəyişikliyi**

Biz artıq daşqınlar, quraqlıqlar, yanğınlar, temperatur dəyişmələri, qasırğalar şəklində genişmiqyaslı təbii anomaliyalar, cəmiyyət üçün zəruri olan həyati əhəmiyyət kəsb edən təbii sərvətlərin azalması, habelə insan həyatı üçün təhlükəli olan ozon təbəqəsi dəliyi, atmosferin qaz tərkibinin, radiasiya çirklənməsinin və biosferdə baş verən digər faciəyə səbəb ola biləcək dəyişikliklərin, qlobal hadisə və proseslərin müasiri və şahidiyik. Müasir dövrümüz insanın ətraf mühitə, o cümlədən iqlim sisteminə durmadan artan təsiri ilə xarakterizə olunur. Le Şatelye prinsipinə uyğun olaraq (“Sistemi tarazlıqdan çıxaran xarici təsir, sistemdə bu təsirin nəticələrini zəiflətməyə meyilli proseslərə səbəb olur”), Yer kürəsi hələ müəyyən dərəcədə bu ekspansiyaya müqavimət göstərmək gücünə qadirdir. Lakin onun da imkanları hədsiz və hüdudsuz deyil. Bu baxımdan iqlim dəyişikliyi problemi həm milli sərhədlərdən asılı olmayaraq, yer üzündəki bütün insanlar, həm də dünya ölkələrinin böyük əksəriyyətinin siyasi liderləri üçün böyük məsuliyyət və siyasi əhəmiyyət kəsb edir.

BMT-nin İqlim Dəyişikliyi üzrə hər il keçirilən dünya siyasətinin “olimpiadası” kimi qəbul edilən konfranslarına bir çox ölkələr ev sahibliyi etmişdir. İlk beynəlxalq konfrans – COP1 28 mart - 7 aprel 1995-ci il tarixlərində Berlində, daha sonra COP2 1996-cı ildə Cenevrədə, COP3 1997-ci ildə Yaponiyanın Kioto şəhərində baş tutmuşdur. Və artıq məhz bu konfransda konkret dövlətin, iqtisadiyyatının inkişaf səviyyəsindən asılı olaraq, iqlim dəyişikliyi ilə mübarizədə müxtəlif imkanlara malik olduğu qəbul edilmiş və buna müvafiq olaraq atmosferdəki istixana qazlarının hazırkı səviyyələrinə cavabdeh olduqları əsas götürülərək, cari emissiyaları azaltmaq öhdəliyi inkişaf etmiş ölkələrin üzərinə qoyulmuşdur. Daha sonra BMT-nin İqlim Dəyişikliyi üzrə beynəlxalq konfransları mütamədi olaraq hər il Avropanın bir çox böyük 12 şəhərində, Cənubi Amerikanın şəhərlərində (Buanes-Ayresdə (2), Meksikanın Канкун, Lima), Hindistanın rəsmi paytaxti Nyu Dehlidə, beş ərəb dövlətində (Mərakeş (2), İndoneziya, Qətər, Misir, BƏƏ), Kanadanın Monreal şəhərində, Afrikanın (Keniyanın Nayrobi, CAR-ın Durban) böyük şəhərlərində keçirilmişdir.

Rio sammitinin və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının işə başlamasından keçən otuz il ərzində Konvensiya Tərəflərinin hər il keçirilən Konfransları (COP) iqlim məsələləri üzrə dünyanın ən yüksək qərar qəbul edən orqanı və dünyanın ən böyük beynəlxalq toplantılarından biri kimi rəsmi görüş statusu daşıyır. Məqsədi – üzv ölkələrin bu istiqamətdəki birgə fəaliyyətinin razılaşdırılması məqsədilə keçirdikləri iqlim tədbirlərinin keyfiyyət səviyyəsinin müəyyənləşdirilməsi və dəyərləndirməsi missiyasının həyata keçirilməsidir.

BMT-nin İqlim Dəyişikliyi üzrə Parisdə keçirilən (2015-ci il noyabr Le-Burje) 21-ci konfransı iqlim diplomatiyası sahəsində 1992-ci ildə BMT-nin iqlim dəyişikliyi üzrə çərçivə konvensiyasından Kioto protokolundan sonra əldə olunan ən böyük uğuru hesab olunur. Bu uğur öz əksini COP 21-in nəticəsi olan iqlim dəyişikliyi ilə mübarizədə hazırda əsas sənəd hesab olunan Paris sazişində tapır. 197 ölkənin razılığı ilə imzalanmış bu saziş qlobal istiləşmənin tempinin azaldılması (qlobal temperatur artımının indiki 2° C-dən 2100-cü ilə qədər sənayeləşmədən əvvəlki 1.5° C-yə qədər azaldılmasını, iqlim dəyişikliyinin yüksəlməsinin qarşısının alınması və bu yolda qlobal kollektiv fəallığın səfərbər edilməsini hədəfləyir) yolunda “tarixi dönüş nöqtəsi” (L.Fabius) kimi dəyərləndirilir. Konfransda dekabrın ayının 4-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak ediblər. Avropa üzrə Regional Ətraf Mühit Mərkəzinin konfrans çərçivəsində “Az karbonlu inkişaf və iqlim dayanıqlılığı üçün innovativ yanaşmalar” mövzusunda təşkil etdiyi tədbirdə çıxış edən Leyla Əliyeva bəşəriyyətin qarşılaşdığı aktual ekoloji problemləri və onların həlli yolları barədə təkliflərini irəli sürməklə yanaşı, IDEA – Ətraf Mühitin Mühafizəsi

naminə Beynəlxalq Dialoq İctimai Birliyinin bu sahədəki təcrübəsi haqqında ətraflı məlumat vermişdiir [5].

COP28 2023-cü il 30 noyabr-12 dekabr tarixlərində dünyanın ən böyük neft və qaz yataqlarına sahib, ətraf mühitin adambaşına düşən çirklənmə səviyyəsinə görə lider ölkələrindən sayılan BƏƏ-nin paytaxtı Dubayda keçirilmişdir.

Azərbaycan ilk dəfə olaraq COP28-də Heydər Əliyev Fondu, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə yaradılan “İqlim dayanıqlığı üçün davamlı həlləri rəhbər tutaq” (“Pioneering sustainable solutions for climate resilience”) mövzusunda milli pavilyonla təmsil olunmuşdur. İnteraktiv formatdakı pavilyonda Azərbaycanın iqlim dəyişikliyi sahəsində siyasəti, atmosferə atılan istixana qazlarının azaldılması istiqamətində Azərbaycan hökumətinin tədbirləri, mitiqasiya və adaptasiya üzrə fəaliyyəti və bu sahədə digər layihələr barədə məlumat verilmişdir.

Ölkəmiz COP28-də Paris razılaşması çərçivəsində iqlim dəyişikliyi ilə bağlı dünyanın çağırışlarına qoşularaq, 2030-cu ilə qədər “qlobal birja” çərçivəsində iqlim fəaliyyətinin bütün sahələrində – istixana qazlarının istifadəsinin azaldılmasından başlayaraq, dəyişən iqlimdə davamlılığın gücləndirilməsinə, üçüncü dünya ölkələrinə maliyyə və texnoloji dəstəyin göstərilməsinə, külək və günəş enerjisi kimi mövcud enerji mənbələrinə keçilməsinə qədər bütün sahələrdə fəaliyyət göstərməyi öz öhdəsinə götürmüşdür. Qeyd edək ki, ölkəmiz 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyasının 35 faiz azaldılması, 2050-ci ildə isə bu hədəfin 40 faizə çatdırılacağına dair öhdəliyi təsdiqləyib. 2015-ci ildə qəbul edilən Paris sazişi üzrə öhdəlikləri yerinə yetirmək və bu istiqamətdə aktiv fəaliyyət göstərmək Azərbaycan hökuməti üçün prioritet məsələdir [4].

COP28-də "qlobal birja" Paris razılaşması çərçivəsində iqlim dəyişikliyi ilə bağlı dünya çağırışlarına xüsusilə böyük əhəmiyyət verilmişdir. İqlim fəaliyyətinin bütün istiqamətlərində – istixana qazlarının istifadəsinin azaldılmasından tutmuş, iqlim dəyişmələrində davamlılığın gücləndirilməsinə, yoxsul ölkələrə maliyyə və texnoloji dəstəyin göstərilməsinə qədər bu sazişin 2030-cu ilə qədər bütün sahələrdə reallaşmasına nail olmaq hədəf kimi götürülmüşdür. Əsas məsələ ekstremal iqlimlə mübarizədə qlobal fəaliyyət proqramına əsasən ölkələrin elektrik və günəş enerjisi kimi mövcud enerji mənbələrinə keçməsidir.

Təbii ki, problemin həlli COP28-lə başlanmayıb və onunla da bitmir. Lakin istənilən halda COP28 yanacaq dövrü üçün “sonun başlanğıcı” (“the begin of the end”) olduğunu bütün dünyaya bəyan etmişdir. COP28-in BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəfləri öz razılaşmalarının son versiyalarını 2024-cü ilin iyun ayına qədər Tərəflərə, yəni növbəti 11-22 noyabr 2024-cü il tarixlərində Azərbaycanın paytaxtı Bakının ev sahibliyi edəcəyi COP29-da təqdim edəcəkləri nəzərdə tutulmuşdur. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub [3].

Dünyada mövcud mürəkkəb tarixi geosiyasi şəraitə, beynəlxalq vəziyyətin gərgin olmasına, baş verən müharibələrə, bir şox neqativ proseslərə, durmadan artan terror aktları təhlükəsinə və s. baxmayaraq, 2024-cü ilin noyabr ayında Bakıda keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a ev sahibliyi etməsi dünya bazarında bərpa olunmayan karbohidrogenlərin təchizatçılarından biri kimi öz payı olan bir ölkə olaraq ölkəmiz üçün olduqca önəmli hadisədir.

COP29-un Bakıda keçirilməsi Azərbaycanın yaşıl enerji siyasətinə qlobal dəstəyi ifadə edir. Buna uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. 2020-ci ildə 44 günlük müharibədən sonra Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizi və Naxçıvanı “yaşıl enerji bölgəsi” adlandırıb və bu istiqamətdə hazırda genişmiqyaslı işlər aparılır.

12 noyabr 2024-cü il Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimindəki nitqində ölkə Prezidenti İlham Əliyev: “Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmət əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük” [2] demişdir. Belə bir nüfuzlu tədbirin İkinci Qarabağ müharibəsindəki qələbəmizin məntiqi nəticəsi olaraq, Ermənistanla düşünülmüş, ardıcıl sülh siyasətinin yürüdülməsi, düzgün taktika və strateğiyanın sərgilənməsi, uğurlu diplomatiyanın nailiyyətləri sayəsində postsovet məkanında ilk dəfə olaraq Bakıda

keçirilməsinə razılıq əldə edilməsi, Azərbaycanın istər siyasi, istər hərbi, istərsə də iqtisadi baxımdan dünyada öz sözünü demək iqtidarına malik bir ölkə kimi, mövqeyinə, nüfuzuna, beynəlxalq etimadına, dünyada baş verən hadisələrə balanslı mövqeyinə, eyni zamanda BMT səviyyəsində ölkədə siyasi və iqtisadi sabitliyin tanınmasına və qlobal səviyyəli tədbirlərin keçirilməsi üçün ideal məkan olmasına dəlalət edir.

**Nəticə**

12-24 noyabr tarixində Bakıda keçirilən CO29 Azərbaycanın qüsursuz təşkilatçılığı, 76 min nəfərin qeydiyyatdan keçməsi ilə tarixə düşdü. Tədbirin açılış mərasimində çıxış edərək: "Azərbaycan Şimal və Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşıma yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib" [2] deyən ölkə Prezidenti İlham Əliyev hazırki dövrdə artıq Azərbaycanın sıradan bir ölkə deyil, beynəlxalq səviyyədə öz sözünü deməyə, qlobal oyunçu kimi öz mövqeyini, öz maraqlarını müdafiə etməyə qadir, dünya siyasətinin ön cərgəsinə çıxmağı bacaran, eyni zamanda Azərbaycan xalqının etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində yaşadığı bir ölkə olduğunu diqqətə çatdırdı.

COP29 BMT-nin İqlim Dəyişikliyi üzrə konfranslar tarixinə olduqca əhəmiyyətli səhifələr yazdı:

– Qlobal qərarların qəbul olunduğu və dövlətlərin strateji əməkdaşlıq imkanlarının müzakirə edildiyi dünya səviyyəli diplomatik tədbir olaraq, COP-un Azərbaycan modeli kimi tarixə düşdü;

– COP29 Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra yaratdığı yeni reallıqların, regionda sülh, inkişaf və əməkdaşlığa xidmət göstərdiyini beynəlxalq miqyasda nümayiş etdirdi.

– Bu tədbir bütün dünyaya Azərbaycanın qlobal problemlərin həllində fəal iştirakçı və etibarlı tərəfdaş olduğunu sübut etdi;

– Azərbaycanın yaşıl gündəliyi- enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi, günəş, külək və hidroenerji stansiyalarının tikilməsinin planlaşdırılması sahəsində fəaliyyəti dünya ölkələrinə bir nümunə kimi göstərildi;

– Azərbaycanın hər zaman sülh, təhlükəsizlik və əməkdaşlıq çağırışları edən bir ölkə olduğunu bütün dünyaya bəyan etdi;

– COP29 Azərbaycanın qlobal problemlərin həllinə məsuliyyətli yanaşma sərgiləyən bir ölkə kimi nüfuzunu artırdı;

– COP29 Azərbaycanın regiondakı prosesləri qlobal siyasətlə inteqrasiya etmək bacarığını və dünyada özünəməxsus yerini daha da möhkəmləndirdiyini bir daha sübut etdi;

– Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyinin düzgün başa düşüldüyünü və qəbul edildiyini ortaya qoydu;

– Azərbaycan 200 ölkənin etimadını doğruldaraq, qlobal iqlim maliyyələşdirilməsi sistemində (inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşdirməsini üç dəfə artırmaq, 2035-ci ilə qədər iqlim danışıqları çərçivəsində razılaşdırılmış əvvəlki 100 milyard ABŞ dolları hədəfinin artımını ildə 300 milyard ABŞ dollarına çatdırmaq barədə tarixi qərar əldə olundu) əsaslı dəyişikliklərə səbəb olacaq tarixi qərarlarla yadda qaldı;

– Azərbaycan milli iradənin gücünə arxalanaraq birlik, həmrəylik və müdriklik sayəsində beynəlxalq səviyyədə ümummilli uğura imza atdı.

–Bu tədbir bir daha Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş olduğunu sübut etdi.

Azərbaycan coğrafi, iqlim, milli, mədəni, geosiyasi xarakterli çoxsaylı xüsusiyyətlərə malik ölkədir. Bu xüsusiyyətlərdən hər biri ölkənin müasir vəziyyətinə və inkişafına, eləcə də ekoloji mövqeyinə öz təsirini göstərir. Bilavasitə və ya dolayısı, qaçılmaz olaraq qlobal amillərin təsirinə məruz qalan respublika öz ekoloji mövqeyinin əsasına özünün prioritet saydığı məsələləri qoyur. Azərbaycanın ekoloji siyasəti bu sahədə onun milli maraqlarının müdafiəsinin təmin olunmasına xidmət edir. Azərbaycanın ekoloji siyasəti onun inkişaf tendensiyasına zidd olmayıb, onun milli maraqlarının etibarlı müdafiəsini təmin edir. Təsadüfi deyildir ki, dünyada baş verən qlobal ekoloji problemlər, ölkəmizin ekoloji durumu və xüsusilə işğaldan azad edilmiş torpaqların acınacaqlı ekoloji

vəziyyəti nəzərə alınaraq növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair reallaşdırılacaq beş Milli Prioritetdən sonuncusu kimi “təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” müəyyənləşdirilmişdir [1].

COP29-un Azərbaycanda keçirilməsinin ölkəmiz üçün yalnız ekoloji təhlükəsizlik, enerji keçidi, yaşıl artım, yaşıl iqtisadiyyat, Azərbaycanda, xüsusilə Qarabağda yaşıl və ekoloji cəhətdən təmiz zonaların yaradılması, külək və günəş enerjisi layihələrinin reallaşdırılması, Avropa İttifaqına qədər uzanan yaşıl enerji dəhlizlərinin gələcəyi baxımından deyil, eyni zamanda 30 illik erməni işğalının nəticələrinin ətraf mühitə təsiri, səhralaşma, meşə ekosisteminin və onun tərkib hissəsi olan qiymətli flora və fauna növlərinin məhvi, bütövlükdə ekosid, o cümlədən ərazisinin minalarla çirklənməsinə görə dünyada ilk üçlükdə yer aldığından olduqca ciddi mina və işğalla əlaqəli bir sıra digər problemlərin beynəlxalq səviyyədə dünya ictimaiyyətinə çatdırılması və həlli istiqamətində ölkəmizin səmərəli fəaliyyəti baxımından böyük önəm daşıyır.

## İstifadə olunmuş ədəbiyyat

1.“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı" https://president.az/

2. 12 noyabr 2014-cü il Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimindəki nitqində ölkə Prezidenti İlham Əliyevin nitqi. https://president.az/az/articles/view/67324

3. يشير مؤتمر الأمم المتحدة المعني بتغير المناخ (COP28) إلى بداية نهاية عصر الوقود الأحفوري https://www.un.org/ar/climatechange/cop28

4. BMT-nin İqlim Dəyişmələri Konfransında Azərbaycan pavilyonu fəaliyyət göstərəcək. https://azertag.az/xeber/bmt

5. Parisdə BMT-nin İqlim Dəyişikliyi üzrə 21-ci Konfransı davam edir. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva konfransda iştirak ediblər. azertag.az/xeber/05.12.2015

6. https://az.wikipedia.org/wiki/%C4%B0qlim.

7. Ислам в мировой политике в начале XXI века : учеб. пособие / под ред. Л.М. Ефимовой, М.А. Сапроновой; [А.М. Ахунов, В.А. Ахмадуллин, Р.И. Беккин и др.]; Моск. гос. ин-т междунар. отношений (ун-т) М-ва иностр. дел Рос. Федерации, каф. востоковедения. — М.: МГИМО-Университет, 2016. 345, [1] с. ISBN 978-5-9228-1401-0 https://mgimo.ru/upload/iblock/898/

8. Хайнал П. И. Система «Группы восьми» и «Группа двадцати»: эволюция, роль и документация 2007. Т. 2. № 3. С. 82–83“The G8 System and the G20. Evolution, Role and Documentation” (ing. D. Adı) https://iorj.hse.ru/2007-2-3/26965822.html

9. https://www.blagovest-info.ru/index.

10. Vikipediya CC BY-SA 3.0 https://creativecommons.

11. https://ru.wikipedia.org/wiki/%

12. https://www.google.com/search?q=T%C3%BCrk.

13. https://az.wikipedia.org/wiki/

**Rəyçi: f.e.d., prof. İlham Məmmədzadə**

**UDC 1(091)**
**https://doi.org/10.30546/ifs.2024.2(43).007**

# APERÇU SUR LE CONCEPT D’ISTHME (BARZAKH) SELON LA DOCTRINE IBN ARABI PROPOSITION POUR UN TIERS-LIEU DE RENCONTRE ENTRE SCIENCE ET RELIGION

**Par Laila Khalifa, Jordanie**

«En remuant les deux flots (salé et doux) Il (Dieu) a donné libre cours aux deux mers pour se rencontrer, il y a entre eux un *barzakh* qu’ils n’outrepassent pas.*»* **(Coran 55: 19-20)**

« S’il n’y avait pas le *loin de l’équilibre*, il n’y aurait pas de vie, il n’y aurait pas de cohérence ». **Ilya Prigogine**[1]

***Résumé.*** La rencontre entre religion et science est un défi aussi difficile qu’attrayant. Des siècles durant, la religion a dominé la science, surtout en occident, où les scientifiques étaient accusés d’hérési. En effet, ils étaient rejetés par la société s'ils produisaient des résultats scientifiques qui n'étaient pas en accord avec les principes de la religion. Par la suite, la domination de la science sur la religion se fait entendre après la renaissance scientifique soutenue par les progrès technologiques accomplis durant l'ère moderne. Beaucoup parmi les chercheurs en science appliquée, considèrent qu'adopter l'idée d’un Créateur ne sert qu’à combler le vide de l'ignorance du monde à l'égard des questions scientifiques, certifiant ainsi, que l’esprit scientifique est incompatible avec le dogme religieux.

Devant les impasses auxquelles la science fait face aujourd’hui, dans cette époque de post-postmodernisme, nombreux sont les chercheurs qui rappellent la nécessité de reconsidérer certains paradigmes scientifiques susceptibles d’intégrer la philosophie, voire les « sagesses » des religions. Cependant l’idée d’un Dieu Créateur reste gênante dans le milieu scientifique, et subséquemment d’établir un cadre de référence théorique et philosophique tout en évitant l’Idée d’un Dieu Créateur. Ainsi, certains chercheurs se sont tournés vers des sagesses venant de l’Extrême-Orient (l’hindouisme ou le bouddhisme, ou encore le Taoïsme). D’autres se sont tournés vers la philosophie occidentale, comme celle de Hegel, Kant et Spinoza entre autres. Mais tout compte fait, concernant la première catégorie, nous trouvons que la rencontre de la Sagesse d’Extrême-Orient et la sagesse des religions sortie du Moyen-Orient, est de toute évidence en harmonie avec la dimension ésotérique appelée *irfan* en arabe (voir les travaux de René Guénon, de Sachiko Murata, et surtout ceux de Toshihiko Izutsu).

Le Sheikh consacre le troisième chapitr des *Futûhât* à « la transcendance (*tanzih*) de Dieu (le Vrai), à ce que portent les « plis » des énoncés, d'assimilation **(***tashbih*) et de matérialisation (*tajsîm*) qu'Il s'est attribué à Lui-même- Qu'Il soit exalté et Il est bien plus élevé que ce que disent les injustes ». Le Sheikh se demande quelle assimilation il y aurait entre le non crée (l'ancien *al-qadîm*) et le créé *(al-muhdath*) ? Entre celui qui a un semblable et celui qui n'a pas de semblable ? Cette science appartient à la science de l'extraction de l'unicité *(tajrîd al-tawhid)* qui diffère de toute autre science, confirme Ibn ‘Arabî.[1]

Quant au concept d'immanence, Ibn Arabi ne l'envisage jamais indépendamment ou seul. Il conçoit toujours l'immanence en lien avec la transcendance, qu'il s'agisse de transcendance dans l'immanence (*tanzîh fi tashbîh*) ou l'inverse, en fonction des indices circonstancielles (*qarâ'in al ahwâl*). Ainsi, deux situations émergent. Pour la première, Ibn Arabi valide l'assimilation à Dieu des attributs humains comme la royauté, nous avertissant qu'il ne faut pas dire que le roi au sein de son royaume est comparable à Dieu dans Son Royaume, mais plutôt, que Dieu, Roi dans Son Royaume est semblable à l'homme en tant que roi dans son royaume. Ainsi la transcendance de la royauté divine est conservée et l'homme-roi ne peut pas ressembler à Dieu-Roi. Il s'agit évidemment dans ce cas, de transcendance dans l'immanence.

Cela dit, dans la deuxième situation Ibn Arabi souligne l'erreur selon laquelle ceux qui pratiquant le *ta'wîl*, en assimilant Dieu à l'homme, et en Lui attribuant des caractéristiques humaines, «la question est inversée, (dit-il), car en vérité, le sourire et le rire appartiennent à Dieu, et c'est l'homme qui métaphoriquement ressemble à Dieu. Il faut comparer le plus bas au plus haut ». Pour Ibn Arabi, c'est la rose des jardins qui ressemble aux joues de sa bien-aimée, et ce sont les tendres branches de l'arbre qui ressemblent à sa silhouette. Évidemment, il s'agit ici d'immanence dans la transcendance.

Les passages concernant le *ta'wîl* dans l'œuvre d'Ibn Arabi laissent entendre à la fois une condamnation sévère du *ta'wîl* par le Sheikh, et en même temps son instauration. En réalité, Ibn Arabi qui donne la supériorité au dévoilement et aux théophanies (*tajallî),* recourt lui-même au *ta'wîl,* et aux autres modes de pensée philosophique, d'interprétation et d'analyse, d'induction et de déduction. Il recourt à différentes exégèses du coran, à la philologie de la langue arabe, et à l'effort d'interprétation (*ijtihâd)*. Comment faut-il entendre ce qui semble comme contradictions devant lesquelles certains grands chercheurs comme Massignon ont vu une incohérence?

D'après Ibn ‘Arabî, la science la plus élevée appartient au rang le plus élevé des hommes de Dieu ; elle est la science des mesures (*mawâzîn),* des quantités (*maqâdîr*) et des lieux [position ou emplacement (*mawâtin)]*. Elle permet à l'homme de savoir où et quand utiliser et dépenser ses facultés. Si le *ta'wil* est concevable dans un lieu, il ne l'est pas dans un autre. Les lieux et les temps (espace-temps) ont leurs autorités *(ahkâm) «* Dans les yeux l'eau est larme, dans la gorge salive, et dans les reins urine » fait remarquer le Sheikh dans ses *Futûhât.* Et les larmes de joie ne sont pas les même que les larmes de tristesse.

Négation et affirmation du *ta'wîl*, Ibn ‘Arabî est conforme au plan divin « Rien n'est à Son image, Il est l'Auditant et le Voyant parfaits »[2]

[1] Fut. 1, p. 92-98.
[2] Cor.42 :11.

**Comment procède Ibn 'Arabî dans son *ta'wîl* ?**

Nous relevons trois étapes dans la démarche du *ta'wîl* chez le *Sheikh al-akbar*[1] : Dans la première, il observe et examine le sujet (ou l'objet) dans son intégralité, le considérant sous ses multiples angles ou plus précisément à partir de ses différents cadres de référence (*haythiyyât*). Il donne plusieurs définitions de ces derniers, rassemblant ainsi les sens premiers de la totalité de l'objet étudié. Car l'homme ne pourrait jamais étudier un objet tel qu'il se présente pour lui-même. Le Sheikh donne l'exemple du soleil, dont on ne peut étudier le corps céleste *(jurmaha*) que par rapport à nos cadres de référence et non en ce qu'il représente pour lui-même.[2] Le rapport du chercheur n'est pas directement attaché à l'objet même (*ma'lûm),* mais aux informations (*ma'lumt)* données par l'objet selon les différents cadres de référence. Ibn 'Arabî définit aussi les énoncés et les vocabulaires en donnant leur sens premier et en proposant des synonymes (*nazâ'ir).*

Dans la deuxième étape, le Sheikh entre dans les particularités *(juz'iyyât).* Il analyse leurs sens et suit leurs liens, saisissant la quiddité de l'objet -sujet étudié. C'est ici que nous trouvons le sommet du *ta'wîl* chez le Sheikh, où chaque sens ou forme devient symbole (signe).

Quant à la troisième étape, le Sheikh, reprend la totalité du sujet proposant le sens *(ma'nâ*) ultime du Tout et du détail (particules). La relation entre le Tout et sa partie, dans l'œuvre des *Fusûs,* représente une sagesse incomparable appartenant au Prophète Muhammad.[3]

Cette étape est un retour. Mais comme le fait remarquer Ibn Arabi : « avec une nouvelle constitution ». Autrement dit, avec un nouveau regard, une nouvelle science. Il résume ce processus en l'attribuant au sage (*labîb)* : «il s'agit d'une composition (*tarkîb),* suivie par une décomposition ou analyse *(tahlîl*) qui aboutit (mûrit) à nouveau à une composition (*tarkîb) »*[4]

Pour comprendre la fonction du *ta'wîl* chez Ibn 'Arabî, tout en suivant sa démarche même de *ta'wîl,* nous l'assimilons au stade intermédiaire de modélisation dans une approche scientifique, qui comprendrait des schémas et des équations (symboles) et qui se situerait entre observation et interprétation.

**Conclusions.**

Nous remarquons, que dans les deux démarches soufies et scientifiques, dans leurs quêtes de sens et de cohérence, chacune selon ses normes et méthodes, partent d'un monde sensible vers cet univers de symboles pour retrouver à nouveau le monde sensible avec une connaissance nouvelle. D'après Ibn Arabî, pour adhérer au sens profond d'un concept, il faudrait traverser les degrés (*marâtib*) de l'existence (*wujûd),* tout en examinant le sens de ce concept à chaque niveau (*martaba)* « regarde (examine) le (le sujet- objet d'étude) d'abord dans le monde sensible *(hiss*), ensuite dans l'univers de la nature (*tabî'a),* puis dans les sens spirituels, et enfin dans la science divine (*'ilâhî) »*[5] Cette dernière englobe et entoure toute chose et est l'origine de toutes les sciences : « Toute science a pour origine la science divine » écrit Ibn 'Arabî.'[6] Ainsi avec cette dernière, l'homme se rassemble harmonieusement dans l'unicité même de la vraie Existence (*al-wujûd al-Haqq).*

Aujourd'hui, dans le monde de physique, on admet la présence des frontières qui séparent deux milieux en équilibre. Dans ces frontières « *loin de l'équilibre* » des nouveaux systèmes naissent. Il s'agit des phénomènes complexes, rythmiques, et ordonnés. Ilya Prigogine (1917-2003. Prix Noble de chimie en 1977) parle « des phénomènes extraordinaires que personne n'aurait cru possibles. ». [7]

[1] Voir laila Khalifa, « le corps humain dans l'herméneutique d'Ibn 'Arabî », article donné l'hors du premier colloque international soutenu en 2005 à Damas sur le ta'wîl chez Ibn 'Arabî, les Actes de colloque ont étaient publiés en 2007 par l'institut français du proche orient à Damas, sous la direction de Bakri Aladin, ayant pour titre: *Symbolisme et Herméneutique dans la pensée d'Ibn Arabi.*

[2] Fut., 1, p. 94.

[3] Voir le vingt septième chapitre de *Fusûs al Hikam.*

[4] Voir le Turjumân

[5] Fut., 1, p.170

[6] Ibid.

[7] Ilya Prigogine, «Temps à devenir », texte paru dans *la revue Science et Avenir* N°146, 2006, extrait d'une conférence prononcé par le savant en 1993, publié en 1994 aux éditions Fides.

Les deux sciences, temporelle et spirituelle, considèrent ce lieu (*barzakh)* comme source de vie. Ainsi que nous l'avons vu dans le Coran, ce lieu est marqué par la roche auprès duquel le poisson de Moïse a repris vit s'éloignant dans les eaux « des sciences ». Ilya Prigogine à son tour affirme « s'il n'y avait pas le *loin de l'équilibre*, il n'y aurait pas de vie, il n'y aurait pas de cohérence ».[1]

Nous pensons qu'en effet dans ce lieu (de vie) qui est le *barzakh* (isthme) « loin de l'équilibre[2] », l'homme renouvellera et renforcera sa connaissance de lui-même, ses sciences du monde et de la Vrai Existence *(al Wujûd al -Haqq).*

A la lumière de ce concept d'Isthme, nous proposons aux quatre visions de la science et de la religion, proposées par Ian G. Barbour, dans son livre *Quand la science rencontre la religion*, le conflit, l'indépendance, le dialogue et l'intégration. Nous adjoignons aux deux derniers privilégiés par Barbour dialogue et intégration, le concept de Isthme et de créativité. Nous proposons d'envisager la Science et la religion, comme les deux flots, salé et doux, comme mentionnés dans le Coran, ils se rencontrent et ne s'outrepassent pas dans un lieu «loin de l'équilibre des deux milieux» *barzakh* (isthme).

**Rəyçi: f.f.d., dos. Zöhrə Əliyeva**

---

[1] Ibid.

[2] Il faudrait entendre par là, loin de l'équilibre des deux milieux, puisque le barzakh à certes son propre équilibre.

**UOT 1(091)**
**https://doi.org/10.30546/ifs.2024.2(43).009**

# AKADEMİK FİRUDİN KÖÇƏRLİNİN YARADICILIĞINDA AZƏRBAYCAN FƏLSƏFƏ TARİXİNİN TƏDQİQİ VƏ FƏLSƏFİ MƏSƏLƏLƏR

**Faiq Ələkbərli**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, aparıcı elmi işçi
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,Türk xalqlarının fəlsəfəsi tarixi və
müasir fəlsəfəsi şöbəsinin müdiri, **Azərbaycan**
faikalekperov@mail.ru
https://orcid.org/0000-0002-8865-568x

**Xülasə.** Məqalədə akademik Firudin Qasım oğlu Köçərlinin (1920-2005) Azərbaycan xalqının ictimai fikrində və fəlsəfə tarixində rolu və yeri araşdırılmışdır. Müəllif burada akademikin Azərbaycan xalqının fəlsəfə tarixi yaradıcılığında böyük rol oynamış Mirzə Fətəli Axundzadə, Üzeyir Hacıbəyli, Nəriman Nərimanov, Ömər Faiq Nemanzadə və başqa mütəfəkkirlərimiz haqqında apardığı irsi araşdırmaların geniş təhlilini vermişdir. Məsələn, akad. F.Q.Köçərliyə görə, fəlsəfə və ictimai fikrimizin M.F.Axundzadənin adı ilə bağlı olan maarifçilik mərhələsi Azərbaycan xalqının təşəkkül prosesi ilə eyni dövrə təsadüf edir. M.F.Axundzadə Azərbaycanın milli ideologiyasının təməl prinsiplərinin ilk rüşeymlərinin yaranmasında, azadlıqsevər, açıqfikirli mütəfəkkirlərimizin formalaşmasında müstəsna rol oynamışdır. Eyni zamanda, akademik Nəriman Nərimanovun dünyagörüşünü hərtərəfli araşdıraraq onun milliyyət, islamiyyət, sosial-demokratiya məsələləri barədə fikirlərini tədqiq etmişdir. Həmçinin F.Köçərlinin əsərlərində sosializm quruculuğunun aktual problemlərinin tədqiqi və dinin tənqidi də mühüm yer tutmuşdur. Sosializm quruculuğunun aktual problemləri istiqamətdə o, yeni insanın təşəkkülü, zəhmətkeşlərin ateizm, beynəlmiləlçilik tərbiyəsi problemlərinə dair bir sıra kitablar, çoxlu məqalələr yazmışdır. Eyni zamanda, onun ictimai-fəlsəfi görüşlərində din problemi və onun həlli yolları da mühüm yer tutmuşdur. Sovet ideologiyasından çıxış edən akademik hesab etmişdir ki, bütün dinlər, o cümlədən İslam dini cəmiyyətlərin həyatında ziddiyyətli rol oynamışdır.

**Məqsəd** – akademik Firudin Köçərlinin Azərbaycan xalqının fəlsəfə tarixi ilə bağlı yaradıcılığını təhlil etmək.

**Metodologiya** – müqayisəli təhlil, varislik, ideyaların ötürülməsi, analiz.

**Elmi yenilik** – Sovetlər Birliyi dövründə formalaşmış milli fəlsəfi fikri tariximizlə çağdaş dövrün ictimai-siyasi və ideoloji tələbləri arasında uzlaşdırmaların axtarılması.

**Açar sözlər:** Azərbaycan xalqının fəlsəfə tarixi, M.F.Axundzadə, Üzeyir Hacıbəyli, Nəriman Nərimanov, Ö.F.Nemanzadə, ateizm, İslam dini

# ИССЛЕДОВАТЕЛЬСКИЕ И ФИЛОСОФСКИЕ ВОПРОСЫ ИСТОРИИ АЗЕРБАЙДЖАНСКОЙ ФИЛОСОФИИ В ТВОРЧЕСТВЕ АКАДЕМИКА ФИРУДИНА КОЧАРЛИ

**Фаиг Алекперли**

**Резюме.** В статье рассматривается место академика Фирудина Гасым оглы Кочарлы (1920-2005) в истории философии и в общественном мнении азербайджанского народа. Автор отмечает, что в создании истории философии азербайджанского народа академик исследовал наследие Мирзы Фатали Ахундзаде, Узеира Гаджибейли, Нариман Нариманова, Омар Фаига Неманзаде. По мнению академика Ф.Г.Кочерли, просветительский этап нашей философии и общественного мнения связан с именем М.Ф.Ахундзаде, который совпадает с процессом формирования национальной идеологии Азербайджана и азербайджанского народа, а вопросы

национальности, ислама и социал-демократии прослеживаются в элементах мировоззрения Н. Нариманова. В работах Ф.Г. Кочерли важное место заняли исследования актуальных проблем социализма и критика религии. Академик, считал, что все религии, в том числе и ислам, играют противоречивую роль в жизни общества, а в контексте современных проблем строительства социализма – это создание нового человека.

**Цель**: проанализировать труд академика Фирудина Кочарли, связанный с историей философии азербайджанского народа.

**Методология**: сравнительный анализ, наследование, передача идей, анализ.

**Результаты исследования**: поиски примирения между отечественной философской историей, сложившейся в период Советского Союза, и общественно-политическими и идеологическими запросами современной эпохи.

**Ключевые слова:** философия истории азербайджанского народа, М.Ф. Ахундзаде, Узеир Гаджибейли, Нариман Нариманов, О.Ф. Неманзаде, атеизм, Ислам

## RESEARCH AND PHILOSOPHICAL ISSUES OF THE HISTORY OF AZERBAIJAN PHILOSOPHY IN THE WORKS OF ACADEMICIAN FIRUDIN BEY KOCHARLI

**Faig Alakbarli**

**Abstract.** The article investigates the place of Academician Firudin Gasim oglu Kocharli (1920-2005) in the public opinion of the Azerbaijani people and in the history of philosophy. The author shows here that the academician researched the heritage of Mirza Fatali Akhundzade, Uzeyir Hajibeyli, Nariman Narimanov, Omar Faig Nemanzade and other thinkers in the works of the history of philosophy of the Azerbaijani people. For example, According to Academician F.G. Kocharli, the enlightenment stage of our philosophy and public opinion, which is connected with the name of M.F. Akhundzadeh, coincides with the formation process of the Azerbaijani people. M.F. Akhundzadeh played an exceptional role in the formation of the first embryos of the basic principles of the national ideology of Azerbaijan, and in the formation of our freedom-loving, open-minded thinkers. At the same time, the academician carefully studied the worldview of N. Narimanova, in which the issues of nationality, Islam and social democracy were studied. An important place in F.Kocharli's work was the study of actual problems of socialism and criticism of religion. The academician, coming from Soviet ideology, believed that all religions, including Islam, play a contradictory role in the life of society, and in the context of modern problems of building socialism, this is the creation of a new person.

**Purpose** - To analyze academician Firudin Kocharli's work related to the history of philosophy of the Azerbaijani people.

**Methodology** - comparative analysis, inheritance, transmission of ideas, analysis.

**The results of the study** - Searching for reconciliations between our national philosophical history formed during the Soviet Union and the socio-political and ideological demands of the contemporary era

**Keywords**: Philosophy history of the Azerbaijani people, M.F. Akhundzadeh, Uzeyir Hajibejli, Nariman Narimanov, O.F. Nemanzadeh, Atheism, Islam.

### Giriş/Introduction

Quzey Azərbaycanın Gədəbəy rayonunun İsalı kəndində müəllim ailəsində anadan olan akademik Firudin Qasım oğlu Köçərli (1920-2005) yeddiillik kənd məktəbini bitirdikdən sonra Gəncə şəhərində pedaqoji texnikumda təhsilini davam etdirmişdir. 1939-1945-ci illər ərzində vaxtilə təhsil aldığı İsalı kənd məktəbində müəllim işləyən F.Q.Köçərli 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin (ADU) tarix fakültəsi nəzdində açılmış fəlsəfə şöbəsinə daxil olub. Daha sonra M.V.Lomonosov adına Moskva Dövlət Universiteti fəlsəfə fakültəsinin aspiranturasında oxuyan F.Q.Köçərli 1954-cü ilin martında “Azərbaycan xalqının sosialist mədəniyyətinin təşəkkülü” mövzusunda

namizədlik dissertasiyasını müdafiə etmiş, 1958-ci ilə qədər ADU-nun Fəlsəfə kafedrasında baş müəllim və dosent vəzifəsində işləmişdir [3, s.16-17].

1958-ci ilin martından etibarən Azərbaycan SSR Elmlər Akademiyasının fəlsəfə bölməsində əvvəlcə şöbə müdiri, sonra isə bölmənin rəhbəri vəzifəsində çalışıb. O, 1966-cı ildə “Azərbaycanda inqilabi demokratik fikir və Nəriman Nərimanov” doktorluq dissertasiyasını müdafiə etmişdir.

Akademik 1968-ci ildə Fəlsəfə İnstitutu bərpa edildikdən sonra onun ilk direktoru təyin olunmuş, 1984-cü ilə qədər də bu vəzifəni daşımışdır. Eyni zamanda, 1973-cü ildə yaradılmış Azərbaycan Fəlsəfə Cəmiyyətinin ilk rəhbəri olmuşdur. F.Q.Köçərlinin təşəbbüsü ilə Zaqafqaziya respublikalarının fəlsəfə institutları 70-ci illərdə 6 böyük elmi sessiya keçirmiş, 6 adda kitab nəşr etdirmişdir. Fəlsəfə elminin inkişafındakı xidmətləri nəzərə alınaraq o, 1968-ci ildə Azərbaycan Elmlər Akademiyasına müxbir üzv, 1976-cı ildə isə həqiqi üzv seçilmişdir [1, s.67].

F.Q.Köçərli 1984-2005-ci illərdə də əsasən, AMEA Fəlsəfə və Hüquq İnstitutunda çalışmış onlarla elmlər namizədi, elmlər doktorlarının yetişdirilməsində mühüm rol oynamışdır. Yeri gəlmişkən, bu məqalənin müəllifi akademik Firudin Qasım oğlu Köçərlini 2001-2004-cü illərdə AMEA Fəlsəfə və Hüquq İnstitutunun aspirantı olarkən yaxından tanımışdır. Həmin illərdə “XX əsrdə Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikir tarixində M.Ə.Rəsulzadənin yeri və rolu” mövzusunda namizədlik dissertasiyası (indiki adıyla fəlsəfə doktorluğu) üzərində işləyərkən elmi rəhbərim akademik F.Q.Köçərli olmuş, işlə bağlı tövsiyələrini heç bir zaman məndən əsirgəməmişdir. Ümumiyyətlə, akademik çox şad idi ki, Azərbaycan Cümhuriyyətinin qurucusu, ilk cümhurbaşqanı, milli ideoloq, böyük filosof-mütəfəkkir Məhəmməd Əmin Rəsulzadənin fəlsəfi və ictimai-siyasi irsi ilə bağlı ilk dəfə olaraq fəlsəfə, fəlsəfə tarixi sahəsində belə bir namizədlik dissertasiyası mövzusunu seçmişəm. Məhz akademik F.Q.Köçərlinin, eyni zamanda tanınmış alim, fəlsəfə elmləri doktoru, professor İzzət Rüstəmovun (Firudin müəllimin səhhəti ilə bağlı olaraq İzzət Rüstəmov ikinci elmi rəhbərim təyin olunmuşdu) elmi rəhbərlikləri altında da, namizədlik dissetasiyasını vaxtında müdafiə edərək (25 mart 2005-ci il) fəlsəfə elmləri namizədi (fəlsəfə üzrə fəlsəfə doktoru) elmi dərəcəsi aldım. Mənim üzərimdə olan bütün əməklərinə görə Firudin müəllimə Ulu Tanrıdan rəhmət diləyir, İzzət müəllimə isə uzun ömür və cansağlığı arzu edirəm.

Akademik 2005-ci ildə dünyasını dəyişsə də, onu sevənlərin qəlblərində əbədi yaşamaqdadır.

F.Q.Köçərlinin başlıca əsərləri aşağıdakılardır: “M.F.Axundovun ictimai-siyasi və fəlsəfi görüşləri” (1961), “Din və onun mənşəyi” (1964), “N.Nərimanov. Həyatı, fəaliyyəti və dünyagörüşü” (1965), “Ü.Hacıbəyovun ictimai-siyasi görüşləri” (1965), “Yetkin sosializm cəmiyyətində mənəvi tərbiyə məsələləri” (1979), “Ateizm tərbiyəsinin bəzi aktual məsələləri” (1973), “Marksizm-leninizm və Azərbaycanda demokratik ictimai fikir” (1976), “Molla Nəsrəddinçi” Ömər Faiq” (1995), “Mirzə Fətəli Axundovun dünyagörüşü” (1999) və b.

## Əsas hissə / Main Part

### Azərbaycan xalqının fəlsəfə və ictimai fikir tarixinin tədqiqi

F.Q.Köçərlinin elmi-fəlsəfi fəaliyyətində bir neçə tədqiqat sahəsi mühüm yer tutub ki, bunlardan ən əsası və birincisi, Azərbaycan xalqının fəlsəfə və ictimai fikir tarixinin tədqiqi olmuşdur. Akademik Azərbaycan xalqının fəlsəfə tarixi yaradıcılığında M.F.Axundzadə, Üzeyir Hacıbəyli, Nəriman Nərimanov, Ö.F.Nemanzadə, H.Hüseynov, C.Məmmədquluzadə və başqa mütəfəkkirlərimizin irsini araşdırıb.

Akademik Firudin Köçərli XIX əsr Azərbaycan Türk mütəfəkkiri Mirzə Fətəli Axundzadənin fəlsəfi irsinə iki dəfə: 1) Sovetlər Birliyi dövründə, 2) Azərbaycan müstəqilliyini bərpa etdikdən (1991) sonra müraciət etmişdir. Belə ki, F.Q.Köçərli Sovetlər Birliyi dövründə Mirzə Fətəli Axundzadənin dünyagörüşü ilə bağlı bir sıra əsərlər yazmış (“M.F.Axundovun ictimai-siyasi və fəlsəfi görüşləri” (1961) və b.), Azərbaycan müstəqilliyini bərpa etdikdən (1991) sonra həmin əsərlər üzərində təkmilləşdirmə işləri apararaq “M.F.Axundovun dünyagörüşü” monoqrafiyasını (1999) nəşr etdirmişdir.

Məlum olduğu kimi, Sovet dövründə Azərbaycan elmində, o cümlədən fəlsəfə tarixi sahəsində ən çox tədqiqat obyektinə cəlb edilənlərin başında tanınmış mütəfəkkir-filosof Mirzə Fətəli Axundov dayanmışdır. Şübhəsiz, akademik F.Q.Köçərli də fəlsəfə sahəsində çalışan bir tədqiqatçı kimi, Axundovşünaslıqda öz sözünü deməli idi. Bu baxımdan onun Sovetlər Birliyi dövründə qələmə aldığı

“M.F.Axundovun ictimai-siyasi və fəlsəfi görüşləri” əsərində əsas diqqət M.F.Axundzadənin yaşadığı radikal dini mühitdə necə materialist filosof ola bilməsinə, bunun səbəblərinə yönəlmişdir.

Ümumiyyətlə, F.Q.Köçərli hesab edir ki, Axundov əvvəlcə maarifçi demokrat olmuş, daha sonra isə mötədil maarifçilikdən uzaqlaşaraq inqilabçı demokrat əqidəsi ilə tanınmışdır. Akademikin fikrincə, M.F. Axundovun belə bir yol izləməsində onun mütləqiyyət quruluşuna, despotizmə, zülmə, ədalətsizliyə nifrəti mühüm rol oynamış, bunun nəticəsi olaraq da konstitusiyalı parlament üsuli-idarəsini bəyənib, insanların hüquq bərabərliyini və şəxsiyyət azadlığını müdafiə etmişdir. Xüsusilə də, M.F.Axundov “Kəmalüddövlə məktubları” əsərində “inqilab” anlayışının sosial-fəlsəfi mənasını açmağa çalışaraq, öz idealının həyata keçirilməsində elmə, maarifə böyük ümid bəsləmişdir. Bu baxımdan bir sıra hallarda o, ictimai tərəqqini elmin, maarifçiliyin inkişafı ilə eyniləşdirərək belə güman etmişdir ki, cəmiyyətdəki bərabərsizliyə, zülmə, istismara, haqsızlıqlara son qoymaq üçün xalqın şüurunu inkişaf etdirməkdən başlamaq lazımdır. Köçərli yazırdı: “İstibdad quruluşunu, feodal üsul-idarəsini demokratik, ədalətli quruluşla əvəz etmək, xalqa azadlıq, tərəqqi və səadətin yolunu göstərmək M.F.Axundovun başlıca siyasi idealı olmuşdur. Yazıçı bu idealın parlaq təcəssümü olan “Kəmalüddövlə məktubları”nda İranın odövrkü üsul-idarəsinin timsalında, ümumiyyətlə, hər cür feodal-istibdad quruluşunu amansızcasına tənqid etmiş, istibdad üsulunun dəhşətli mənzərələrini bütün çılpaqlığı ilə göstərmiş və bununla da həmin quruluşun dəyişdirilməsi zəruriyyətini əsaslandırmışdır. “Kəmalüddövlə məktubları”nı istibdad quruluşunun əsl “ittiham aktı” adlandırmaq olar. Əsərdə despot şahların qəddarlığı və özbaşınalığı, saray əyanlarının ikiüzlülük, yaltaqlıq və rüşvətxorluğu, mütləqiyyət üsul-idarəsinin xalqın başına gətirdiyi müsibətlər kəskin tənqid edilir” [6, s.7-8].

Axundovun ictimai-siyasi idealını gerçək bir ideal kimi dəyərləndirən akademik hesab edirdi ki, bu kimi düşüncələrin, o cümlədən dövrün mürəkkəb, ziddiyyətli problemləri, doğma xalqının ən ümdə arzu və istəkləri, sosial-siyasi, mədəni-mənəvi tələbatları fonunda Axundov fəlsəfənin rolunu görüb, burada da doğru olaraq məhz idealizm deyil, materializm cəbhəsini seçmişdir: “Mübariz materialist olan Axundov fəlsəfəyə xalqı cəhalət və zülm pəncəsindən azad etməyin, ictimai tərəqqi və ədalətli quruluş uğrunda mübarizənin mühüm vasitəsi kimi baxırdı. O göstərirdi ki, fəlsəfənin tədqiqat obyekti xariqüladə qüvvələr, möcüzələr deyil, təbiət və onun qanunauyğunluğudur. M.F.Axundov fəlsəfə xatirinə filosof deyildi; o, qəti surətdə inanırdı ki, Şərq xalqlarını uzunəsrlik cəhalət yuxusundan oyatma və istibdad zülmündən azad etmək işində fəlsəfə, özü də materialist fəlsəfə mühüm əhəmiyyətə malikdir. Şüuru, ruhu ilkin, təbiəti, varlığı ikinci hesab edən ilahiyyatçıların, idealistlərin əksinə olaraq, o göstərirdi ki, təbiət, varlıq heç bir xarici qüvvə tərəfindən yaradılmamışdır və heç bir ilahi qüvvədən, ruhdan asılı deyildir. Obyektiv surətdə mövcud olan aləm öz qanunları ilə idarə olunur, onun nə sonu, nə də əvvəli var, o, əbədi və sonsuzdur” [6, s.13-14].

Akademikə görə, Axundov idealizmə qarşı, xüsusilə də müxtəlif “libas geyindirilmiş” dini-fəlsəfi təriqətlərə qarşı amansız mübarizə apararaq materializmin başlıca müddəalarını inandırıcı bir şəkildə əsaslandırmışdır: “Allahı kainatın yaradıcısı hesab edən və materiyanın yoxluqdan əmələ gəldiyini iddia edən şeyxilər məzhəbini, habelə babilərin mistik-fəlsəfi baxışlarını ifşa edərək, böyük mütəfəkkir göstərirdi ki, yoxluqdan materiya əmələ gələ bilməz və həmçinin materiya yoxluğa, heçə çevrilə bilməz. Materiyanın yoxluqdan əmələ gəldiyini iddia etmək tamamilə cəfəngiyyatdır. Materiya daima hərəkət edir, dəyişir, bir haldan digər hala keçir, lakin o heçə çevrilmir” [6, s.14].

Qeyd edək ki, F.Q.Köçərli müstəqilliyimizin bərpasından sonra yazdığı “M.F.Axundovun dünyagörüşü” kitabında Axundzadəni yalnız inqilabçı-demokrat deyil, həmçinin milli demokrat adlandırıb, onun milli demokratiya uğrunda mübarizə aparmasından da bəhs etmişdir. Köçərli yazır: “Axundov milli ədəbiyyatı dövrün qabaqcıl demokratik ideyaları ilə zənginləşdirdi, ana dilində ədəbiyyatın müstəqilliyini, suverenliyini təsdiq etməklə, onu ümumbəşəri ədəbiyyat səviyyəsinə yüksəltdi” [7, s.22]. Axundovun “Kəmalüddövlə məktubları” əsərini “milli maarifçiliyin manifesti” adlandıran akademik Köçərli yazırdı: “Axundovun “Kəmalüddövlə məktubları” əsərini milli maarifçiliyin manifesti adlandıra bilərik. Bu əsərdə milli maarifçiliyin xüsusiyyətləri, özünəməxsus cəhətləri, nailiyyətləri və zəif cəhətləri əks olunmuşdur. “Kəmalüddövlə məktubları” əsərində Axundovun fikir axtarışları, mərd, döyüşkən, yorulmaz siması, bütöv şəxsiyyət olması ilə yanaşı, xalqı kamilliyə, azadlığa, xoşbəxtliyə çağırışı aydın görünür. O, feodalizmin məhvi zərurətini əsaslandıran milli-demokratik ictimai-siyasi məfkurənin hazırlanmasında, maarifçilik ideyalarının inkişafında fəal

iştirak etmiş, bu sahədə misilsiz xidmət göstərmiş və özü milli maarifçiliyin ideya rəhbəri səviyyəsinə yüksələ bilmişdir” [7, s.24].

Köçərli bütün bunlarla yanaşı, Axundzadənin milli maarifçiliyin, milli şüurun yaranmasında rolundan da söz açmışdır. Akademik iddia edirdi ki, Axundzadənin adı və yaradıcılığı ilə bağlı olan realist ədəbiyyat, materialist fəlsəfənin özü də Azərbaycan xalqının milli oyanışını əks və ifadə etmişdir. F.Köçərliyə görə, ictimai fikrimizin Axundzadənin adı ilə bağlı olan maarifçilik mərhələsi Quzey Azərbaycan xalqının milli oyanış prosesi ilə eyni dövrə təsadüf edir. Belə ki, Axundzadə Quzey Azərbaycanda milli ideyanın təməl prinsiplərinin ilk rüşeymlərinin yaranmasında, azadlıqsevər, açıqfikirli mütəfəkkirlərimizin formalaşmasında, Qərbin mütərəqqi ideyalarının Azərbaycanda yayılmasında mühüm rol oyanmışdır [7, s.46-48].

Beləliklə, Köçərli hesab edirdi ki, bütün hallarda öz dövrünün, öz xalqının oğlu olan M.F.Axundzadə Azərbaycan xalqının həyatında mühüm rol oynamışdır. O, yazırdı: “Dövr, zaman onun fəlsəfi konsepsiyasına, seçdiyi fəlsəfi problemlərə, eyni zamanda, bu problemlərin həlli məsələlərinə öz möhürünü basmışdır. Milli inkişafın o dövrdə elə bir mühüm əhəmiyyətli hadisəsi yoxdur ki, Axundov ona öz münasibətini bildirməmiş olsun, həm də bu fəlsəfə Azərbaycan həyatının “keçid” dövrünün mürəkkəb və ziddiyyətli problemlərini, xalqın sosial-siyasi və mənəvi tələbatlarını əks etdirməklə kifayətlənməmiş, eyni zamanda, cəmiyyətin əsas inkişaf meylini göstərməyə, bu inkişafa kömək etməyə çalışmışdır. Axundovun fəlsəfi görüşləri, birinci növbədə, xalqın mənlik şüurunu özündə cəmləşdirmiş, uzunəsrlik tarixi olan milli fəlsəfə zəminində təşəkkül tapmışdır” [7, s.82-83]. Eyni zamanda, Köçərli Azərbaycan xalqının milli şüurunun təşəkkülündə, milli fəlsəfənin sonrakı inkişafında Axundzadənin misilsiz rol oynadığını, cəmiyyətin mənəvi həyatına güclü təsir göstərdiyini qeyd etmişdir [7, s.85].

Axundzadənin materialist fəlsəfəsini Azərbaycanda XIX əsr ictimai-fəlsəfi fikrinin zirvəsi hesab edən Köçərliyə görə, onun bu fəlsəfəsi Azərbaycan fəlsəfəsi tarixində bütöv bir dövr, mərhələdir. M.F.Axundovun materialist fəlsəfəsindən danışan zaman F.Q.Köçərli dövrün, sosial-siyasi quruluşun tələblərinə də uyğun olaraq, onu ateistlərin ilham mənbəyi, onların rəhbəri kimi göstərmişdir: Köçərli yazırdı: “Axundov belə bir həqiqətlə hesablaşmalı olurdu ki, din və onun mübəlliğləri əsrlər boyu istibdad üsuli-idarəsini ilahiləşdirmiş, mövcud quruluşa, feodal qayda-qanunlarına qarşı yönəldilmiş hər bir təşəbbüsü, sağlam fikri amansızcasına boğmuş, insanlara mütilik, köləlik, acizlik şüuru aşılanmasında zərərli rol oynamışdır. Din istibdad quruluşunu müdafiə edir və elmə, maarifə, sağlam düşüncəyə ziddir” [7, s.87].

Akadmik F.Q.Köçərlinin Azərbaycan xalqının fəlsəfə və ictimai fikir tarixində mühüm yer verib araşdırdığı milli aydınlarımızdan biri də dahi şəxsiyyət, mütəfəkkir **Üzeyir Hacıbəyli** olmuşdur. Akademik “Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri” adlı əsərində yazırdı ki, böyük mütəfəkkirin dünyagörüşünün formalaşmasında 1905-ci il inqilabı və bolşevik mətbuatının meydana gəlməsi mühüm rol oynamışdır. Akademik bütün bunları vurğulamaqla yanaşı, Ü.Hacıbəylinin “Molla Nəsrəddin” jurnalı ilə sıx əməkdaşlığını, bu jurnalda onu maraqlandıran və düşündürən məsələlərdən bəhs etmişdir. Köçərliyə görə, Hacıbəyli Azərbaycan kəndindəki sinfi ziddiyyətləri, kəndlilərin həyatının dəhşətli mənzərələrini, onlara edilən iqtisadi və mənəvi əsarətin acı nəticələrini bütün çılpaqlığı ilə göstərmişdir. F.Q.Köçərliyə görə, Ü.Hacıbəyli marksizmin təsiri altında inqilabi hərəkata qızğın rəğbət bəsləmiş və özünəməxsus ustalıqla inqilabi ideyaları təbliğ etmək dərəcəsinə qədər yüksəlmişdir [8, s.8].

Bizcə də, Hacıbəyli 1900-cu illərdə Osmanlı və Qacarlarda baş vermiş məşrutə hərəkatlarına da daha çox sosial-demokratların mövqeyinə yaxın bir yanaşma sərgiləmişdir. Hacıbəyli hesab edirdi ki, bu iki türk-müsəlman ölkəsində baş verən inqilablar nəticəsində istibdadlar məhv ediləcək və bütün insanlar azadlıqlar əldə edəcəklər [4, s.89-90]. Köçərli Hacıbəylinin azadlıq haqqındakı fikirlərə münasibətini aydınlaşdıraraq yazır: “O, zəhmətkeşlərin azadlıq mübarizəsini təbii hüquq qanununa əsasən izah edir və deyirdi ki, insan öz təbiəti etibarilə azad yaranmışdır və azad da yaşamalıdır. Lakin “hakimi-müstəbid dəxi təbiətində hürr və azad yaradılmış olan insanı əbd və qulluq üçün tərbiyət edir... hökuməti-müstəbidənin ümdə əsası ağalıq və qulluqdur”. Hərçənd Hacıbəyov inqilabın iqtisadi əsasını, obyektiv və subyektiv amillərini elmi şəkildə izah edə bilmirdi” [8, s.18].

Köçərli Hacıbəylinin 1905-ci il inqilabına münasibətini və bu inqilaba dərin inam bəsləməsini belə qiymətləndirirdi: “Hacıbəyov xüsusi qeyd edirdi ki, inqilab Azərbaycan xalqı üçün daha böyük

əhəmiyyətə malikdir. İnqilab bizə özümüzü dərk etməyə, “gözümüzün örtüyünü açmağa” və tərəqqi yoluna çıxmağa imkan verir. O, xalqı başa salırdı ki, ümumi tərəqqi yoluna çıxmaq üçün Rusiyanı bürüyən azadlıq hərəkatından istifadə etmək lazımdır. Rusiyanın “əsarətin yamanlığını və azadəliyin yaxşılığını” anlayan “millətləri boyunlarına keçmiş zənciri-əsarəti” məhv etmək üçün bütün qüvvələrini sərf edirlər. Azərbaycan xalqı bu mübarizədən geridə qalmamalıdır” [8, s.22].

Köçərli yazırdı ki, Hacıbəyov dövləti idarə üsullarına görə üç qismə bölürdü: idareyi-müstəqillə (mütləq monarxiya dövləti), idareyi-məşrutə (konstitusiyalı dövlət) və idareyi-amiyyə (demokratik respublika). “İdareyi-müstəqilədə camaat üçün qanun və nizam tərtib etmək padşahla vüzəranın əlində olub, camaat bu işə qarışmır. Padşah dəxi külli-ixtiyar sahibidir. Bu cür dövlətlərin məqsədi heç də xalqın rifahı və səadəti, camaat mənafeyini gözləmək deyildir. Əksinə, mütləqiyyət quruluşu şəraitində “camaat həmişə miskin və zəlil bir halda olar. Konstitusiyalı dövlətlərdə isə “ümumi məmləkət üçün qanun qoymaq və nizamlar tərtib etmək camaat və vəkillərdən ibarət olan məclisi-məbusanın həll və müzakirəsi ilə olub, padşah dəxi təsdiq edir. Vəzirlərdən ibarət olan hökumət isə bu qanun və nizamnamələri icra edirlər və özləri də məclisi-məbusan qabağında məsul və cavabdehdirlər” [8, s.30].

Köçərli tanınmış mütəfəkkirin “Türki-Rusi və Rusi-Türki lüğət” kitabında sosializm, bolşevizm anlayışlarına verdiyi tərifə də diqqət yetirmişdir. Qeyd edək ki, Ü.Hacıbəyli həmin kitabında sosializm anlayışına belə bir izah vermişdir: “Sosializm – siyasi bir əqidədir ki, ona görə dünya malını hamı adamlar arasında bərabərcə bölmək üçün indiki məişət və həyati-iqtisadiyyəni dəyişdirmək lazımdır. Yəni, bu əqidəyə görə, dünyada dövlətliliyi və kasıblığı aradan götürüb, hamısını iqtisadi cəhətcə bərabər etmək olar” [5, s.50]. Bolşevizm anlayışına gəlincə, Hacıbəyli yazılrdı: “Rusiya Sosial-Demokrat Firqəsi iki qismə bölünür: bunların birinə bolşeviki, o birinə isə menşeviki deyilir. Bolşeviklərin məramı heç bir vaxt hökumət və ya sağ firqələrlə razılaşmamaq, hökumətin verdiklərinə razı olmamaq və üsyani-müsəlləhə vasitəsilə dövlətin tərzi-idarəsini dəyişməkdir” [5, s.19]. Köçərli hesab edir ki, həmin dövrdə Hacıbəylinin belə bir lüğət hazırlaması böyük siyasi əhəmiyyəti kəsb edib. O yazırdı: “Burjua ideoloqları marksizn-leninizmlə əlaqədar dilimizə daxil olan mühüm ictimai-siyasi və fəlsəfi anlayışların mənasını təhrif edib saxtalaşdırmağa çalışdıqları bir zamanda, Ü.Hacıbəyovun tərtib etdiyi lüğətin böyük siyasi əhəmiyyəti var idi. Lüğət elə tərtib edilmişdir ki, orada oxucu birinci rus inqilabı illərində mətbuatda çox işlədilən bir sıra ictimai-siyasi anlayışların izahını tapa bilərdi” [9, s.40].

Akademik Firudin Köçərli Sovetlər Birliyi dövründə tanınmış ictimai-siyasi xadim, mütəfəkkir **Nəriman Nərimanov**un irsini də dərindən araşdırmışdır. Köçərli hesab edirdi ki, N.Nərimanovun dünyagörüşünün inkişafı M.F.Axundzadədə olduğu kimi, maarifçilikdən inqilabi demokratizmə qədər yüksəlmiş, ilk dövrlərdə marksizmin nəzəri irsinə mükəmməl yiyələnməmişdir. O yazırdı: “Doğrudur, birinci rus inqilabı illərində N.Nərimanov hələ marksizmin nəzəri irsini mükəmməl yiyələnə bilməmişdi, lakin o, marksizmi ən qabaqcıl nəzəriyyə kimi təqdir edir və göstərirdi ki, Marksı, Engelsi sadəcə olaraq oxumaq kifayət deyildir, marksizmi anlamaq və ona əməl etmək lazımdır” [9, s.38].

Ümumiyyətlə, o, hesab etmişdir ki, “Nərimanov 1917-ci il fevral inqilabına qədər marksizm nəzəriyyəsini bütün dərinliyi ilə mənimsəyə bilməmiş, marksizmin başlıca müddəaları haqqında səthi təsəvvürə malik olmuşdur” [10, s. 75]. Ancaq akademik tərəfindən qeyd edilən belə bir fikirlə razılaşmaq mümkün deyil ki, Nərimanov marksizmin başlıca müddəaları haqqında səthi təsəvvürə malik olduğu üçün, “sinfi mübarizənin elmi marksist anlayışı səviyyəsinə qədər yüksəlməmiş, sinfi mübarizənin antaqonist cəmiyyətlərin əsl hərəkətverici qüvvəsi olduğunu, proletariatın azadlıq rolunu və onun mübarizəsinin proletar diktaturası ilə nəticələnəcəyini tam aydınlığı ilə dərk edə bilməmişdi” [10, s.74].

Bizcə, əksinə 1917-ci il fevral burjua demokratik inqilabına qədər Nərimanov marksizm-leninizm haqqında kifayət təsəvvürə malik olduğu üçün ondan uzaq durmuş, bir növ özünün də etiraf etdiyi kimi, kommunizmin qurulmasına utopiya kimi baxmışdır. Bu baxımdan, o hesab etmişdir ki, yaxın zamanlarda yalnız burjua demokratik inqilabının gerçəkləşməsi mümkündür və kütləni də yalnız onun mənəvi-ruhani həyatındakı çevrilişə hazırlamaq lazımdır [16, s.210]. Fikrimizcə, uzun müddət Türk-İslam-Şərq və Rus-Qərb-Avropa ikiliyi arasında tərəddüd edən Nərimanovun sonuncunu seçməsində 1917-ci il Rusiya fevral burjua inqilabı və sosial-demokratizmə bəslədiyi ümidlər mühüm rol oynamışdır. Bu mənada o, həmin inqilabın təsiri altında yalnız sosializm quruluşunda milliyyətindən və dinindən asılı

olmayaraq insanların bir-birilə yoldaş olacaqlarına inanmışdır: “Bolşeviklər mənim arzuladığım dünyanın qapısını aça biləcək yeganə hakimiyyəti – xalq hakimiyyətini yenidən yaratmaq ümidilə sinfi mübarizədə qan tökürlər” [16, s.190].

Həmin dövrdə M.Ə.Rəsulzadə, N.Yusifbəyli və digər mütəfəkkirlərdən, dövlət xadimlərindən fərqli olaraq N.Nərimanov marksist sosial-demokratizmlə rus bolşevizmini vaxtında bir-birindən ayıra bilməmiş, ən vacibi isə rusların sosial-demokratizmi müstəmləkəçiliklə eyniləşdirdiyini çox gec anlamışdır. Halbuki, M.Ə.Rəsulzadə, N.Yusifbəyli və başqa ziyalılar sosial-demokratizmə zaman-zaman rəğbət göstərmələrinə baxmayaraq, rus bolşevizminin əsl mahiyyətinin türkçülüyün (istər ümumi türkçülük, istərsə də Azərbaycan türkçülüyünun) mənafeyinə zidd olduğunu vaxtında görmüş və ondan uzaq durmuşlar. Ancaq Nərimanov onlarla müqayisədə çox sonralar başa düşmüşdür ki, istənilən bir ideya (sosial-demokrat, liberalizm, millətçilik) yalnız müəyyən bir sinfin (məsələn, proletariatın) deyil, ümumilikdə millətin xeyrinə işləməli və onun maraqlarına uyğun olmalıdır. Bu isə millətin sinfi maraqlarından daha çox onun kimliyi, dili, mədəniyyəti, ərazi bütövlüyü və müstəqilliyi ilə bağlıdır. Bunlar var olmayan yerdə isə hər hansı millətin sosial-demokratizm, yaxud da başqa bir ideyaya tapınmasının heç bir əhəmiyyəti qalmır [2, s.565].

Akademik F.Q.Köçərlinin milli fəlsəfi fikir tarixmiz baxmından əhəmiyyətli olan araşdırmalarından biri də **Ömər Faiq Nemanzadə** ilə bağlıdır. O, ““Molla Nəsrəddin”çi Ömər Faiq” kitabçasında milli mütəfəkkirimizin həyat yoluna, ictimai-siyasi görüşlərinə, əxlaq-etika problemlərinə nəzər yetirmiş, dil, maarif, mədəniyyət və din məsələlərini tədqiq etmişdir.

Ömər Faiqin “Molla Nəsrəddin” jurnallarındakı ictimai-siyasi yazılarını təhlil edən akademik Firudin Köçərli onu sosial-demokratizmə meyil edən, ancaq milli ruhlu mübariz bir “molla nəsrəddinçi” olaraq qələmə vermişdir. Köçərliyə görə, bu anlamda Ö.F.Nemanzadənin “Molla Nəsrəddin” jurnalındakı milli maarifçilik fəaliyyəti mühüm yer tutmuşdur: “1905-ci il hadisələrini alqışlayan publisist göstərirdi ki, zəmanə xalqın cəhalət və geriliyindən istifadə edib “rəiyyət malına təcavüz edənləri, özgələrin malını halal və haram deməyib qarnına dolduranları kötək zoru ilə qusdurur”. Zəmanə intiqam zəmanəsidir, məzlumların zalımlardan intiqam alması zəmanəsidir. Doğrudur, o, zəmanənin bu xüsusiyyətini bəzən “qəzanın” işi adlandırır, lakin qəti şəkildə deyirdi ki, ayaq altında “aciz heyvanlar kimi əzilməmək üçün qeyrət və hərəkətə gəlməyimiz lazımdır, labüddür”. Ö.Faiq belə bir fikirdə idi ki, bizim üçün istifadə və tərəqqi qapısı indilikdə, təbii, top, tüfəng və dinamit ilə açılamaz. Onlar “bu halda” bizim heç bir işimizə yaraya bilməzlər. Biz bu gün ancaq hər qüvvətin, hər xahişin, hər fikrin anası və kökü olan maarif və mətbuat olduğunu bilməliyik” [11, s.25-26].

Sovetlər Birliyi dövründə daha çox “mollanəsrəddinçi”, hətta bəzən marksist-leninizm tərəfdarı kimi qələmə verilən Nemanzadə heç vaxt milli-dini dəyərlərdən kənara çıxmamış, Azərbaycan Cümhuriyyətinin varlığını müdafiə etmiş, milli-demokratlarla bir sırada olmuşdur. Onun dünyagörüşünün əsasında yeniləşmək, İslam dininin əsl mahiyyətini dərk etmək və türkün özünə dönüşü dayanmışdır [17, s.27, 104]. Bu baxımdan F.Q.Köçərli də Ömər Faiqin milli ruhunu göstərməyə çalışmışdır: “Ömər Faiq ziyalılara başa salırdı ki, ziyalı millətin bir hissəsidir, ziyalının həyatı millətin həyatı ilə bağlıdır. Ona görə də ziyalı millətin azadlığı yolunda fürsəti fövtə verməməli, milləti oyatmaq, ona insan kimi yaşamaq hüququnu başa salmaq yolunda əlindən gələni etməlidir” [11, s.35].

Ömər Faiqin əxlaq-etika problemlərinə münasibətinə gəlincə, akademik yazırdı ki, burada əsas milli qayə xalqın əxlaqi-mənəvi səviyyəsini yüksəltmək, maarifləndirmək, sonra isə xalqa siyasi hüquqlarını başa salıb öz azadlığı uğrunda mübarizəyə hazırlamaq olmuşdur: “Dogrudur, Ö.Faiq cəmiyyətin inkişafı və tərəqqisində əxlaq və mənəviyyatın rolunu şişirdirdi, lakin o, tərbiyə məsələlərini xalqın azadlıq mübarizəsi ilə əlaqələndirməyə çalışır və deyirdi ki, əxlaq ictimai mühitin məhsuludur, cəmiyyət dəyişdiyi kimi, əxlaq da dəyişir, insanın əxlaqi keyfiyyətlərini şərait müəyyən edir. Odur ki, Ö.Faiq xalqın maariflənməsi, savad, bilik sahibi olması, elmə, mədəniyyətə yiyələnməsi məsələlərinə böyük əhəmiyyət verir, bunun üçün birinci növbədə qadınların təhsilli, savadlı olması fikrini irəli sürürdü” [11, s.41].

Fikrimizcə, Ömər Faiqin əxlaq-etika məsələlərində ifadə etdiyi fikirləri tamamilə doğru idi. Hər hansı millətin dünyada daima öz varlığını sürdürə bilməsində əsas rolu milli-əxlaqi dəyərlərə, milli adət-ənənələrə nə dərəcədə bağlılığı oynayır. Əlbəttə, öncə milli-əxlaqi, daha sonra dini-əxlaqi dəyərləri tənəzzülə uğramış toplumların gələcəyi yoxdur. Şübhəsiz, milli-dini əxlaqi dəyərləri yetərli səviyyədə

ayaq üstə tutmaq üçün də cəmiyyətin azad yaşayıb müstəqil hökumətə sahib olması şərt idi. Ö.Faiq də məhz Azərbaycan türklərinin azadlığa qovuşub milli dəyərlərinə sahib çıxması üçün mücadilə vermişdi. Köçərli yazırdı: “Ö.Faiq cəmiyyətin, xalqın mənəvi əxlaqi yüksəlişini “azadlıq hakimiyyəti” qurulması ilə əlaqəli görürdü. O, içərisində yaşadığı cəmiyyətin, feodal-klerikal dairələrin əxlaqi eybəcərliklərini konkret faktlarla tənqid və ifşa edir və göstərirdi ki, nəcib əxlaqi sifətlərin yaradıcısı zəhmətkeşlərdir, sadə əməkçilərdir” [11, s.43].

Akademikə görə, Ömər Faiqin əxlaqi-etik görüşləri özünün humanist istiqaməti, demokratik məzmunu ilə fərqlənir: “O, insanlıq tərbiyəsi məsələsini qoyur və belə hesab edirdi ki, xalqa xidmət etmək, hər bir vətəndaşın, birinci növbədə ziyalıların vəzifəsi, əxlaqi borcudur, ziyalı yüksək mənəvi əxlaqi sərvətlərin daşıyıcısı olmalı, xalqa xidmət idealı ilə yaşamalıdır. Ziyalı xalqa (camaata) insanlıq hüququnu başa salmalı, bu hüquq uğrunda mübarizə aparmaq, “qorxunc və xəsafətli zülməti” dəf etmək bacarığı aşılamalıdır. Ö.Faiqə görə, insanlıq yüksək və nəcib bir keyfiyyətdir, həqiqətpərəst və ədalətli olmaq deməkdir; insanlıq öz hüququnu bilmək, həyatda ən yüksək məqsəd olan azadlığı mühafizə edib, zalımların təcavüzünə yol verməmək, insan və ədaləti rəhbər tutub yaşamaqdır” [11, s.44].

Akademik F.Q.Köçərli araşdırmalarında tanınmış mütəfəkkir **Cəlil Məmmədquluzadə**yə də mühüm yer ayırmışdır. Onun fikrincə, Cəlil bəy “Molla Nəsrəddin”i sosial-demokratiya səviyyəsinə yüksəldə bilməsə də, onun şüarlarını, ideyalarını hər daim təbliğ etmişdi [9,s.46-72]. 27 aprel işğalından sonra, yəni Azərbaycanda zorla sovet hökuməti bərqərar olduğu dövrdə C.Məmmədquluzadə özü də yazırdı ki, vaxtilə İslam dinini, islamlığı tənqid edib onun aradan qaldırılmasına çalışarkən sosializm inqilabına böyük ümid bəsləmişdir [15, s.36].

**Sosializm quruculuğunun aktual problemləri.** F.Q.Köçərlinin elmi-fəlsəfi fəaliyyətində sosializm quruculuğunun aktual problemlərinin tədqiqi mühüm yer tutmuşdur. Belə ki, o, yeni insanın təşəkkülü, zəhmətkeşlərin ateizm, beynəlmiləlçilik tərbiyəsi problemlərinə dair bir sıra əsərlər qələmə almışdır: “Leninizm və Azərbaycanda inqilabi demokratik fikrin inkişafı”, “ Azərbaycan SSR-də Leninin mədəni inqilab nəzəriyyəsinin həyata keçirilməsi”, “Sov.KP XXIV qurultayı və müasir dövrdə zəhmətkeşlərin ateist tərbiyəsinin vəzifələri”, “Yetkin sosializm və zəhmətkeşlərdə elmi-materialist dünyagörüşün formalaşması”, “Çoxmillətli sovet mədəniyyətinin çiçəklənməsi və burjua konsepsiyalarının tənqidi”, “Elmi ateizm təbliğatı ideoloji işin mühüm istiqamətidir”, “Sov.İKP XXV qurultayı və mənəvi tərbiyənin vəzifələri”, “Mənəvi tərbiyədə sosialist adət və ənənələrinin rolu”, “Elmi-texniki tərəqqi və milli adət və ənənələrin inkişafı”, “Ateizm tərbiyəsi zəhmətkeşlərin kommunist tərbiyəsinin tərkib hissəsidir” və b.

Köçərli kommunist tərbiyəsində ən çox mənəvi-əxlaqi tərbiyəyə üstünlük verir və bu tərbiyənin insan həyatında oynadığı rolu çox yüksək dəyərləndirirdi. O yazırdı ki, mənəvi tərbiyə adamlarda şəxsi-əxlaqi (ideyalılıq, prinsipiallıq, vətənpərvərlik) keyfiyyətlərin, işgüzarlığın (əməksevərlik, təsərrüfatçılıq), xarakterin (mütilik, alçaqlıq, ehtiraslılıq) formalşmasını nəzərdə tutur: “Mənəvi tərbiyə, birinci növbədə, adamların əxlaqi sərvətləri mənimsəməsi, əxlaq və etika sahəsində biliklərə yiyələnməsi ilə əlaqədardır. Aydındır ki, hər bir adam özünü cəmiyyətin tələblərinə uyğun şəkildə aparması üçün cəmiyyətin əxlaq qaydalarını bilməlidir. Bu, insanın mənəvi azadlığının, deməli, ictimai fəallığının qüdrətli amilidir” [12, s.32-33].

Köçərliyə görə, insan üçün əsas vəzifə əxlaq normalarını bilmək deyil, əxlaqi bilik eyni zamanda adamların inamına, şəxsi əqidəsinə, daxili tələbatına çevrilməli, onların şüuruna, hissinə hakim kəsilməlidir. Onun fikrincə, söhbət əxlaq normalarını, yalnız mexaniki, ehkam kimi qəbul etməkdən deyil, onun məzmununu şüurlu olaraq başa düşüb mənimsəməkdən və əməli fəaliyyətdə realizə etməkdən gedir [12, s.33].

Köçərliyə görə, əxlaqi şüurla praktika dialektik vəhdət kəsb edir ki, bu da o deməkdir ki, hər bir adam bir şəxsiyyət kimi məhz əməli fəaliyyət prosesində formalaşır. O yazırdı ki, əməli fəaliyyət prosesində insanlarda yüksək davranış mədəniyyəti yaranır, vicdan, namus, borc və sair əxlaqi hisslər inkişaf edir: “Digər tərəfdən, insan özünün əxlaqi kamilliyini, əxlaqi şüurunu davranışında, əməli fəaliyyətdə təzahür etdirir. Məhz əməli fəaliyyətdə reallaşan, həyata keçirilən əxlaqi bilik qiymətlidir. Biz o adama kamil, yetkin əxlaqi şəxsiyyət deyirik ki, cəmiyyətimizin əxlaq normaları onun dərin şəxsi inamına, daxili tələbatına çevrilir, bütün əməli fəaliyyətini müəyyən edir” [12, s.34].

Əxlaqi saflığı əxlaqi təmizliyi insanın ən gözəl xüsusiyyəti hesab edən Köçərliyə görə, əxlaqı saf olan adam bir qayda olaraq, alnıaçıq, başıuca, vicdan, ləyaqət hissi yüksək inkişaf etmiş adamdır: “Əxlaqı saf adam adətən vicdanlı olur, vicdan isə şəxsiyyətin ən nəcib keyfiyyətlərinin qaynağıdır, misilsiz əxlaqi sərvətidir. Vicdan hissi insanın düzgün əxlaqi yol seçməsində, öz davranışına əxlaqi qiymət verməsində mühüm rol oynayır. Vicdan insanın cəmiyyətə və başqa adamlara münasibəti üzərində bir növ şəxsi daxili nəzarətçidir” [12, s.34-35].

Onun fikrincə, mənəvi tərbiyə insanlarda fəal həyat mövqeyi formalaşdırmalıdır, çünki şəxsiyyəti ən çox yüksəldən onun həyatda fəal mövqe tutmasıdır, ictimai borca şüurlu münasibət bəsləməsidir. O yazırdı: “Fəal həyat mövqeyi dedikdə, söhbət hər cür fəallıqdan deyil, məhz cəmiyyətin hərtərəfli inkişafı, insanların rifahının yüksəlməsi, yeni əxlaq normalarının qərarlaşması uğrunda mübarizədə özünü göstərən fəallıqdan gedir. Ayrı-ayrı adamların şəxsi mənafe, mənsəb xatirinə fəallıq göstərməsinin, yaxud özünün şəxsi marağı ilə əlaqədar olan hərəkətinə ictimai məna verməyə çalışmasının bu məqsədlə canfəşanlıq etməsinin fəal həyat mövqeyi prinsipi ilə heç bir əlaqəsi yoxdur. Fəal həyat mövqeyi şəxsiyyətin əxlaq yetkinliyinin, ideya inamının ifadəsidir” [12, s.36].

Onun fikrincə, sözlə işin düz gəlməsi, sözün bütövlüyü adamların nəcib sifətidir, etibarlılıq rəmzidir: “Söz (verilən vədə, götürülən öhdəlik) öz-özlüyündə nə qədər yaxşı olub hərarətlə söylənsə də, əməli işlə möhkəmləndirilmədikdə nəinki boş söz olaraq qalır, ən başlıcası – cəmiyyətə, şəxsin özünə zərər vurur. Boşboğazlıq, söz verib yerinə yetirməmək öz-özlüyündə əxlaqi eybəcərlikdir... Dövləti, xalqı aldatmaq isə ağır cinayətdir” [12, s.39].

**Din və milliyyət problemi və onların “sosialist həlli”.** F.Q.Köçərli bir çox çağdaşları kimi, heç bir ciddi arqument gətirmədən iddia edirdi ki, din bir-birini əvəz edən bütün istismarçı quruluşların “ədalətli”, “əbədi”, “sarsılmaz” olduğunu elan etmiş, hakim siniflərin əlində zülm silahı olmuşdur [13, s.24]. Ümumiyyətlə, Köçərli dinə, o cümlədən İslama münasibətdə belə bir nəticəyə gəlir ki, din zəhmətkeşləri hər cür zülmə dözməyə, istismarçılara qarşı mübarizə aparmamağa çağırırdı [13, s.40].

Köçərliyə görə, bir ictimai şüur forması kimi, din xarici aləmin, cəmiyyətin maddi həyat şəraitinin insanların başında inikasından başqa bir şey deyildir, sadəcə, din ictimai şüurun digər formalarından fərqli olaraq, xarici aləmin insanların şüurunda fantastik, təhrif olunmuş inikasıdır [13, s.4-5]. Köçərli axirət dünyası, cənnət və cəhənnəm haqqında deyilənləri də uydurma, cəfəngiyat adlandıraraq yazırdı: “Elm sübut etmişdir ki, içərisində yaşadığımız və hiss üzvlərimizlə dərk etdiyimiz maddi dünyadan başqa, ikinci dünya - “o dünya” yoxdur. Maddi aləm Allahın iradəsilə deyil, öz obyektiv, təbii qanunları ilə idarə olunur. Maddi aləm heç kəs tərəfindən heç bir zaman yaradılmamışdır... Onun nə əvvəli, nə də axırı vardır, o, əbədi olaraq mövcuddur” [13, s.8-9]. Ona görə dinin yaranmasının səbəbini ictimai inkişafda, insanların maddi həyat şəraitində axtarmaq lazımdır. Müəllifə görə, ibtidai insan düçar olduğu ağır vəziyyətdən, tez-tez onun həyatını təhlükə qarşısında qoyan hallardan çıxış yolunu, ilahiləşdirdiyi, xəyalında uydurduğu , həqiqətdə isə mövcud olmayan qüvvələrə kor-koranə inam və sitayişdə görürdü. O belə hesab edirdi ki, təbiətdən xaric qüvvələrə yalvarmaqla, qurban verməklə, onların şərəfinə dualar oxumaq, mərasimlər düzəltməklə həmin qüvvələri mərhəmətli, rəhimli və xeyirxah etmək olar. İbtidai insanların bu təsəvvürləri ilk dini, mövhumi təsəvvürlər idi. O yazırdı: “Din həmişə mövcud olmamışdır, o, fitri bir şey deyildir. Din insan cəmiyyətinin inkişafının müəyyən mərhələsində meydana çıxmış tarixi bir hadisədir. O, ictimai inkişafın müəyyən mərhələsində də yox olacaqdır” [13, s.16].

Fəlsəfə tarixçisi M.Ağayevin fikrincə, F.Q.Köçərlinin dinlə bağlı dediklərindən belə nəticə çıxır ki, o, bir-birini əvəz edən bütün istismarçı quruluşların (quldarlıq, feodalizm, kapitalizm) “ədalətli”, “sarsılmaz”, “əbədi” olduğunu elan etmiş, hakim siniflərin əlində sinfi zülm silahı olmuşdur: “Lakin qeyd etməliyik ki, İslam dinində belə bir müddəa, belə bir fikir yoxdur. İslam dini heç bir zaman zülmə, istismara, əsarətə boyun əyməyin tərəfdarı olmamış, əksinə, zülmə, zülmkara, ədalətsizliyə, haqsızlığa qarşı amansız olmağa, öz azadlığı, hüququ uğrunda mübarizə aparmağa üstünlük vermişdir. Firudin müəllim deyir ki, dini məhv etmək üçün onu yaşadan və qidalandıran quruluşu, xüsusi mülkiyyətə əsaslanan istismarçı quruluşu məhv etmək, insanın insan tərəfindən hər cür istismarına son qoymaq lazımdır. Amma heç bir tərəqqi, inkişaf, elm və texnika dini aradan qaldıra bilməz. Əksinə, elmin, texnikanın inkişafı, iqtisadi, siyasi dirçəliş Allaha, onun qüdrətinə, hər şeyə qadir olduğuna inamı, etiqadı artırır və möhkəmləndirir” [1, s.98].

Ancaq F.Köçərli sovet dönəmində iddia edirdi ki, din yarandığı gündən insanlar üçün zərərli olmuş, zəhmətkeşlərin həyatında mənfi rol oynamış, insan idrakının, zəkasının, düşüncəsinin, iradəsinin, sevinc və səadətinin qatı düşməni olmuşdur: "Din öyrədir ki, insan hər şeyə qadir olan Allahın qarşısında heç bir şeydir, o, Allahın quludur. İnsan təbiət və cəmiyyət hadisələrinin sirlərini öyrənməyə cəhd etməməlidir. Allahın işlərinə qarışmamalıdır. İnsan öz həyatını yaxşılaşdırmaq üçün Allahdan mərhəmət gözləməlidir. Allahdan mərhəmət gözləmək ideyası isə insanda öz qüvvəsinə inamsızlıq yaradır, onun yaradıcılıq fəaliyyətini buxovlayır" [13, s.25].

Akademikə görə, din insanlara müti qul kimi yaşamağı təbliğ etmiş, həyatdan zövq almağı qadağan etmişdir. Firudin müəllim dinin nə üçün dünyanın dərk edilməsinin əleyhinə çıxdığını belə açıqlayır: "Soruşa bilərsiniz ki, din nə üçün dünyanın dərk edilməsinin əleyhinə çıxır? Bu suala qısaca belə cavab vermək olar: çünki dünyanın dərk edilməsi, yəni təbiət və cəmiyyətin inkişaf qanunlarının, təbiət və cəmiyyət hadisələrinin öyrənilməsi dini sarsıdır, dinin mənasız uydurmalarını, Allahın mövcudluğu və hər şeyə qadir olması haqqındakı inamı alt-üst edir. Elmin hər bir nailiyyəti dinə, dini inama ciddi zərbədir" [13, s.26].

Müəllif elm ilə dini qarşılaşdıraraq, onların bir-birlərinə əks olduqlarını söyləyir və deyir ki, müasir elm insan zəkası və onun əməyinin məhsuludur. Traktoru, kombaynı, avtomobili, telefon və teleqrafı, televiziyanı, təyyarəni, kosmik gəmiləri yaradarkən insan dinə deyil, Allaha deyil, daim elmə arxalanmışdır. İnsanın əldə etdiyi bütün elmi nailiyyətlər Allah, din, cənnət və cəhənnəm haqqında təsəvvürləri sarsıdır. Elə buna görə də din elmin qatı düşmənidir [1, s.99].

Köçərliyə görə, təbiətdə heç bir möcüzə yoxdur və olmamışdır, heç kəs heç bir möcüzəni görməmişdir. Səmada ulduzların vəziyyət və hərəkətlərindən asılı olaraq yerdə hadisələrin inkişaf gedişini irəlicədən xəbər verməklə məşğul olan münəccimliyi (astrologiya) ciddi tənqid edən Köçərli İ.V.Miçurinin yaratdığı yeni nəzəriyyəyə əsaslanaraq yazırdı ki, təbiətdə heç bir şey din xadimlərinin dedikləri kimi, Allahın iradəsi ilə baş vermir. Gələcəyi elmi surətdə qabaqcadan görmək dini ehkamlara, fantastik təsəvvürlərə və möcüzələrə kor-koranə etiqada deyil, təbiət və cəmiyyət qanunlarının dərk edilməsinə əsaslanmalıdır. O yazırdı: "Dini qalıqlar müxtəlif şəkillərdə cəmiyyətimizin inkişafına zərər vurur. Məsələn, dini qalıqlar bu və ya digər dərəcədə dindarlarda Allaha itaətkarlıq tərbiyə edir, onların yaradıcı fəallığını zəiflədir, mənəviyyatını yoxsullaşdırır. Dini qalıqlar elmi biliklərin yayılmasına müqavimət göstərir, həyatımızın müxtəlif sahələrində (xüsusilə məişətdə) olan köhnəlikləri müdafiə edir. Dini qalıqlar sovet adamlarının şüurunu zəhərləyir, çox vaxt dövlət və əmək intizamının pozulmasına səbəb olur, irəliyə doğru hərəkətimizi ləngidir və ümumi işimizə zərər vurur" [13, s.40].

Eyni zamanda, akademik yalnız İslamı və din xadimlərini deyil, milli ideyanın daşıyıcıları olan milli mütəfəkkirləri də tənqid edir və sübut etməyə çalışırdı ki, 20-ci əsrin əvvəllərində Azərbaycanda əsas ideya marksizm-leninizm olmuşdur [9, s.13]. Bu baxımdan o, mühacirətdə Azərbaycan milli ideyasını təbliğ edən Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cəfəroğlu, Əbdülvahab Yurdsevər və başqalarına cavab olaraq yazırdı ki, hazırda da Sovet Azərbaycanında türkçülük və islamçılıq deyil, əsas ideya xətti marksizm-leninizmdir: "Müsavatın lideri M.Ə.Rəsulzadə, ümumiyyətlə, XX əsrin əvvəlləri Azərbaycan ictimai-fəlsəfi fikrinin inkişafını "Türk fikri", daha doğrusu, pantürkizm və panislamizmlə əlaqələndirir. Guya XX əsrin əvvəlləri Azərbaycan xalqının ictimai azadlıq hərəkatı, "daha ziyadə dini-siyasi fikirlərin təsiri altında idi". Azərbaycan "milli qurtuluş fikirləri" "Türkiyə və İranda cərəyan edən məşrutiyyət və hürriyyət hərəkatlarının" təsiri altında "canlanırdı". Beləliklə, "Türk milli şüuru xalqın bütün təbəqələrini bürüyür". Digər müsavatçı Ə.Cəfəroğlu isə bir sıra məqalələrində XX əsr Azərbaycan ictimai fikrinin inkişafını Ziya Göy Alpın türkçülük fikri ilə bağlamağa çalışır. Aydındır ki, M.Ə.Rəsulzadə, Ə.Cəfəroğlu kimi burjua ideoloqlarından Azərbaycan ictimai fikrinin obyektiv şərhini gözləmək son dərəcə sadəlövhlük olardı. Onların konsepsiyası tarixi faktların təhrifinə əsaslanan millətçilik demaqogiyasından başqa bir şey deyildir" [9, s.30].

Xüsusilə, F.Q.Köçərli milli ideoloq M.Ə.Rəsulzadənin hazırkı şərtlər daxilində islamın kommunizmə əngəllər törətməsini müsbət dəyərləndirməsinə qarşı çıxırdı. Onun fikrincə, bütün bunlara baxmayaraq, Azərbaycan xalqı yarım əsrdən artıqdır ki, SSRİ xalqları ailəsində kommunizm quruculuğu yolu ilə inamla irəliləyir [9, s.32]. Çünki Azərbaycan xalqı öz nicatını islamçılıqda və türkçülükdə deyil, marksizm-leninizmdə tapmışdı. Guya, "panislamizm" və "pantürkizm" mülkədarların, ruhanilərin və

başqa mürtəce qüvvələrin cərəyanları olduğu halda, marksizm-leninizm Azərbaycan xalqını mütərəqqi qüvvələrinin təlimi olmuşdu [9, s.90].

Əlbəttə, bu düşüncələrində akademik dövrün şərtlərinin, eyni zamanda inandığı sovet ideologiyasının təsiri altında təhriflərə də yol vermiş olurdu. Hər halda milli ideoloq M.Ə.Rəsulzadənin irəli sürüb qətiyyətlə müdafiə etdiyi Azərbaycan türkçülüyü, ya da azərbaycançılıq konsepsiyası mütərəqqi bir konsepsiya olub, milli-demokratik ideyalara əsaslanırdı. Şübhəsiz, Rəsulzadənin milli konsepsiyasının əsasında da çağdaş ruhlu türkçülük, islamçılıq, azərbaycançılıq dayanmmışdı. Hal-hazırda da Azərbaycan Respubııkası həmin konsepsiyanın, yəni azərbaycançılıq ideyasının əsasında yoluna davam etməkdə, onu milli ideologiya səviyyəsinə qədər qaldırmaqdadır.

**Nəticə / Conclusion**

Ümumilikdə, F.Q.Köçərlinin ictimai-fəlsəfi irsi Sovet ideologiyasına köklənsə də, onun Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin təbliğində, inkişafında yerini və rolunu da qeyd etmək lazımdır. Hər halda akademik Köçərli yaşadığı dövrün şərtləri altında milli-dini dəyərlərə, o cümlədən türkçülüyə və islamçılığa tənqidi yanaşması ilə yanaşı, Azərbaycan xalqının mənəvi-əxlaqi dəyərlərinin təkmilləşməsində müəyyən işlər görmüşdür. Eyni zamanda, onun ictimai-siyasi və fəlsəfi görüşlərində din və milliyyət problemi, onların həlli yolları mühüm yer tutmuşdur. Digər tərəfdən o, yenə də həmin dövrün şərtləri daxilində Azərbaycan xalqının fəlsəfə tarixinə dair bir sıra əsərlər yazmış, xüsusilə də tanınmış mütəfəkkirlərimizin (M.F.Axundzadə, Ü.Hacıbəyli, N.Nərimanov, Ö.F.Nemanzadə, H.Hüseynov, C.Məmmədquluzadə və b.) ictimai-fəlsəfi görüşlərini tədqiq etmişdir. Əlbəttə, burada da sovet ideologiyasına uyğun olaraq müəyyən kənara çıxmalara varmasına baxmayaraq, akademik ümumilikdə mütəfəkkirlərimizin elmi-fəlsəfi irsinin araşdırılmasında böyük əmək sərf etmişdir.

**İstifadə olunmuş ədəbiyyat**


1. Ağayev M.B. Azərbaycanın müasir fəlsəfə tədqiqatçıları. Bakı, “Elm və təhsil”, 2021
2. Ələkbərli F.Q. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı, Elm və təhsil, 2020
3. Firudin Qasım oğlu Köçərli. Biblоqrafiya. Bakı, “Elm”, 1997
4. Hacıbəyli Üzeyir. Seçilmiş əsərləri. 2 cilddə, II cild. Bakı, «Şərq-Qərb», 2005
5. Hacıbəyli Üzeyir. Türki-Rusi və Rusi-Türki lüğət. Bakı, 1907
6. Köçərli F.Q. M.F.Axundovun ictimai-siyasi və fəlsəfi görüşləri // Axundov M.F. Əsərləri. 3 cilddə, II cild. Bakı, Azəbaycan SSR EA nəşriyyatı, 1961
7. Köçərli F.Q. M.F.Axundovun dünyagörüşü. Bakı, Elm, 1999
8. Köçərli F.Q. Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri. Bakı, Azərb. SSR EA nəşriyyatı, 1965
9. Köçərli F.Q. Marksizm-leninizm və Azərbaycanda demokratik ictimai fikir. Bakı, Azərnşər, 1976
10. Köçərli F.Q. Nəriman Nərimanov. Həyatı, fəaliyyəti, dünyagörüşü. Bakı, Azərnəşr, Bakı, Azərnəşr, 1965
11. Köçərli F.Q. «Molla Nəsrəddin»çi Ömər Faiq. Bakı, Elm, 1996
12. Köçərli F.Q. Yetkin sosializm cəmiyyətində mənəvi tərbiyə məsələləri. Bakı, Azərnəşr, 1979
13. Köçərli F.Q. Din və onun mənşəyi. Bakı, Azərnəşr, 1964
14. Məmmədquluzadə Cəlil. Əsərləri. 4 cilddə. IV cild. Bakı, «Öndər», 2004
15. Məmmədquluzadə C. Əsərləri. 4 cilddə, II cild. Bakı, «Öndər», 2004
16. Nərimanov N. Məqalələr və nitqlər. 2 cilddə, I c., Bakı, Azərnəşr, 1977
17. Nemanzadə Ömər Faiq. Seçilmiş əsərləri. Bakı, «Şərq-Qərb», 2006
18. Заманова Э. Эстетическая мысль в Азербайджане в XIX – начале XX века. Баку, «Текнур», 2011


**Rəyçi: f.f.d., dos. Zeynəddin Şabanov**

**UDC 101.1**
**https://doi.org/10.30546/ifs.2024.2(43).011**

# PHILOSOPHY OF ARTIFICIAL INTELLIGENCE IN THE PERSPECTIVE OF CONCERN AND RISK: THE CASE OF AZERBAIJAN AND TURKEY

**Yavuz Belendir**
Graduate Student, Ankara Hacı Bayram Veli University, **Turkey**
yavuz.belendir@ogr.hbv.edu.tr

**Serra Sevde Hatipoğlu**
Asst. Prof. Dr. Ankara Hacı Bayram Veli University, **Turkey**
Orcid: 0000-0002-1344-3244
serra.hatipoglu@hbv.edu.tr

**Abstract.** Throughout the evolution of technology, from its inception until the advent of Artificial intelligence, human cognitive abilities, and creative output have been considered as some of human beings; most significant advantages over machines. However, the rise of artificial intelligence has become a source of concern, as it can potentially undermine this supremacy.

Artificial intelligences nature, future, and applications are the themes of multidisciplinary discourse, including fields such as philosophy and sociology. Simultaneously, several nations

have initiated the examination of the effects of this emerging technology on both individual and societal levels, each from its unique standpoint. This study examines artificial intelligence research conducted in Turkey and Azerbaijan, focusing on the problems and risks associated with it. The analysis reveals that ethical considerations play a prominent role in the artificial intelligence studies conducted in both countries. Furthermore, it has been observed that research on artificial intelligence in Turkey primarily focuses on theoretical aspects, whereas in Azerbaijan, the emphasis is mainly on examining the influence of artificial intelligence technologies on Azerbaijan's standing/position in international strategies. The research undertaken in both nations highlights the concerns, risks, and societal difficulties associated with the question of whether computers can think, a topic that arises with the advent of artificial intelligence.

**Keywords:** artificial intelligence, Aİ strategies, sociology of Aİ, Human cognition, Aİ Research in Turkey and Azerbaijan

## SÜNİ İNTELLEKT FƏLSƏFƏSİ NARAHATLIQ VƏ RİSK BAXIMINDAN: AZƏRBAYCAN VƏ TÜRKİYƏ NÜMUNƏSİ

**Yavuz Belendir,**
**Serra Sevde Hatipoğlu**

**Xülasə.**Texnologiyanın inkişafı boyu, onun yaranışından süni intellektin meydana çıxmasına qədər insanın idrak qabiliyyətləri və yaradıcılığı maşınlar üzərindəki ən mühüm üstünlüklərindən biri hesab edilirdi. Lakin süni intellektin yüksəlişi bu üstünlüyü sarsıda biləcəyi üçün narahatlıq mənbəyinə çevrilmişdir. Süni intellektin mahiyyəti, gələcəyi və tətbiqləri fəlsəfə və sosiologiya kimi sahələri əhatə edən multidisiplinar müzakirələrin əsas mövzularındandır.

Eyni zamanda, bir sıra ölkələr bu yeni texnologiyanın həm fərdi, həm də ictimai səviyyədə təsirlərini öz baxış prizmasından araşdırmağa başlamışdır. Bu tədqiqat Türkiyə və Azərbaycanda aparılan süni intellekt araşdırmalarına nəzər salır və onunla bağlı problemlər və riskləri təhlil edir. Analiz göstərir ki, hər iki ölkədə süni intellekt sahəsində etik məsələlər xüsusi əhəmiyyət kəsb edir. Bundan əlavə, müşahidə olunmuşdur ki, Türkiyədə aparılan araşdırmalar əsasən nəzəri aspektlərə yönəldiyi halda, Azərbaycanda süni intellekt texnologiyalarının ölkənin beynəlxalq strategiyalardakı mövqeyinə təsirinin araşdırılmasına daha çox diqqət yetirilir.

Hər iki ölkədə aparılan araşdırmalar süni intellektin yaranması ilə aktuallaşan "kompüterlər düşünə bilərmi?" sualı ilə bağlı narahatlıqları, riskləri və sosial çətinlikləri ön plana çıxarır.

**Açar sözlər:** süni intellekt, süni intellekt strategiyaları, süni intellektin sosiologiyası, insan koqnisiyası, Türkiyədə və Azərbaycanda süni intellekt tədqiqatları.

## ФИЛОСОФИЯ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ПЕРСПЕКТИВЕ ОБЕСПОКОЕННОСТИ И РИСКА: НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА И ТУРЦИИ

**Явуз Белендир**
**Серра Севде Хатыпоглу**

**Резюме.** На протяжении эволюции технологий, от их зарождения до появления искусственного интеллекта, когнитивные способности человека и его творческий потенциал считались одними из важнейших преимуществ перед машинами. Однако развитие искусственного интеллекта стало причиной беспокойства, так как эта технология смогла потенциально подорвать человеческое превосходство.

Ряд стран начали изучать влияние данной технологии как на индивидуальном, так и на общественном уровне, отражая свою точку зрения. В данной статье рассматриваются исследования в области искусственного интеллекта, проводимые в Турции и Азербайджане, фокусируясь на проблемах и рисках, связанных с ними. Анализ показывает, что в обеих странах важную роль в изучении искусственного интеллекта играет этический аспект. Кроме того, замечено, что в Турции исследования в основном сосредоточены на теоретических аспектах, тогда как в Азербайджане акцент делается на анализ влияния технологий искусственного интеллекта на позицию страны в международных стратегиях.

Исследования, проведенные в обеих странах, подчеркивают обеспокоенность, риски и социальные трудности и связаны с вопросом «могут ли компьютеры мыслить?» вопрос, который приобрел актуальность с развитием искусственного интеллекта.

**Ключевые слова:** искусственный интеллект, стратегии ИИ, социология ИИ, человеческое познание, исследования ИИ в Турции и Азербайджане.

### Introduction

As one of the 21st century's most important technological developments, artificial intelligence has found its place in every aspect of life. Artificial intelligence has made great progress in a short time, leading to increased research to understand this new technology. Artificial intelligence, defined by the Turkish Language Association as “the ability of a computer, a computer-controlled robot or a programmable device to exhibit functions such as perception, learning, reasoning, decision making, problem solving, communication, etc. in a human-like manner”, has various definitions as it is an interdisciplinary field. Artificial intelligence, which was first used as a concept by John McCarthy in 1956, was defined by him as “the science and engineering of making human-like intelligent machines, especially intelligent computer programs” (McCarthy 2004, s.7’den akt. Arslan, 2020: 76). In another definition, artificial intelligence is defined as "(...) the ability of a computer or a computer-controlled robot to perform various activities similar to intelligent living beings" (Kozacıoğlu ve Yazgan, 2022: 43). It can be said that artificial intelligence is a computer-controlled system that has the ability to operate like intelligent beings similar to humans.

The definitions of artificial intelligence reveal its multidimensional structure. The fact that artificial intelligence functions as an imitation of human intelligence opens the door to discussions that go beyond the technical dimension. The issue of whether there can be machines that can think requires understanding the nature of the act of thinking, examining human consciousness, and questioning the imitability of human nature. In line with these problems, the technical status of artificial intelligence parallels the theoretical discussion of the problem of consciousness. How artificial intelligence technologies are perceived as an innovation, in which dimensions the stages of acceptance or rejection take place, and what their ontological, epistemological, and ethical problems have begun to be among the main topics of social sciences and philosophy disciplines. It is essentially

a philosophical question as to whether "consciousness" and "intelligence," which are frequently regarded as the characteristics that set humans apart from other living forms, can be duplicated in machines. Even though the debate has its roots in the machine and mathematical sciences, it entails investigating the nature of consciousness and the potential for human mind replication.

The philosophical foundations of artificial intelligence can be traced back to the 17th century (Coşkun ve Gülleroğlu, 2021: 948). In his Discourse on Method, Descartes explains why machines with human-like bodies, morally capable of imitating humans, cannot be human (Yeşilkaya, 2022: 103). According to Descartes, machines are distinguishable from humans because they cannot imitate human linguistic and bodily behaviors. He stated that the multidimensionality of communication and the diversity in life meant that machines could not think like humans. Although these evaluations he made on the technology of his time may vary today, this discussion raised by Descartes has been an important guide for Alan Turing, who had an important role in the development of artificial intelligence. Alan Turing is one of the pioneers of modern computing and artificial intelligence, and he worked at the National Physics Laboratory in London after the Second World War (Topal, 2017). Turing, who posed the question “Can machines think?” in his book “Computing Machines and Intelligence in the Mind,” moved the subject to a technical field in the background of Descartes' philosophical concepts on whether machines can think. In this context, Turing's philosophy of artificial intelligence focuses on the question “Can machines think?” (Yeşilkaya, 2022).

During the development of technology until artificial intelligence technologies, the ability of humans to think and produce seemed to be one of their greatest advantages over machines, while artificial intelligence has turned into a tool of anxiety with the potential to prevent this superiority (Tahça, 2009). The question of whether or not machines can think leads us to examine the nature and uses of technology alongside anxiety. Turing's “Imitation Game” is an important example of understanding the nature and philosophy of technology. With the game he developed, Turing aims not only to test whether machines can think but also to prove that machines are capable of thinking (Yeşilkaya, 2022). In another study, philosopher John Searle, in what he calls the “Chinese Room Argument”, questions whether computers think (Searle, 1980; Yeşilkaya, 2022). Searle's research also shows the importance of artificial intelligence in the philosophy of mind (Searle, 1980; Yeşilkaya, 2022). This study is designed to demonstrate that computers cannot be as intelligent as humans (Searle, 1980; Yeşilkaya, 2022). Dreyfus's “Phenomenological Argument”, which argues that artificial intelligence cannot understand human beings because it cannot understand the context of language, aims to prove that human intelligence and expertise are not only formed by conscious processes but also by unconscious processes (Dreyfus, 1975; Yeşilkaya, 2022). According to the literature, research on the philosophy of artificial intelligence necessitates an interdisciplinary approach.

What artificial intelligence is, what it will be, and what it will serve will continue to find its place in many disciplines, including philosophy. At this point, each country is trying to examine this new technology from its perspective. The examination of artificial intelligence has garnered attention in Turkey and Azerbaijan, mirroring global trends. There are similar and different issues from the perspectives of research in Azerbaijan and Turkey on the philosophy of artificial intelligence. Ethical concerns are a major focus in Azerbaijani and Turkish studies, as well as in global social research on artificial intelligence. In addition, it is observed that studies on the sectoral development of artificial intelligence are frequently preferred in research. In artificial intelligence research conducted in Azerbaijan, it has been observed that technical details, the use of artificial intelligence in the field of health, and artificial intelligence research in diplomatic relations come to the fore. The availability of articles and theses open to access is an important factor in finding findings on broader topics in artificial intelligence research conducted in Turkey.

**Research Perspectives of Artificial Intelligence Philosophy in Turkey and Azerbaijan**

In Biçer's study conducted in 2024, it is observed that the articles written in the field of philosophy of artificial intelligence in Turkey between 2020 and 2023 focus on the problem of the definition of artificial intelligence, the philosophical origins of the philosophy of artificial intelligence, the positioning of artificial intelligence in the legal and ethical framework, the artistic

value of artificial intelligence productions and the patent problem (Biçer, 2024). The ethical implications of the potential risks associated with artificial intelligence are a focal point in Turkish research. The study conducted by Efe in 2021 analyzed the risks associated with the development of artificial intelligence under six primary categories: social, performance, security, economic, control, and ethical risks (Efe, 2021). In studies conducted in Turkey, the impact of artificial intelligence tools on decision-making processes and how to protect the privacy of individuals have also been discussed in the ethical question of artificial intelligence. For example, Başkaya and Karacan's study on chatbots in 2022 focused on the privacy of data transferred to chatbots. A survey of 100 individuals revealed that 45% of respondents deemed chatbots unreliable, while 62.1% were unaware that these tools handle personal data (Başkaya ve Karacan, 2022). In Kavut's study conducted in 2022, which examines the content of theses written on artificial intelligence in Turkey between 2019 and 2021, it was observed that the researchers focused more on science and engineering (Kavut, 2022). The place of social sciences in artificial intelligence research is less due to the technical development of the field. In social science research, it is seen that there is a focus on topics such as future scenarios, the philosophical status of artificial intelligence, and artificial intelligence anxiety. In the study conducted by Takıl, Erden, and Arasıl in 2022, in which the anxiety level of different professional groups towards artificial intelligence technology was examined through university students, the anxiety levels of the Faculty of Education students were at the highest level, while the anxiety levels of Engineering and Law Faculty students were at the lowest level (Takıl, Erden ve Arasıl, 2022). There may be a relationship between the higher number of thesis studies on artificial intelligence in the Faculties of Engineering compared to other faculties and the lower level of anxiety due to knowledge. Takıl, Erden, and Arasıl (2022) state in their study that there may be a negative relationship between knowing artificial intelligence and artificial intelligence anxiety. In Dönmez's article titled Artificial Intelligence and the 2025 Syndrome in the Philosophical Context, published in 2020, while talking about the complex situation of artificial intelligence, he also discusses the limits of the power of artificial intelligence, which will find itself in almost every aspect of life as of 2025, and what it can change in life (Dönmez, 2020). Although there has been some research on artificial intelligence in Turkey, Dönmez's study found that it has been restricted to private and commercial endeavors and that this problem needs to be approached from a religious, philosophical, and economic standpoint (Dönmez, 2020).

While ethics, consciousness, mind, free will, and many other topics are covered in the question "Can machines think?" regarding artificial intelligence, this question also asks whether robots will be free agents or slaves and whether humanity is creating a self-destroying entity (Yeşilkaya, 2022). The research conducted in Turkey demonstrates the practical equivalents of these theoretical inquiries. In general, the researches, in which technical fields come first, are addressed by the law in the philosophical dimension, questioning the security of personal data and whether privacy can be violated. Another concern about artificial intelligence is that it will increase unemployment. The unpredictable progress of artificial intelligence, its potential to destroy business lines, and the related uncertainty are observed as a cause for concern (Özbey ve Tan, 2022).

The primary observation regarding artificial intelligence research in Azerbaijan is the emphasis on practical research over theoretical research. A search for the keyword "Suni İntellekt" on Google Scholar yielded 18 results. Upon analysis of these results, two studies were identified as exemplary representations of artificial intelligence research conducted in Azerbaijan. The initial study is titled “Digitalization of the World Economy and Social Life: Global Trends, Achievements, and Challenges to the National Interests and Growth Perspectives of Azerbaijan,” authored by Abbasov and Ibrahimov in 2019 (Abbasov və İbrahimov, 2019). This study focuses on the challenges that the digitalization of the world poses to Azerbaijan's national interests. The study discusses Azerbaijan's technological breakthroughs over the last 50 years, the need to keep abreast of artificial intelligence and digital technologies, the necessity to be involved in international partnerships, the importance of creating a modern system compatible with these new technologies in all areas from education to economy, and the threat posed by these new technologies in many areas from cybercrime to military threats (Abbasov və İbrahimov, 2019). This research has been conducted practically, in contrast to

the studies performed in Turkey, to benefit the country rather than theoretically. The focus has been on assessing the role of artificial intelligence technologies within Azerbaijan's international strategies, rather than addressing their social or global issues. This research exemplifies the evaluation of artificial intelligence as an object. Another artificial intelligence study from the Azerbaijani perspective is the 2023 publication by Hüseynova, Bayramov, and Məmmədova entitled “The Role of Suni Intelligent Algorithms in the Diagnosis of Hepatocellular Carcinoma.” This study examines the role of artificial intelligence technologies in diagnosing hepatocellular carcinoma (Hüseynova, Bayramov və Məmmədova, 2023). This study revealed that the use of artificial intelligence technologies in the field of health is beneficial against waste of resources and the use of artificial intelligence tools in medical imaging provides benefits in examinations (Hüseynova, Bayramov və Məmmədova, 2023). As in the studies of Abbasov and Ibrahimov, artificial intelligence is considered an object in this study. When Turkish and English studies on artificial intelligence research in Azerbaijan were analyzed through Google Scholar, 8 studies were found. Among these studies, two are deemed appropriate for initiating discourse on the philosophy of artificial intelligence within the context of Azerbaijani research. Əkbərova's “Yeni Nəsil Generativ Süni İntellekt Texnologiyaları (Chatgpt) və İnsan Hüquqları: tənzimlənməsi ilə bağli ilk cəhdlər”, the social impact and consequences of new generation chatbots are emphasized. In her study, Əkbərova explains that artificial intelligence can be useful in the field of human rights, thanks to the artificial intelligence-based translation tool called Deeply, legal documents are translated more accurately, thus protecting rights and international journalists can provide information more clearly (Əkbərova, 2023). On the other hand, the fact that artificial intelligence-based applications are worrisome in terms of the possibility of discrimination in the field of law and work is exemplified by the sexist reflections of the criminal profile management application used to assist judges in some states in the USA, giving more punishment against black people, or Amazon's artificial intelligence-based application used in job searches giving priority to men (Əkbərova, 2023). Although the literature looks at artificial intelligence from a more social perspective, this research also examines the effects of artificial intelligence through practical examples. Allahyarova's study titled “Süni İntellektual Texnologiyalarının inkişafı və tətbiqinin sosial nəticələri”, published in 2023, focused on the social consequences of the development and application of artificial intelligence technologies (Allahyarova, 2023). Allahyarova's study deals with artificial intelligence from a social and philosophical point of view, evaluate the state of artificial intelligence globally, and expresses concerns about artificial intelligence from the perspective of Turkey. In her study, Allahyarova talked about the concerns that artificial intelligence will destroy humanity and focused on the possibility of this happening. In the study, it is stated that there is irresponsible behavior in artificial intelligence technologies from governments to companies, from professionals to managers, and if this situation continues, artificial intelligence can bring the end of humanity, so legal restrictions on artificial intelligence should be urgently introduced (Allahyarova, 2023). Expressing concerns over the uncontrolled use of artificial intelligence tools, the study warned that the manipulative use of artificial intelligence against natural intelligence is alarming, dangerous, and risky (Allahyarova, 2023).

## Conclusion

While the discourse surrounding the development of artificial intelligence technologies predominantly focuses on their technical dimensions, it remains essential to theoretically explore the possibility of imitating human consciousness. The fact that the artificial intelligence tools used today act on the commands given shows that the controversial artificial intelligence that thinks like a human is still a product of the future and science fiction. For this reason, the philosophical foundations of the possibility of future technology continue to be discussed as much as the technical possibilities of human-like artificial intelligence.

In the current position of artificial intelligence, the discussions on artificial intelligence are also in the field of philosophy. The question of whether artificial intelligence can attain consciousness falls within the realm of epistemology, while the possibility of conscious machines becoming subjects is a topic in the philosophy of being. Beyond these philosophical debates, discussions about artificial intelligence also focus on its societal implications. As can be seen in the studies conducted in Turkey

and Azerbaijan, the technical inadequacies of today's artificial intelligence emphasize the ethical and social problems of machines that think like humans, rather than the problems of existence and knowledge. The basis of this situation lies in the ambiguous situation due to the rapid development of artificial intelligence tools. While the practical field comes to the forefront of artificial intelligence research in Turkey and Azerbaijan, social research emphasizes concerns, risks, and social problems.

**References**

Abdulov, R. (2020). Artificial Intelligence as an Important Factor of Sustainable and Crisis-Free Economic Growth. *Procedia Computer Science, 169*, 468-472. 2020.02.223

Allahyarova, T. (2023). *Süni İntellekt Texnologiyalarının İnkişafı və Tətbiqinin Sosial Nəticələri.* https://socialresearchjournal.az/index.php/2023/10/04/suni-intellekt-texnologiyalarinin-inkisafi-ve-tetbiqinin-sosial-neticeleri/

Arslan, K. (2020). Eğitimde Yapay Zeka ve Uygulamaları. Batı Anadolu Eğitim Bilimleri Dergisi, 11(1), 71-88.

Başkaya, F., & Karacan, H. (2022). Yapay Zekâ Tabanlı Sistemlerin Kişisel Veri Mahremiyeti Üzerine Etkisi: Sohbet Robotları Üzerine İnceleme. Bilişim Teknolojileri Dergisi, 15(4), 481-491. https://doi.org/10.17671/gazibtd.1053803

Biçer, B. (2024). 2020-2023 Yılları Arasında Yapay Zekâ Felsefesi Alanında Yazılmış Makalelerin İçerik Analizi. https://doi.org/10.5281/ZENODO.10570835

Coşkun, F., Gülleroğlu, H. D. (2021). Yapay zekânın tarih içindeki gelişimi ve eğitimde kullanılması. Ankara University Journal of Faculty of Educational Sciences (JFES), 54(3), 947-966.

Dönmez, S. (2020). FELSEFİ BAĞLAMDA YAPAY ZEKÂ VE 2025 SENDROMU. Çukurova Üniversitesi İlahiyat Fakültesi Dergisi (ÇÜİFD), 20(2), 748-760. https://doi.org/10.30627-/cuilah.690645

Gasimova, R. T., & Abbasli, R. N. (2020). Advancement of the search process for digital heritage by utilizing artificial intelligence algorithms. *Expert Systems with Applications*, *158*, 113559. https://doi.org/10.1016/j.eswa.2020.113559

Hüseynova M.R., Bayramov N.Y., & Məmmədova M.H. (2023). Hepatosellülyar Karsinomanin Diaqnostikasinda Süni İntellekt Alqoritmlərinin Rolu. *Azerbaijan Medical University Journal*, *4*(2), 1-12. https://doi.org/10.28942/amuj.v4i2.34

Kavut, S. (2022). Türkiye’de Yapay Zeka Alanında Yazılan Tezlerin İçerik Analizi Yöntemiyle İncelenmesi. Türkiye İletişim Araştırmaları Dergisi, 41, 80-98. https://doi.org/10.17829-/turcom.1051167

Kavut, S. (2024). Toplumların Dijital Dönüşüm Aracı Olarak Yapay Zekâ Çalışmaları: Türkiye’nin ve Türk Devletleri Teşkilatının Yapay Zekâ Kullanımı Üzerine Bir Analiz. Erciyes İletişim Dergisi, 11(1), 325-344. https://doi.org/10.17680/erciyesiletisim.1346576

Kozacıoğlu, S., & Yazgan, Ç. Ü. (2022). Toplum 5.0 ve yapay zekâ bağlamında gerçekleşen toplumsal dönüşümün sosyolojik analizi [Master’s Thesis, Nevşehir Hacı Bektaş Veli Üniversitesi]. http://acikerisim.nevsehir.edu.tr/handle/20.500.11787/7893

Rahmanov, F., Suleymanov, E., & Ibrahimova, K. (2023). *Impact of Innovation and Information Communication Technologies on the Development of e-Commerce in Azerbaijan*. 244-251. https://doi.org/10.36880/C15.02761

Tahça, M. (2009). Felsefi Açıdan Yapay Zekâ. (Yayımlanmamış Yüksek Lisans Tezi). Muğla Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Muğla.

Yeşilkaya, N. (2022). FELSEFİ BİR SORUN OLARAK YAPAY ZEKÂ. Bozok Üniversitesi İlahiyat Fakültesi Dergisi, 22(22), 97-126. https://doi.org/10.51553/bozifder.1171640

Əkbərova, L. (2023). *Yeni Nəsil Generativ Süni İntellekt Texnologiyalari (Chatgpt) və İnsan Hüquqlari: Tənzimlənməsi ilə Bağli İlk Cəhdlər.* https://socialresearchjournal.az/index.php/2023-/10/04/yeni-nesil-generativ-suni-intellekt-texnologiyalari-chatgpt-ve-insan-huquqlari-tenzimlenme-si-ile-bagli-ilk-cehdler/

**Rəyçi: f.f.d., dos. Zöhrə Əliyeva**

**UOT 1.101**
**https://doi.org/10.30546/ifs.2024.2(43).013**

# RƏQƏMSAL DÜNYADA İMMANUEL KANTIN ETİK KODEKSİNİN KİBER MƏKANA İNTEQRASİYASI

**Xanım Mustafayeva**
fəlsəfə üzrə fəlsəfə doktoru, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
xanimmustafayeva24@gmail.com
https://orcid.org_0009-0005-4520-2428

**Tural Orucov**
tədqiqatçı , Azərbaycan Dövlət İqtisad Universiteti, **Azərbaycan**
https://orcid.org_0009-0007-0783-5835
tural0rucov2108@gmail.com

**Xülasə:** Bu məqalədə İmmanuel Kantın deontoloji etik prinsipləri ilə Kiberetika arasındakı əlaqə incələnmişdir. Kantın ümumbəşəri əxlaqi çərçivəsinin rəqəmsal dövrün etik çağırışları ilə necə əlaqələndirilə biləcəyi və bu çağırışlara necə cavab verə biləcəyi müzakirə olunur.

**Mövzunun aktuallığı:** Günümüzün ən mühüm etik problemlərinə diqqət çəkən bu elmi tədqiqat işi rəqəmsal dünyada sürətlə inkişaf edən süni intellekt və avtomatlaşdırma texnologiyaları ətrafında gedən etik mübahisələrə işıq sala bilər. Digər tərəfdən, insan hüquqları, azadlıq və ədalət prinsipləri kontekstində Kant etikasının kiberetikaya inteqrasiyasına dair aktual və maraqlı perspektiv təqdim edir.

**Məqsəd:** Rəqəmsal dünyanın etik çağırışlarını nəzərə alaraq, alqoritmik qərar qəbul etmə, rəqəmsal təhlükəsizlik və korporativ etik siyasətlərin idarə olunması sahəsində innovativ yanaşmalar və effektiv həllər təqdim etmək, eyni zamanda bu sahələrdə tədris proqramlarını inkişaf etdirməkdir.

**Metododologiya:** Məqalə ədəbi təhlil, konseptual təhlil və müqayisəli tədqiqat metodları vasitəsilə araşdırılılb.

**Elmi yeniliklər:** Kantın universal əxlaqi prinsiplərini texniki etika ilə sintez edərək, texnologiyanın dizaynı və tətbiqində əxlaqi məsuliyyət və hesabatlılıq prinsiplərini gücləndirmək üçün yenilikçi etik model və metodlar təqdim olunur.

**1. Alqoritmik qərarların etik qiymətləndirilməsi:** Süni intellekt və maşın öyrənməsi texnologiyalarının etik prinsiplərə uyğun dizaynını təmin edən yanaşmalar.

**2. Rəqəmsal təhlükəsizlik və məxfiliyə yeni yanaşmalar:** İstifadəçilərin şəxsi məlumatlarının qorunması üçün innovativ texnoloji və hüquqi həllər.

**3. Əxlaq və maarifləndirmə proqramları:** Kiberetika və Kantın əxlaqi prinsiplərini gənclərə və texnologiya istifadəçilərinə öyrədən proqramların hazırlanması.

**4. Korporativ etika siyasətlərinin təkmilləşdirilməsi:** Şirkətlərin etik dəyərlərə daha çox diqqət yetirmələrini və sosial məsuliyyətlərini yerinə yetirmələrini təşviq edən təkliflər.

**Nəticə:** Kiberetika və Kantın əxlaq kodeksi rəqəmsal dövrün etik problemlərinə işıq tutan iki fərqli, lakin tamamlayıcı perspektiv təqdim edir. Kiberetika texnoloji inkişafların gətirdiyi spesifik etik çağırışları işıqlandıraraq praktik yanaşmalar təklif edir, Kantın əxlaq kodeksi isə universal əxlaqi prinsipləri vurğulayaraq zaman və məkan baxımından bəşəri dəyərləri qoruyur. Hər iki yanaşma insan ləyaqəti, ədalət və dürüstlük kimi fundamental dəyərləri əsas götürür, amma onlar müxtəlif kontekstlərdə tətbiq olunurlar.

**Açar sözlər:** İmmanuel Kant, deontoloji etik prinsiplər, kiberetika, ümumbəşəri əxlaqi çərçivə, rəqəmsal dövr, etik çağırışlar, əxlaqi cavablar, etik əlaqələr

# CYBER SPACE INTEGRATION OF IMMANUEL KANT'S CODE OF ETHICS IN THE DIGITAL WORLD

**Khanim Mustafayeva**
**Tural Orujov**

**Abstract:** This paper explores the relationship between Kant's ethical principles and cyberethics. It discusses how Kant's universal moral framework can be related to the ethical challenges of the digital age and how it can respond to these challenges.

**Keywords:** Immanuel Kant, deontological ethics, cyberethics, universal moral framework, digital era, ethical challenges, moral responses, ethical connections.

# ЭТИЧЕСКАЯ КОНЦЕПЦИЯ ИММАНУИЛА КАНТА В ЦИФРОВОМ МИРЕ ИНТЕГРАЦИЯ КИБЕРПРОСТРАНСТВА

**Ханым Мустафаева**
**Турал Оруджев**

**Резюме.** В данной статье рассматривается взаимосвязь между этическими принципами Канта и киберэтикой. Обсуждается, как универсальная моральная концепция Канта может быть связана с этическими вызовами цифровой эпохи и как она может ответить на грядущие вызовы, спровоцированные технологическим прогрессом.

**Ключевые слова:** Иммануил Кант, деонтологическая этика, киберэтика, универсальная моральная концепция, цифровая эпоха, этические вызовы, моральные ответы, этические связи

## Giriş

Təəssüflər olsun ki, bəşəriyyət rəqəmsal dünyanın sürətli inkişafı nəticəsində, texnologiyanın gətirdiyi yeni etik problemlərlə qarşı-qarşıya qalmaqdadır. Sürətli texnoloji inkişaflar fərdləri və cəmiyyətləri öz rəqəmsal dəyər və etik məsuliyyətlərini şübhə altına almağa vadar etməkdədir. Bu kontekstdə, “kiberetika” və Kantın etik kodeksi kimi, fundamental əxlaqi çərçivələr rəqəmsal dünyada mənəvi qərarlar qəbul etmək və fəaliyyət göstərmək üçün mühüm təlimat verməkdədir.

Kantın deontoloji əxlaqi prinsipləri və kiberetikanın fərqli perspektiv və kontekstlərə malik olmasına baxmayaraq, hələ də inteqrasiya olunmalı və birlikdə nəzərdən keçirilməli olan bir çox məqamlar var. Universal prinsiplərdən istifadə, texnologiya ilə bağlı etik məsələlər, fərdi və sosial etika, texnologiyanın insan ləyaqətinə hörmət prinsipinə uyğunluğu, süni intellekt və avtomatlaşdırma ilə bağlı etik məsələlər kimi bir çox məqamlar bu iki sahənin birləşmə prioritetini gündəmə gətirməkdədir. Hər iki sahəni birlikdə nəzərdən keçirmək rəqəmsal dünyada etik problemlərin daha əhatəli və ardıcıl şəkildə həllinə kömək edə bilər.

Tədqiqat işində kiberetika və Kantın etik kodeksi arasında qarşılıqlı müqayisə aparılaraq, hər iki yanaşmanın rəqəmsal dövrdəki etik problemlərlə mübarizə potensialı və məhdudiyyətləri diqqət mərkəzinə çəkilir. İlk öncə, hər iki etik perspektivin əsas prinsipləri və yanaşmaları müzakirə olunur. Sonra isə fərdi və sosial məsuliyyətlər, məlumatların məxfiliyi və təhlükəsizliyi, məqsədyönlülük və nəticəyə köklənmə kimi spesifik məsələlər müqayisəli şəkildə araşdırılır. Daha sonra rəhbər prinsiplərin müəyyən edilməsi; qərarvermə proseslərinin standartlaşdırılması, şəxslərarası münasibətlərə rəhbərlik, texnoloji inkişaflara uyğunlaşma, sosial qəbulun və etimadın artırılması kimi məsələlərin və inteqrasiyanın bəzi mümkün nəticələri təqdim olunur.

Nəticədə, kiberetika və Kantın etik kodeksinin rəqəmsal dövrdə əxlaqi istiqamət və qərar qəbuletmə proseslərindəki rolunun daha dərindən dərk edilməsinə nail olunacaq. Bu müqayisəli təhlil rəqəmsal dövrdə mənəvi şüurun və məsuliyyətin inkişafına töhfə vermək məqsədilə həyata keçirilir. İki fərqli dövr və kontekstdəki bu etik yanaşmalar arasındakı oxşarlıqları, fərqlilikləri və praktiki

tətbiqləri başa düşmək bizə daha ədalətli təhlükəsiz və etik bir rəqəmsal gələcəyə doğru addımlar atmağa kömək edə bilər.

**Mövzunun aktuallığı:** Bütün sahələrdə olduğu kimi, heç şübhəsiz ki, kiber məkanda da fəlsəfi düşüncələrə ehtiyac böyük əhəmiyyət kəsb etməkdədir. Rəqəmsal dünyada informasiya texnologiyaları sürətlə inkişaf etdikcə “etika”, “insan hüquqları” və “məxfilik” kimi məsələlər də eyni sürətlə inkişaf edərək, xaotik bir orientasiyaya çevrilməkdədir. Fəlsəfi fikir isə bu kimi məsələlərin həllində hər zaman mühüm bir vasitə kimi şıxış etməkdədir. Misal üçün:

**Etik problemlər:** Kiber məkanda süni intellektin, avtomatlaşdırma və rəqəmsal məlumatların istifadəsi kimi texnoloji inkişaflar müəyyən dərəcədə etik problemlər yaratmaqdadır. Fəlsəfi fikir bu kimi problemlərin təhlili və həlli üçün mühüm bələdçi ola bilər.

**Şəxsi məlumatlar və məxfilik:** Şəxsi məlumatlar və məxfilik kiber dünyada getdikcə daha çox əhəmiyyət kəsb edir. Fəlsəfi fikir bu məsələlərdə fərdlərin hüquq və hüdudlarını müəyyən etmək üçün konseptual çərçivələr təqdim edə bilər.

**Virtual dünya ilə reallıq arasındakı əlaqə:** Kiber dünya ilə reallıq arasındakı sərhəd getdikcə mürəkkəbləşməkdədir. Bu orientasiya, fəlsəfi müzakirələrin hədəf nöqtəsinə çevrilərək, insanların virtual aləmdəki təcrübələrinin onların real dünyadakı həyatlarına necə təsir etdiyi barədə dərindən düşünməyi tələb edə bilər.

**Bərabərsizlik və əlçatanlıq:** Kiber dünyada texnoloji irəliləyişlər bəzi qrupların digərlərinə nisbətən daha çox üstünlük əldə etməsinə səbəb ola bilər. Kantın ümumbəşəri əxlaqi qanun anlayışı hər kəsin insan ləyaqətinə hörmət etməli olduğunu bildirir. Bu, kibermakanda qlobal giriş və bərabərlik məsələlərini həll edərkən vacibdir. Çünki kiber dünyada, texnoloji irəliləyişlər bəzi qrupların digərlərinə nisbətən daha çox üstünlük əldə etməsinə və yaxud, bəzi bölgələrin və ya qrupların digərlərindən daha çox təsirə məruz qalmasıyla nəticələnə bilər. Bu vəziyyət ədalət və bərabərlik kimi fəlsəfi məsələlərin gündəmə gəlməsinə səbəb ola bilər.

Kiberetika informasiya texnologiyaları və internetdən istifadə ilə bağlı etik qaydaları və prinsipləri özündə birləşdirən bir fənndir. Bu, kompüter sistemlərinin, məlumatların və internetin etik istifadəsini və işini araşdıran bir sahədir. Xüsusilə, şəxsi məxfiliyin qorunması, məlumatların təhlükəsizliyi və kiberhücumların qarşısının alınması kimi məsələlər kiberetikanın mərkəz nöqtələri arasındadır.

Etik kodeks isə 18-ci əsr filosofu, İmmanuel Kantın əxlaq fəlsəfəsinə əsaslanan yanaşmadır. Kantın əxlaq nəzəriyyəsi hesab edir ki, insan hərəkətləri ümumbəşəri qüvvədə olan əxlaqi prinsiplərə əsaslanır. Bu prinsiplər kateqoriyalı imperativlər kimi tanınır və mahiyyətcə "hərəkətin universallığına" fokuslanır. Aktuallıq baxımından hər iki mövzu texnologiyanın və cəmiyyətin dəyişən dinamikasına uyğunlaşmalıdır. Məsələn, kiberetika, yeni texnoloji inkişaflar və süni intellektin istifadəsi, böyük verilənlərin analitikası, internet senzurası və s. kimi etik çağırışlarla daim yenilənməlidir. Kantın əxlaqi kodeksi isə ümumbəşəri əxlaqi prinsipləri cəmiyyətin dəyərlərinə və texnologiyanın təsirlərinə uyğun olaraq şərh edilə və yenilənə bilən şəkildə tətbiq etməyə çalışır. Buna görə hər iki sahədə texnologiyanın və cəmiyyətin dəyişən ehtiyaclarına və çağırışlarına həssaslıq aktuallıq kəsb edir.

**Rəqəmsal əsrdə əxlaqi prinsiplərin yenidən qiymətləndirilməsi**

Rəqəmsal dünyada gələcəyimizi formalaşdıran rəqəmsal texnologiyaların geniş tətbiqi ilə ənənəvi etik prinsiplərin yenidən qiymətləndirilməsi getdikcə daha çox əhəmiyyət kəsb etməkdədir. Bu isə “rəqəmsal texnologiyaların yaratdığı yeni etik problemlərin və imkanların həllində mövcud etik çərçivələrin aktuallığını, adekvatlığını və effektivliyini şübhə altına almaqdadır ” (1, s.86) .

Almaniyada fəaliyyət göstərən müsəlman icmalarının əksəriyyətinin publik hüquq çərçivəsində korporasiya statusuna malik olmaması cəmiyyətdə islamofobiyanın geniş yayılması üçün əlverişli şərait yaradır. Bundan başqa, 2010-cu illərin əvvəllərində bir neçə Qərb dövləti ilə yanaşı, Almaniyanın rəsmi şəkildə multikulturalizm siyasətindən imtina etməsi də islamofobiyanın yayılması üçün eyni şərait yaratmışdır. 2010-cu ildə Almaniyanın sabiq kansleri Angela Merkel Xristian Demokrat İttifaqının gənclər təşkilatının Potsdam şəhərində keçirilən toplantısında çıxışı zamanı Almaniyada multikultural cəmiyyət qurmaq cəhdlərinin uğursuzluğa düçar olduğunu bildirmişdi. O, insanların xoşbəxtliklə "yan-yana yaşayacaqları" "multikulti" adlanan konsepsiyanın işləmədiyini və immiqrantların yaşadıqları cəmiyyətə inteqrasiya olunmaları üçün daha çox iş görməli olduqlarını, o cümlədən alman dilini öyrənmələrinin lazım olduğunu söyləmişdir (5).

Almaniyada islamofobiyanın rəsmi siyasət səviyyəsinə qaldırılmasının əsas təzahürlərindən biri hökumətin inteqrasiya siyasətinin müsəlman immiqrantlara münasibətdə ayrı-seçkiliyə

əsaslanması ilə bağlıdır. Bu siyasət ölkədəki bütün immiqrantları bir neçə kateqoriyaya bölərək müsəlman immiqrantları aşağı kateqoriyalara daxil edir (11, c.24). Birinci kateqoriyaya keçmiş sovet respublikalarından olan etnik almanlar daxildir. Onların statusu immiqrantlar arasında ən yüksəkdir. Almaniyaya gəldikdən dərhal sonra onlara bütün vətəndaş hüquqları, eləcə də bir çox imtiyazlar (növbədənkənar mənzil, kreditlər, əlil ailə üzvləri üçün müavinətlər və s.) hökumət tərəfindən təqdim olunmuşdur. İkinci kateqoriyaya Avropa İttifaqından və ABŞ-dan olan immiqrantlar daxildir. Bu kateqoriyaya daxil olanlar vətəndaş olmadıqları səbəbindən əyalət və federal seçkilərdə iştirak etməsələr də, yerli səviyyədə səs vermək hüququna malikdirlər. Üçüncü kateqoriyaya həm mülki, həm də əmək məcəllələrinin bir çox müddəaları ilə ayrı-seçkiliyə məruz qalan “qonaq-işçilər” daxildir. Dördüncü kateqoriyaya siyasi sığınacaq üçün müraciət etmiş immiqrantlar daxildir. Beşinci kateqoriyaya ölkəyə qeyri-qanuni gəlmiş qaçqınlar daxildir.

Bu təsnifatdan göründüyü kimi, Almaniyadakı immiqrantlar arasında yerli sakinlərin malik olduqları əksər hüquqlara etnik almanlar, eləcə də ABŞ və Avropa İttifaqı vətəndaşları malikdirlər. Almaniyaya gəlmiş immiqrantların qeyd olunan kateqoriyalara bölünməsindən aydın görünür ki, ölkədəki bütün immiqrantlar arasında ayrı-seçkiliyə ən çox müsəlman immiqrantlar məruz qalırlar. Çünki onlar üçüncü, dördüncü və beşinci kateqoriyaya daxildirlər. Müsəlman immiqrantlara münasibətdə Almaniya hökuməti tərəfindən həyata keçirilən bu ayrı-seçkilik siyasətinin əsas təzahürlərini *siyasətdə təmsilçilik, təhsil, əmək bazarı və məşğulluq, mənzil bazarı, kütləvi informasiya vasitələri* kimi sahələrdə görmək olar:

*Siyasətdə təmsilçilik*

Məlum olduğu kimi, demokratik siyasi sistemin əsas göstəricilərindən biri etnik, irqi və dini mənsubiyyətindən asılı olmayaraq, ölkədə yaşayan hər bir kəsin siyasətdə təmsil olunmasıdır, onun ədalətli maraqlarının və istəklərinin müdafiə olunmasıdır. Milli azlıqların siyasətdə təmsilçiliyini bir qayda olaraq ilk növbədə onların aralarından seçilənlər təmin edirlər. Hazırda 83 milyonluq Almaniya əhalisinin 27%-ni təşkil edən immiqrant əsilli insanlar, xüsusilə də immiqrant əsilli müsəlmanlar siyasi fəaliyyətlə çox zəif məşğul olurlar. Məsələn, 2021-ci il Almaniyada Federal seçkilərdə Bundestaqa (Almaniyada Parlament – B.N.) seçilən deputatların yalnız 11,3%-i immiqrant əsillidir (13, s.61). Onlardan cəmi ikisi müsəlmandır. Bundan başqa, immiqrant əsilli siyasətçilərin bəziləri onlayn və oflayn nifrət nitqlərinə məruz qalır, nifrət cinayətlərindən əziyyət çəkirlər. Bu, onların siyasi fəaliyyətlərini əngəlləyərək immiqrant əsilli insanların maraqlarını müdafiə etmələrinə mane olur.

*Təhsil sahəsi*

Almaniyanın Federal Ayrı-seçkiliklə Mübarizə Agentliyinin hazırladığı hesabata əsasən, orta məktəblərdə müsəlman şagirdlər və onların valideynləri ayrı-seçkiliyə və təqibə məruz qalırlar (6, s.16). Bu faktlara əsasən, təxminən 700 000 müsəlman şagirdi dininə etiqad edərkən bəzi sinif yoldaşları, xüsusilə xuliqan sinif yoldaşları tərəfindən təhqir olunurlar. Hicablı məktəbli qızlar da eyni münasibətlə üzləşirlər. Hətta bəzi orta məktəblərdə müsəlman şagirdlərə öz ana dillərində danışmağa qadağa qoyulur. Bu hesabata əsasən, müsəlman şagirdlərin ayrı-seçkiliyə məruz qalmalarının qarşısının alınması, günahkarların cəzalandırılması istiqamətində məktəbin rəhbərliyi zəruri tədbirlər həyata keçirmir. Bu isə oxşar halların sayının artmasına gətirir (6, s.16).

Bəzən müsəlman şagirdlər oxuduqları məktəblərdə müəllimləri tərəfindən də ayrı-seçkiliyə və qərəzli münasibətə məruz qalırlar. Belə hallar daha çox immiqrant ailələrdən olan şagirdlərlə işləmək təcrübəsi olmayan müəllimlər tərəfindən edilir. Bu kateqoriyaya aid olan müəllimlər immiqrant əsilli şagirdləri etnik-mədəni dəyərlərinə hörmətlə yanaşmırlar. Bir çox hallarda onlar şagirdlərin immiqrant əsilli olmaları səbəbindən çalışqanlıqlarını lazımi dərəcədə qiymətləndirmirlər. Bu isə immiqrant əsilli şagirdlərin motivasiyalarının artmasının qarşısını alır və nəticə etibarilə şagirdlərin akademik göstəricilərinin yüksəlməsinin qarşısını alır. Bu kimi faktlar Almaniyanın orta məktəblərində islamofobiyanın geniş yayıldığını göstərir.

*Əmək bazarı və məşğulluq sahəsi*

Almaniyada müsəlmanlar sosial ədalətin pozulmasının əsas göstəricilərindən olan ayrı-seçkiliklə işlədikləri yerlərdən daha çox əmək bazarında, daha konkret desək, işə götürülərkən üzləşirlər. Əmək bazarında işəgötürənlərin əksəriyyəti cəmiyyətdəki islamofob əhval-ruhiyyənin

təsirindən müsəlmanları işlə təmin etməkdən çəkinirlər. Bu sahədə müsəlman qadınları daha sərt ayrı-seçkiliyə və ədalətsizliyə məruz qalırlar.

*Mənzil bazarı sahəsi*

Almaniyada müsəlmanların tez-tez ayrı-seçkiliklə bağlı üzləşdikləri daha bir sahə mənzil bazarı sahəsidir. Bu, özünü ilk növbədə almanların müsəlmanlara mənzillərini kirayə verməkdən imtina etmələrində büruzə verir. Cəmiyyətdə geniş yayılmış islamofob əhval-ruhiyyənin təsiri altında almanlar müsəlmanlara, xüsusilə İslam dininə mənsubiyyətlərini açıq şəkildə nümayiş etdirən insanlara (məsələn, hicablı qadınlara) mənzillərini kirayə verməkdən ehtiyat edirlər.

Federal Ayrı-seçkiliklə Mübarizə Agentliyinin yuxarıda qeyd etdiyimiz hesabatına əsasən, müsahibəyə qatılan müsəlmanların 33%-i yaşayış sahəsi axtarışında ayrı-seçkilik halları ilə üzləşdiklərini söyləmişlər (3, s.19). Bu agentlik tərəfindən 2020-ci ildə keçirilən reprezentativ sorğuya əsasən, son on ildə mənzil axtaran immiqrantlardan üçdə biri irqi ayrı-seçkiliyə məruz qaldıqlarını bildirmişlər (13, s.69).

*Kütləvi informasiya vasitələri sahəsi*

KİV sahəsi islamofobiyanın təzahür etdiyi əsas sahələrdən biri kimi, ölkənin ictimai rəyində müsəlmanlarla, islamla bağlı neqativ, qərəzli ideyaların, onlara münasibətdə alçaldıcı, təhqiramiz fikirlərin yayılmasında aparıcı rol oynayır. Qərb ölkələrinin KİV-lərində islamofobiyanın yayılmasını tədqiq edən qətərli jurnalist Kərim Əli Mejrinin qeyd etdiyi kimi, Qərb mediası İslam və müsəlmanlarla bağlı yanlış məlumatlarla Qərb ictimai rəyini qidalandıran yeganə mənbəyə çevrilmişdir (10, p.140). Qərb ölkələrinin oflayn və onlayn KİV-lərində müsəlmanlar, İslam haqqında qərəzli, yalan, böhtan məlumat yayılır. Eyni zamanda KİV-lərdə ölkədə müsəlmanlara, məscidlərə edilən hücumlar obyektiv şəkildə işıqlandırılmır.

Qərb KİV-lərində İslam və müsəlmanlarla bağlı yalan məlumatların yayılması ilə yanaşı, ikilistandartlığa da yol verilir. Məsələn, KİV-lərdə müsəlmanların iştirakı ilə baş verən cinayətlərdə onların iştirakı ilə baş verməyən cinayətlərdən fərqli olaraq cinayətin məhz İslam dininə mənsub olanlar tərəfindən törədildiyinə xüsusi fikir verilir. Bu, müsəlmanlarla rastlaşmayan KIV dinləyicilərində müsəlmanlar haqqında, onların dinləri haqqında mənfi fikirlərin yaranmasına səbəb olur. Və yaxud, cəmiyyətdə müsəlmanlar tərəfindən törədilən cinayət terror aktı kimi qələmə verildiyi halda, eyni cinayət qeyri-müsəlmanlar tərəfindən törədildikdə adi cinayət kimi təqdim olunur.

Almaniya hökumətinin müsəlmanlara münasibətdə apardığı ayrı-seçkilik siyasəti və bu siyasətin qeyd olunan təzahürləri müsəlmanların yaşadıqları cəmiyyətə inteqrasiya olunmalarına ciddi maneə yaradır. Üzləşdikləri ayrı-seçkilikdən məyus olan müsəlman immiqrantlar öz icmalarına qapanırlar. Belə bir şəraitdə müsəlman immiqrantların əksəriyyəti yaşadıqları cəmiyyətə inteqrasiya olunmağa səy göstərmir. Konkret olaraq onlar alman dilini öyrənməyə həvəs göstərmirlər, ölkə qanunlarının, demokratik dəyərlərin riayət olunmasına laqeyd yanaşırlar. Halbuki alman dilini öyrənmək immiqrantlar üçün məcburidir. Ölkə qanunları isə ölkənin bütün sakinlərinə şamil edilir. Bu qrupa daxil olan müsəlman immiqrantların yaşadıqları cəmiyyətə inteqrasiya olunmaq istəməmələri paralel həyatın yaranması ilə nəticələnir. Paralel həyatın yaranması isə ölkədə islamofob əhval-ruhiyyənin qalxmasına gətirib çıxarır.

**İslamofobiyanın Almaniyanın xarici siyasətində təzahürü**

İslamofobiyanın Almaniyanın daxili siyasətində geniş yer alması, ölkədə yaşayan müsəlmanların siyasət, təhsil, əmək bazarı və məşğulluq, mənzil bazarı, eləcə də KİV sahələrində üzləşdikləri dözümsüzlük, ayrı-seçkilik halları islamofobiyanın bu ölkənin xarici siyasətində də əks olunmasına səbəb olur. Ümumiyyətlə, Almaniya ilə yanaşı, digər Qərb dövlətlərinin xarici siyasətində aparıcı istiqamətlərdən biri kimi, islamofobiyanın yayılması müşahidə olunur. Bu, demək olar ki, bir növ qanunauyğunluqdur. Daha konkret desək, bu, daxili siyasətin xarici siyasətə münasibətdə müəyyənedici rol oynaması qanunauyğunluğundan irəli gəlir. Bu qanunauyğunluğa əsasən, Almaniyanın daxili siyasətində islama, müsəlmanlara münasibətdə qərəzli, qeyri-obyektiv münasibətin göstərilməsi ölkənin xarici siyasətində müsəlman ölkələrinə eyni münasibətin göstərilməsinə gətirir. Bunun təsdiqi kimi, Almaniyanın, bir çox Qərb dövlətləri kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizə münasibətdə qərəzli, qeyri-obyektiv, ikili

standartlara əsaslanan, daha konkret desək, erməniпərəst mövqe tutmasını göstərmək olar. Bu mövqe özünü münaqişənin 3 dövründə açıq şəkildə göstərmişdir:

Birincisi, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 28 il davam edən işğal dövründə;

İkincisi, 44 günlük Vətən müharibəsi və 19 sentyabr 2023-cü il tarixli antiterror əməliyyatı zamanı Azərbaycanın öz torpaqlarını azad etdiyi dövrdə;

Üçüncüsü, işğaldan sonrakı dövrdə də göstərir.

28 il davam edən işğal dövründə Almaniya Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsini tələb edən beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş sənədlərə səs verməsinə baxmayaraq, bu sənədlərdə əks olunan tələblərin həyata keçirilməsi istiqamətində əməli iş görməmişdir.

44 günlük Vətən müharibəsi və 19 sentyabr 2023-cü il tarixli antiterror əməliyyatı zamanı Almaniya digər Qərb dövlətləri kimi, Azərbaycanın erməni işğalçılarına qarşı apardığı hərbi əməliyyatın beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olduğuna baxmayaraq, ölkəmizi bu ədalətli mübarizədən çəkindirməyə çalışırdı.

44 günlük Vətən müharibəsi və 19 sentyabr 2023-cü il tarixli antiterror əməliyyatı nəticəsində Azərbaycanın tarixi ərazilərinin erməni işğalından azad olunmasına, ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpa olunmasına əksər dövlətlər müsbət yanaşdılar. Çünki Azərbaycanın apardığı müharibə beynəlxalq hüquqa və sosial ədalətə uyğun gəlirdi. Lakin Almaniya bir çox Qərb dövlətləri kimi, Azərbaycana münasibətdə ədalətsiz, qeyri-obyektiv, erməniпərəst mövqeyini saxlamaqda davam edirdi. Bu, özünü Almaniyanın dövlət və hökumət rəsmilərinin çıxışlarında və əməllərində göstərirdi. Məsələn, 2023-cü il noyabrın əvvəllərində Almaniyanın xarici işlər naziri Annalena Berbok Ermənistanda, sonra isə ölkəmizdə rəsmi səfərdə olmuşdur. Səfər zamanı o, İrəvanda olarkən Qarabağı könüllü şəkildə tərk etmiş erməniləri qaçqın adlandıraraq onlarla görüşmüşdür. Ölkəmizdə isə Ermənistandan və Qarabağdan zorla qovulmuş azərbaycanlılarla görüşmədiyi halda, “Real” Televiziyasının müxbirinə yalandan demişdir ki, guya onlarla da görüşmüşdür (2). Bundan başqa, 4 noyabrda Bakıda keçirilən mətbuat konfransında xanım Annalena Berbok beynəlxalq qanunlara zidd olaraq ölkəmizin məkan adlarını erməni variantında səsləndirmiş və 19 sentyabr 2023-cü il tarixində Azərbaycanın həyata keçirdiyi antiterror əməliyyatına bəraət qazandırmamışdır. Bununla o, Almaniyanın xarici işlər naziri kimi, təmsil etdiyi dövlətin erməniпərəst mövqeyini açıq şəkildə təqdim etmişdir.

**Nəticə / Conclusion**

Beləliklə, müasir dövrdə dözümsüzlüyün, ksenofobiyanın və ayrı-seçkiliyin geniş yayılmış formalarından biri olan islamofobiya özünü Almaniyanın daxili və xarici siyasətində göstərir. İslamofobiya Almaniyada özünü ilk növbədə ölkənin daxilində büruzə verir.

Böyük əksəriyyətini müsəlmanlar təşkil edən kütləvi miqrasiya nəticəsində bir çox Qərb ölkələrində olduğu kimi Almaniyada da yayılan islamofobiya bu dövlətin daxili siyasətində yer almışdır. İslamofobiyanın daxili siyasətdəki əsas təzahürlərindən biri hökumətin inteqrasiya siyasətinin müsəlman immiqrantlara münasibətdə ayrı-seçkiliyə əsaslanması ilə bağlıdır. Bu siyasət müsəlman immiqrantları bir çox vətəndaş hüquqlarından məhrum edərək onların sosial vəziyyətini acınacaqlı edir. Nəticədə müsəlmanların əksəriyyəti siyasət, təhsil, əmək bazarı və məşğulluq, mənzil bazarı, eləcə də KİV kimi sahələrdə dözümsüzlük, ayrı-seçkilik halları ilə üzləşirlər.

İslamofobiyanın Almaniyada dövlətin daxili siyasətində geniş yer alması onun xarici siyasətdə də əks olunmasını zəruri edir. Bu, daxili siyasətin xarici siyasətə münasibətdə müəyyənedici rol oynaması qanunauyğunluğundan irəli gəlir. Almaniyanın xarici siyasətinin mühüm istiqamətlərindən biri olan islamofobiya beynəlxalq münasibətlər sistemində bu ölkənin müsəlman ölkələrinə münasibətdə qərəzli, qeyri-obyektiv münasibət göstərməsinə səbəb olur.

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə” mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciəti. 08 mart 2024. https://president.az/az/articles/view/65229

2. Almaniyanın xarici işlər naziri Bakıda yalan bəyanat verdi. AzərTac, 04.11.2023. https://azertag.az/xeber/almaniyanin_xarici_isler_naziri_bakida_yalan_beyanat_verdi-2814775

3. Benachteiligungserfahrungen von Personen mit und ohne Migrationshintergrund im Ost-WestVergleich. Expertise für die Antidiskriminierungsstelle des Bundes. Berlin, 2012, 62 p. [Elektron resurs] // https://www.antidiskriminierungsstelle.de/SharedDocs/downloads/DE/publikationen/Expertisen/expertise_benachteiligungserfahrungen_migrant_innen_ost_west_vergleich.pdf?__blob=publicationFile&v=3

4. Christian Wulffs Rede im Wortlaut//Bild, 23.12.2010. [Elektron resurs] // https://www.bild-.de/politik/2010/tag-der-deutschen-einheit/seine-rede-im-wortlaut-14175828.bild.html

5. Connolly K. “Angela Merkel declares death of German multiculturalism”.// The Guardian, Sunday 17 October 2010. [Elektron resurs] // https://www.bbc.com/news/world-europe-11559451?zephr-modal-register

6. Diskriminierung im Bildungsbereich und im Arbeitsleben. 449 p. [Elektron resurs] //https://www.antidiskriminierungsstelle.de/SharedDocs/downloads/DE/publikationen/BT_Bericht/gemeinsamer_bericht_zweiter_2013.pdf?__blob=publicationFile&v=7stelle

7. Global Trends Report 2021. “Global Forced Displacement”. p.12. https://www.unhcr.-org/62a9d1494/global-trends-report-2021

8. Heitmeyer, W. Deutsche Zustände 10. Bielefeld, 2011; Zick, A., B. Küpper, and A. Hövermann. Die Abwertung der Anderen. Berlin, 2011.

9. Hernández Aguilar L. M. Dominant Islamophobic Narratives – Germany. Counter Islamophobia Kit Project. // Working Paper Number 2, July 2017, 46p.

10. Karim Ali Mejri. “Confronting and containing the phenomenon of İslamophobia in the media and public space”// Proceedings of the Conference titled: “Islamophobia as a specific form of racism and discrimination: New global and transnational challenges.” Baku, March 15-16, 2023. p.140.

11. Кондратьева Т.С., Новожёнова И.С. Иммигранты в Европе: Модели интеграции // Актуальные проблемы современной Европы. Иммигранты Европы: проблемы социальной и культурной адаптации: сб. науч. тр. / Под ред. Т.Г. Парахлиной, Т.С. Кондратьевой, И.С. Новожёновой. М., 2006. № 1, с.9-59

https://cyberleninka.ru/article/n/immigranty-v-evrope-modeli-integratsii/viewer

12. Kramer K. Legal Recognition. // Deuthsche Welle. 06.18.2013. https://www.-dw.com/en/muslims-in-germany-have-rights-and-obligations/a-16888992

13. LAGEBERICHT. “Rassismus in Deutschland. Ausgangslage, Handlungsfelder, Maßnahmen”. Berlin, 2023. https://www.integrationsbeauftragte.de/resource/blob/1864320/2157012-/77c8d1dddeea760bc13dbd87ee9a415f/lagebericht-rassismus-komplett-data.pdf?download=1 s.61.

14. Pfündel K. and others. Executive Summary of the study "Muslim Life in Germany 2020.” Study commissioned by the German Islam Conference. [Elektron resurs]// www.bamf.de/Shared-Docs/Anlagen/EN/Forschung/Forschungsberichte/Kurzberichte/fb38-muslimisches-leben-kurzfassung.pdf?__blob=publicationFile&v=14

**Rəyçi: s.e.d., prof. Elman Nəsirov**

**UOT-32**
https://doi.org/10.30546/ifs.2024.2(43).026

## SİYASİ LEGİTİMLİK BÖHRANINA QARŞI TƏDBİRLƏR: BEYNƏLXALQ TƏCRÜBƏNİN TƏHLİLİ

**Tural Ələkbərov**
Doktorant, Gəncə Dövlət Universiteti, **Azərbaycan**
e-mail: turalekbarov@gmail.com
https://orcid.org - 0009-0002-7524-3886

**Xülasə**. Bu məqalə siyasi nəzəriyyələrdə legitimlik anlayışını araşdıraraq, müxtəlif ölkələrin təcrübələrinə əsaslanan müqayisəli təhlil təqdim edir. Legitimlik hər hansı bir dövlətin xalq tərəfindən qanuni və doğru qəbul edilməsini ifadə edir və bu anlayışın əhəmiyyəti siyasi sabitliyin və idarəetmə qabiliyyətinin qorunması baxımından böyükdür. Məqalədə müxtəlif ölkələrdə legitimlik böhranlarının səbəbləri və həll yolları nəzərdən keçirilir. Bu çərçivədə korrupsiya, şəffaflıq, hesabatlılıq, sosial bərabərlik, o cümlədən dini, siyasi və mədəni amillərin təsiri xüsusi vurğulanır. Skandinaviya ölkələri, Çexiya, Polşa, Sinqapur və Honq Konq kimi nümunələr vasitəsilə antikorrupsiya tədbirləri, sosial proqramlar, iqtisadi və mədəni islahatların legitimlik üzərindəki təsiri müzakirə edilir. Məqalənin “Nəticə” hissəsində effektiv islahatlar və demokratik prinsiplərin qorunmasının legitimlik böhranlarının qarşısını almaqda əsas rol oynadığı qənaəti yer alıb.

**Açar sözlər***:* Siyasi legitimlik, böhran, sistem, beynəlxalq təcrübə, təhlil.

## МЕРЫ ПО ПРЕОДОЛЕНИЮ КРИЗИСА ПОЛИТИЧЕСКОЙ ЛЕГИТИМНОСТИ: АНАЛИЗ МЕЖДУНАРОДНОГО ОПЫТА

**Турал Алекперов**

**Резюме.** Легитимность означает, что любое государство воспринимается народом как согласие с государственной властью, его добровольное признание за ней права принимать обязательные решения. В данной статье рассматривается понятие легитимности в политических теориях и представлен сравнительный анализ, основанный на опыте разных стран. Влияние антикоррупционных мер, социальных программ и экономических реформ на легитимность обсуждается на примере скандинавских стран, Чехии, Польши, Сингапура и Гонконга. В заключении статьи делается вывод, что эффективные реформы и защита демократических принципов играют ключевую роль в предотвращении кризисов легитимности.

**Ключевые слова:** политическая легитимность, кризис, система, международный опыт, анализ

## THE MEASURES AGAINST THE CRISIS OF POLITICAL LEGITIMACY: THE ANALYSIS OF INTERNATIONAL EXPERIENCE

**Tural Alakbarov**

**Abstract.** This article examines the concept of legitimacy in political theories and presents a comparative analysis based on the experiences of different countries. Legitimacy means that any state is accepted as legal and correct by the people, and the importance of this concept is great in terms of maintaining political stability and management ability. The article studies the causes and solutions to crises of legitimacy in different countries. In this framework, the influence of factors such as

corruption, transparency, accountability and social equality has been specially emphasized. The effects of anti-corruption measures, social programs and economic reforms on legitimacy are discussed through the examples of Scandinavian countries, the Czech Republic, Poland, Singapore and Hong Kong.In the conclusion of the article, it has been stated that effective reforms and protection of democratic principles play a key role in preventing crises of legitimacy.

**Keywords:** Political legitimacy, crisis, system, international experience, analysis.

**Giriş**

Siyasi legitimlik hər hansı bir dövlətin öz xalqı tərəfindən qanuni və doğru qəbul edilməsini ifadə edir. Legitimliyin böhranı isə hökumətin xalqın dəstəyini itirməsi və idarəetmə qabiliyyətinin zədələnməsi ilə nəticələnir. Legitimlik bir dövlətin siyasi sabitliyi və idarəetmə qabiliyyəti üçün əhəmiyyətlidir. Bununla belə, legitimlik bəzən müxtəlif səbəblərdən böhranla üzləşə bilər. Məsələn, korrupsiya dövlət vəzifələrinin şəxsi mənfəət üçün sui-istifadəsi olaraq, legitimliyi sarsıdan əsas amillərdən biridir. Korrupsiya halları şəffaflıq və hesabatlılıq prinsiplərinin pozulmasına səbəb olur, bu da hökumətə olan etimadı zədələyir. Məsələn, Venesuelada hökumət rəsmilərinin korrupsiya ittihamları və iqtisadi çöküş legitimlik böhranını dərinləşdirib [8].

Başqa sözlə, siyasi sistemlər korrupsiyalaşmış, səmərəsiz və ya ictimai ehtiyaclara cavab verməyən kimi qəbul edildikdə legitimlik böhranı ilə üzləşə bilər. Bura dövlət idarəçiliyində uğursuzluqlar, şəffaflığın olmaması və siyasi qərarların ümumi əhali üzərində elitanın üstünlük təşkil etdiyi hallar daxildir. Məsələn, Qvatemalada səmərəsiz dövlət xidmətləri ilə birləşən aşağı vergi gəlirləri bu cür siyasi səhv idarəçiliyi göstərir və legitimlik böhranına səbəb olur [15].

Bununla yanaşı, ədalətsiz və qeyri-şəffaf seçkilər də legitimliyin itirilməsinə səbəb ola bilər. Seçki saxtakarlığı xalqın seçki prosesinə olan inamını azaldır və hökumətin qanuni olaraq qəbul edilməməsinə gətirib çıxarır. Misal olaraq, 2020-ci ildə Belarusda keçirilmiş prezident seçkilərindəki saxtakarlıq iddiaları geniş etirazlara və hökumətin legitimliyinin sual altına alınmasına səbəb olmuşdur [10].

Həmçinin insan hüquqlarının pozulması və azadlıqların məhdudlaşdırılması, hökumətin legitimliyinə ciddi zərbə vurur. Avtoritar rejimlərdə bu hallar daha çox müşahidə olunur. Məsələn, Myanmada hərbi xuntanın insan hüquqlarını pozması və demokratik seçkiləri ləğv etməsi nəticəsində legitimlik böhranı yaşanmışdır [14].

Legitimlik böhranı o zaman baş verir ki, qurumlar idarəçilik üçün qanuni səlahiyyətlərini saxlasalar belə insanların inzibati institutlara olan inamı əhəmiyyətli dərəcədə azalır. Bu termini ilk dəfə alman sosioloqu və filosofu Yurgen Habermas 1973-cü ildə yazdığı “Legitimlik böhranı” kitabında təqdim etmişdir [6]. Habermas iddia edir ki, kapitalist cəmiyyətlər iqtisadi böhranlar, rasionallıq böhranları və motivasiya böhranları da daxil olmaqla, bir neçə növ böhrana meyillidir və bunların hamısı legitimlik böhranına səbəb ola bilər. O, müəyyən edir ki, legitimlik böhranları idarəedici strukturlar öz funksiyalarının qurulduqları rolları yerinə yetirdiyini nümayiş etdirə bilmədikdə yaranır. Bu uğursuzluq həmin strukturların öz formal səlahiyyətlərini saxlamasına baxmayaraq baş verə bilər. Əsasən, insanlar institutların effektiv və ictimai dəyərlərə və normalara uyğun idarə etmək qabiliyyətinə inamını itirirlər.

Legitimlik böhranlarının yaranmasının qarşısının alınması istiqamətindəki tədbirlərin effektivliyi baxımından Skandinaviya ölkələrinin təcrübəsi bütün dünyada məşhurdur. Skandinaviya ölkələri sosial bərabərlik və rifah dövlətləri qurmaqla tanınır. Bu ölkələrdə sosial bərabərliyin artırılması məqsədilə geniş sosial proqramlar və iqtisadi islahatlar həyata keçirilmişdir. Skandinaviya ölkələrində səhiyyə, təhsil və sosial müdafiə sahələrində geniş proqramlar mövcuddur. Bu proqramlar, vətəndaşların rifahını təmin edir və sosial bərabərliyi gücləndirir. Məsələn, İsveçdə bütün vətəndaşlar üçün pulsuz səhiyyə və təhsil xidmətləri mövcuddur. Skandinaviya ölkələrində proqressiv vergi sistemi tətbiq olunur ki, bu da yüksək gəlirli şəxslərin daha yüksək vergi ödəməsini təmin edir. Bu sistem, gəlir bərabərsizliyini azaldır və sosial bərabərliyi gücləndirir. Skandinaviya ölkələrində işçi hüquqları yüksək səviyyədə qorunur. İşsizlik sığortası, analıq və atalıq məzuniyyətləri kimi sosial təminatlar işçilərin rifahını təmin edir və sosial bərabərliyi artırır. Bu tədbirlər hökumətin legitimliyini gücləndirir və vətəndaşların dövlətə olan etimadını artırır [4, s.237].

Skandinaviya ölkələri korrupsiyaya qarşı mübarizədə nümunəvi ölkələr kimi tanınır. Bu ölkələrdə hökumət fəaliyyəti şəffaf şəkildə həyata keçirilir və dövlət vəzifəlilərinin fəaliyyətləri ictimai nəzarətdə saxlanılır. Korrupsiyaya qarşı mübarizə məqsədilə güclü qanunvericilik tədbirləri və nəzarət mexanizmləri tətbiq olunur. Bu ölkələrdə informasiya azadlığı qanunları mövcuddur ki, bu da vətəndaşlara hökumətin fəaliyyətləri barədə məlumat əldə etmək imkanı verir. İsveçdə 1766-cı ildən bəri informasiya azadlığı qanunu mövcuddur və bu, dünyada ilk belə qanundur. Bu qanunlar şəffaflığı artıraraq hökumətə olan etimadı gücləndirir.

Skandinaviya ölkələrində korrupsiyaya qarşı mübarizə, sadəcə, hüquqi tədbirlər deyil, həm də dərin mədəni aspektlər üzərində qurulub. Bu cəmiyyətlərdə şəffaflıq və hesabatlılıq mədəni normaya çevrilib. İnsanlar dövlət vəzifəlilərindən şəffaflığı gözləyir və cəmiyyətin bütün təbəqələri hökumətə güvənir. Bu güvən hissi dövlətə nəzarət edən müstəqil qurumların rolu ilə daha da gücləndirilir. Vətəndaşların hökumətin fəaliyyətlərinə dair məlumatlara asan çıxış imkanı olması, legitimliyin əsasını təşkil edən sosial müqaviləni gücləndirir.

Skandinaviya ölkələrində dövlət vəzifəliləri fəaliyyətləri barədə müntəzəm olaraq hesabat verir və onların fəaliyyətləri müstəqil nəzarət orqanları tərəfindən yoxlanılır. Bu mexanizmlər hökumətin fəaliyyəti üzərində effektiv nəzarət qurulmasına və qanun pozuntularının qarşısının alınmasına kömək edir. Parlamentlər də hökumətin fəaliyyətini nəzarətdə saxlayan əsas qurumlardandır. İsveç parlamenti (Riksdag), hökumətin hər bir fəaliyyətini nəzarətdə saxlayır və zəruri hallarda müvafiq tədbirlər görür. Bu, hökumətin xalqın maraqlarına uyğun fəaliyyət göstərməsini təmin edir və legitimliyi gücləndirir [12, s.354-363].

Belə bir mühitdə hökumət yalnız iqtisadi və siyasi məqsədlərə nail olmaq üçün deyil, həm də cəmiyyətin maraqlarını və hüquqlarını qorumaq üçün legitimlik qurur. Skandinaviya ölkələrində legitimlik hökumətin fəaliyyətində davamlı islahatlar və təkmilləşdirmələr vasitəsilə xalqın maraqlarının qorunmasına yönəlib. Korrupsiyaya qarşı mübarizə, dövlət vəzifəlilərinin fəaliyyətlərinin ictimai nəzarətdə saxlanılması, eləcə də güclü qanunvericilik bazası hökumətin legitimliyini dəstəkləyir. Skandinaviya ölkələrində siyasi legitimliyin qurulması yolunda həyata keçirilən tədbirlərin və qəbul edilən qanunların rolu böyükdür və siyasi hakimiyyətin legitimlik böhranı ilə üzləşməməsinin əsas səbələrindən biridir.

Çexiya və Polşa kimi ölkələrdə vətəndaş cəmiyyəti təşkilatları, hökumətin fəaliyyətlərini nəzarətdə saxlayaraq şəffaflığın və hesabatlılığın təmin olunmasına kömək edir. Bu təşkilatlar hökumətin fəaliyyətləri barədə məlumat yayır və ictimai nəzarəti artırır. Polşada “Hesabatlılıq Fondu” (*Fundacja Odpowiedzialność*) və Çexiyada “Antikorrupsiya Fondu” (*Nadace proti korupci*) kimi təşkilatlar hökumətin şəffaflığı və hesabatlılığı təmin etməsində mühüm rol oynayır. Bu təşkilatlar korrupsiyaya qarşı mübarizə aparır və vətəndaşların hüquqlarını müdafiə edir.

Çexiya və Polşa kimi ölkələrdə vətəndaş maarifləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. Bu ölkələrdə vətəndaşlara korrupsiya, şəffaflıq və hesabatlılıq mövzusunda məlumat verən maarifləndirmə kampaniyaları həyata keçirilir. Bu kampaniyalar, vətəndaşların hökumətin fəaliyyətlərinə daha çox maraq göstərməsinə və ictimai nəzarətin artırılmasına kömək edir. Məktəblərdə və universitetlərdə korrupsiya və şəffaflıq mövzularında tədris proqramları tətbiq olunur. Bu proqramlar gənc nəsillərin bu mövzularda məlumatlı olmasını təmin edir və gələcəkdə şəffaf və ədalətli idarəetmə üçün zəmin yaradır.

Demokratik islahatlar legitimlik böhranlarının həlli üçün vacib vasitələrdir. Şəffaflıq və hesabatlılıq prinsipinin təmin edilməsi korrupsiyanın qarşısının alınması və vətəndaş cəmiyyətinin gücləndirilməsi hökumətə olan etimadı bərpa edir və legitimliyi gücləndirir. Skandinaviya ölkələri, Çexiya və Polşa kimi ölkələrin təcrübələri göstərir ki, bu islahatlar hökumətlərin legitimliyini gücləndirmək üçün təsirli vasitələrdir. Bu ölkələrin təcrübələrindən öyrənərək digər dövlətlər də legitimlik böhranlarının qarşısını almaq və idarəetmə qabiliyyətini gücləndirmək üçün demokratik islahatlar həyata keçirə bilərlər [5].

Burada seçkilərin də çox böyük əhəmiyyəti var. Məsələn, Hindistanın Mərkəzi Seçki Komissiyası dünyanın ən böyük demokratiyalarından birində seçki proseslərini müstəqil və şəffaf şəkildə idarə edir. Komissiya hökumətin və digər siyasi partiyaların təsirindən tamamilə azad olaraq fəaliyyət göstərir. Bu müstəqillik seçkilərin ədalətli və şəffaf keçməsini təmin edir. Mərkəzi Seçki

Komissiyası seçki siyahılarının hazırlanması, səsvermə mərkəzlərinin qurulması və səsvermə prosesinin idarə edilməsi kimi bütün mərhələlərin hamısında aktiv rol oynayır. Bu proseslərdə şəffaflıq və dəqiqlik təmin edildikcə vətəndaşların seçki prosesinə olan etimadı da artır [13]. Komissiyanın hökumətin təsirindən azad olması, seçki siyahılarının dəqiq hazırlanması və səsvermənin şəffaf şəkildə idarə edilməsi Hindistanda legitimliyin qorunmasına kömək edir. Vətəndaşların seçki prosesinə etibarının artması demokratiyanın davamlılığını təmin edən əsas elementlərdən biridir. Bu, hökumətin xalqın iradəsinə uyğun fəaliyyət göstərməsini dəstəkləyir.

İngiltərədə Seçki Komissiyası müstəqil qurum olaraq seçki proseslərini idarə edir və şəffaflığı təmin edir. Komissiya seçki siyahılarının yenilənməsi, seçki məntəqələrinin təyin edilməsi və səsvermə prosesinin nəzarətini həyata keçirir. Almaniyada da seçki prosesləri müstəqil komissiyalar tərəfindən idarə olunur. Bu komissiyalar seçkilərin ədalətli və şəffaf keçməsini təmin edir və seçki nəticələrinin qanuniliyini qoruyur. Müstəqil seçki komissiyalarının fəaliyyəti demokratik prinsiplərin qorunması üçün vacibdir [7].

Gürcüstanda keçirilən seçkilərdə beynəlxalq müşahidəçilərin iştirakı seçkilərin ədalətliliyini və şəffaflığını təmin etməkdə mühüm rol oynayır. Beynəlxalq təşkilatlar, seçki prosesinin müxtəlif mərhələlərində müşahidələr aparır və seçki qaydalarına riayət olunmasını nəzarətdə saxlayır. Beynəlxalq müşahidəçilərin iştirakı vətəndaşların seçki prosesinə olan etimadını artırır və seçkilərin qanuniliyini təmin edir. Gürcüstan təcrübəsi göstərir ki, beynəlxalq müşahidəçilərin iştirakı seçki nəticələrinin daha geniş auditoriya tərəfindən qəbul edilməsinə və legitimliyin güclənməsinə kömək edir.

Ukraynada keçirilən seçkilərdə beynəlxalq müşahidəçilərin iştirakı seçkilərin ədalətli və şəffaf keçməsini təmin etmək üçün vacibdir. Beynəlxalq müşahidəçilər seçki kampaniyalarının gedişatı, səsvermə prosesi və səs sayımı kimi müxtəlif mərhələləri nəzarətdə saxlayır. Beynəlxalq müşahidəçilərin hazırladığı hesabatlar seçki prosesinin ədalətliliyini və şəffaflığını qiymətləndirməyə imkan verir. Bu hesabatlar seçki prosesindəki nöqsanları və pozuntuları müəyyən edərək, gələcək seçkilərin daha ədalətli və şəffaf keçirilməsi üçün təkliflər irəli sürür.

Müstəqil seçki komissiyaları və beynəlxalq müşahidəçilərin iştirakı vətəndaşların seçki prosesinə olan etimadını artırır. Bu, vətəndaşların seçkilərdə fəal iştirakını təmin edir və demokratik proseslərin güclənməsinə kömək edir. Ədalətli seçki sistemləri siyasi sabitliyi təmin edir və seçki nəticələrinin qəbul olunmasını asanlaşdırır. Bu, hökumətlərin legitimliyini gücləndirir və siyasi qeyri-sabitlik riskini azaldır.

Müstəqil seçki komissiyaları və beynəlxalq müşahidəçilər seçki proseslərinin şəffaf və hesabatlı olmasını təmin edir. Bu, seçki saxtakarlığının qarşısını alır və seçkilərin qanuniliyini təmin edir. Seçki proseslərinin şəffaflığı və hesabatlılığı hökumətlərin və siyasi partiyaların seçki nəticələrinə hörmət etməsini təmin edir və demokratik prinsipləri qoruyur. Ədalətli seçki sistemləri siyasi legitimliyin təmin edilməsində və qorunmasında mühüm rol oynayır. Müstəqil seçki komissiyaları və beynəlxalq müşahidəçilər seçki proseslərinin şəffaf və ədalətli keçməsini təmin edərək, vətəndaşların hökumətə olan etimadını gücləndirir. Hindistan, Gürcüstan və Ukrayna təcrübələri göstərir ki, müstəqil və ədalətli seçki sistemləri legitimlik böhranlarının qarşısını almaqda və demokratik prinsipləri qorumaqda təsirli vasitələrdir.

Bununla yanaşı, antikorrupsiya tədbirləri də bir müdafiə mexanizmi kimi mühüm əhəmiyyət kəsb edir. Sinqapurda korrupsiyaya qarşı mübarizə məqsədilə sərt qanunvericilik tədbirləri həyata keçirilmişdir. 1960-cı illərdən bəri Sinqapur hökuməti korrupsiyanın qarşısını almaq üçün Anti-Korrupsiya Təftiş Bürosunu (*Corrupt Practices Investigation Bureau - CPIB*) qurmuş və bu qurum yüksək səviyyədə müstəqil fəaliyyət göstərir. Sinqapurda dövlət vəzifəlilərinin fəaliyyətləri şəffaflıq və hesabatlılıq prinsipləri əsasında nəzarət altındadır. Korrupsiya ittihamları dərhal araşdırılır və qanun pozuntuları ciddi şəkildə cəzalandırılır. Bu tədbirlər, hökumətin legitimliyini gücləndirir və vətəndaşların dövlətə olan etimadını artırır [1].

Honq Konqda Müstəqil Antikorrupsiya Komissiyası (*Independent Commission Against Corruption - ICAC*) 1974-cü ildə qurulmuşdur. Bu komissiya korrupsiya ilə mübarizə aparmaq üçün geniş səlahiyyətlərə malikdir və yüksək səviyyədə müstəqillik təmin edir. ICAC korrupsiyaya qarşı maarifləndirmə kampaniyaları həyata keçirir və cəmiyyətin bütün təbəqələrində korrupsiya ilə

mübarizə mövzusunda təhsil proqramları təşkil edir. Bu tədbirlər korrupsiyanın qarşısını almaq və iqtisadi şəffaflığı artırmaq üçün vacibdir [3].

Antikorrupsiya tədbirləri və sosial bərabərliyin artırılması, vətəndaşların hökumətə olan etimadını gücləndirir. Bu, hökumətin fəaliyyətlərinin şəffaf və ədalətli olduğunu göstərir və legitimliyi gücləndirir. İqtisadi islahatlar siyasi sabitliyi təmin edir və sosial gərginliklərin qarşısını alır. Sosial bərabərlik və korrupsiya ilə mübarizə tədbirləri, hökumətin qanuniliyini və qəbul edilməsini artırır. Korrupsiyanın azalması və sosial bərabərliyin təmin edilməsi iqtisadi mühitin yaxşılaşmasına və investisiyaların artmasına səbəb olur. Bu, iqtisadi inkişafı sürətləndirir və vətəndaşların rifahını artırır. Sosial bərabərlik və iqtisadi ədalət dayanıqlı inkişafın təmin edilməsində vacib rol oynayır. Bu tədbirlər iqtisadi resursların ədalətli bölüşdürülməsini və sosial sabitliyin qorunmasını təmin edir.

İqtisadi islahatlar siyasi legitimliyin gücləndirilməsində və legitimlik böhranlarının qarşısının alınmasında mühüm rol oynayır. Antikorrupsiya tədbirləri və sosial bərabərliyin təmin edilməsi vətəndaşların hökumətə olan etimadını artırır və siyasi sabitliyi gücləndirir. Sinqapur və Honq Konq kimi ölkələrin təcrübələri göstərir ki, iqtisadi islahatlar hökumətlərin legitimliyini gücləndirmək və iqtisadi inkişafı təmin etmək üçün təsirli vasitələrdir.

Çində isə dövlət siyasi legitimliyi qorumaq üçün repressiv tədbirlər, təbliğat və iqtisadi siyasətin birləşməsindən istifadə edir. Çin Kommunist Partiyası (ÇKP) Sincan və Tibet kimi bölgələrdə demokratiya tərəfdarı olan fəallara və etnik azlıqlara qarşı repressiyalarda göründüyü kimi, müxalifəti yatırmaq üçün güclü təhlükəsizlik aparatından istifadə edir. Bu repressiv yanaşma medianın hekayələrinə nəzarət edən və ÇKP-nin iqtisadi inkişafda və milli gəncləşmədə nailiyyətlərini təbliğ edən geniş təbliğat sistemi ilə tamamlanır.

İqtisadi siyasət isə öz növbəsində Çinin strategiyasının əsasını təşkil edir, hökumət yaşayış standartlarını yaxşılaşdırmaq və öz səlahiyyətlərini nümayiş etdirmək üçün infrastruktur layihələrinə və sosial proqramlara böyük sərmayə qoyur. Prezident Si Cinpin tərəfindən irəli sürülən "Çin arzusu" layihəsi milli qüruru və birliyi gücləndirir, ÇKP hakimiyyətini legitimləşdirməyə kömək edir. Bununla belə, Çinin geniş rəqəmsal monitorinq və sosial kredit sistemi ilə səciyyələnən nəzarət dövləti sabitliyə potensial təhlükələri qabaqlayıcı şəkildə idarə etməyi hədəfləyir [2].

Çinin iqtisadi siyasəti, infrastruktur və sosial proqramlara böyük sərmayələr yatırmaqla həm yaşayış standartlarını yaxşılaşdırmaq, həm də hökumətin gücünü nümayiş etdirmək məqsədinə xidmət edir. Prezident Si Cinpinin "Çin arzusu" layihəsi milli qüruru artıraraq ÇKP hakimiyyətinin legitimliyini möhkəmləndirir. Digər tərəfdən, rəqəmsal monitorinq və sosial kredit sistemi ilə dövlət, potensial təhlükələri qabaqlayıcı şəkildə idarə etməyə çalışır. Bu siyasətlər, sabitliyi qorumaq və hökumətə qarşı etimadı saxlamaq üçün istifadə olunur. Bütün bunlar nəzərə alınmaqla onu demək olar kı, həyata keçirilən tədbirlər və islahatlar dövlət hakimiyyətinin legitimlyində beynəlxalq təcrübədə qeyri-adi nümunənin ortaya çıxmasına səbəb olmuşdur.

Venesuelada korrupsiya ittihamları və iqtisadi çöküş ciddi bir legitimlik böhranı yaradıb. Xüsusilə ərzaq proqramları kimi layihələrin korrupsiya vasitəsilə idarə edilməsi hökumətə olan inamı sarsıdıb. Jurnalistlər bu korrupsiya skandallarını araşdırarkən təzyiqlərlə üzləşirlər, hətta bəziləri təhlükə səbəbindən ölkədən qaçmağa məcbur olur. Bu, yalnız medianın azadlığına zərbə vurmur, həm də ölkədə demokratik institutların zəiflədiyini göstərir, xalqın hökumətə olan güvənini itirir. Venesuela hökumətinin iqtisadi böhranların qarşısının almaqda acız qalaması onun həm siyasi, həmdə iqitisadi legitimlik böhranı ilə qarşı-qarşıya qoydu.

Venesuelada korrupsiya və iqtisadi çöküş ölkədə legitimlik böhranını dərinləşdirib. 2016-cı ildə prezident Nicolas Maduro tərəfindən yaradılan CLAP ərzaq proqramı ölkəni böhrandan çıxarmaq məqsədi daşısa da, jurnalist araşdırmaları göstərib ki, proqram çərçivəsində keyfiyyətsiz məhsullar alınıb və vəsaitlər korrupsiya ilə mənimsənilib. Bu, hökumətə qarşı etimadı daha da zəiflədib. Jurnalistlər bu skandalı ifşa edərkən ciddi təhlükələrlə üzləşiblər və bəziləri sürgünə məcbur olub. [8]

Yaponiyanın siyasi legitimliyi qorumağa yanaşması açıq repressiyalardan daha çox institusional islahatlara, ictimai iştiraka və simvolik hərəkətlərə diqqət yetirir. İkinci Dünya müharibəsindən sonrakı dövr Yaponiyada siyasi sabitliyi təmin etmək üçün güclü demokratik institutlar və möhkəm qanunvericilik bazası yaratdı. Hökumət vətəndaşların problemlərini həll etmək

və şəffaflığı qorumaq üçün tez-tez bələdiyyə iclasları və məsləhətləşmələr vasitəsilə ictimaiyyətlə əlaqə saxlayır.

Baş nazir Şinzo Abenin rəhbərliyi altında *Abenomics* kimi məşhur iqtisadi siyasət hökumətin iqtisadi rifaha sadiqliyini nümayiş etdirərək monetar yumşaltma, fiskal stimul və struktur islahatları vasitəsilə iqtisadiyyatı canlandırmaq məqsədi daşıyırdı. İmperatorun milli birliyin və mədəni davamlılığın təşviqində rolu kimi simvolik hərəkətlər legitimliyin qorunmasında mühüm rol oynayır. Yaponiyanın konsensusun yaradılmasına və əhalinin yaşlanması və gender bərabərliyi kimi sosial problemlərin həllinə vurğu etməsi demokratik kontekstdə onun siyasi legitimliyini qorumağa kömək edir [11].

Yaponiyada siyasi legitimliyin qorunması dini aspektlərdən də bəhrələnir. İmperator mədəni davamlılığı və milli birliyi simvolizə edərək, insanların dəyərləri və ənənələrini bir araya gətirir. Bu, cəmiyyətin birliyini təşviq edir və müasir problemlərə, məsələn, əhalinin yaşlanması və gender bərabərliyi kimi məsələlərə dini və mədəni kontekstdə yanaşma imkanı yaradır. Beləliklə, dini və mədəni elementlər demokratik proseslərin legitimliyini artıraraq Yaponiyanın siyasi stabilliyini gücləndirir.

Cənubi Koreya siyasi legitimliyi qorumaq üçün hüquqi islahatları, ictimai əlaqəni və beynəlxalq ittifaqları birləşdirir. Ölkənin hərbi diktaturadan canlı demokratiyaya keçidi şəffaflığın və hesabatlılığın təmin edilməsinə yönəlmiş mühüm hüquqi və institusional islahatları əhatə etmişdir. Cənubi Koreyada vətəndaşlar arasında siyasi fəallığın yüksək səviyyəsini əks etdirən kütləvi etirazlarda ictimaiyyətin iştirakı çox vacibdir. Məsələn, 2017-ci ildə prezident Park Geun-hye-nin impiçmentinə səbəb olan dinc etirazlar demokratik legitimliyin qorunmasında ictimaiyyətin cəlb edilməsinin effektivliyini nümayiş etdirdi. “Yaradıcı İqtisadiyyat” təşəbbüsü ilə irəli sürülən innovasiya və artıma yönəlmiş iqtisadi siyasətlər iqtisadi inkişafı və ictimai etimadı davam etdirmək məqsədi daşıyır. Cənubi Koreyanın, xüsusən də Birləşmiş Ştatlarla müttəfiqliyi onun beynəlxalq səhnədə legitimliyini gücləndirərək, xarici təsdiq və təhlükəsizlik zəmanətləri verir [9].

**Nəticə**

Nəticə olaraq qeyd edə bilərik ki, siyasi legitimlik böhranı kontekstində dövlətlər həm məcburedici, həm də inteqrativ strategiyalardan çıxış edərək sabitliyi və hakimiyyəti qorumaq üçün bir sıra müdafiə sistemlərindən istifadə edirlər. Polis və hərbi qüvvələrin yerləşdirilməsi kimi repressiv tədbirlər asayişi tez bir zamanda bərpa etmək məqsədi daşıyır, lakin ədalətsiz hesab olunarsa, ictimai narazılığı gücləndirmək riski daşıyır. Təbliğat və informasiya nəzarəti hökumətin mesajlarını gücləndirmək üçün ictimai rəyi formalaşdırır, müxalifəti yatırmaq üçün dövlət mediasından və senzuradan istifadə edir. Korrupsiyaya qarşı mübarizə təşəbbüsləri və məhkəmə düzəlişləri də daxil olmaqla, institusional islahatlar əsas şikayətləri həll etməyə və etimadı bərpa etməyə çalışır. İş yerlərinin yaradılması və sosial rifah vasitəsilə inklüzivliyi təşviq edən iqtisadi siyasətlər dövlətin vətəndaşların həyatını yaxşılaşdırmağa, iğtişaş ocaqlarını söndürməyə sadiqliyini nümayiş etdirir. Ko-optasiya nüfuzlu şəxsləri və qrupları güc strukturuna daxil edir, əsas maraqlı tərəfləri idarəetmə aparatının bir hissəsi etməklə, müxalifəti azaldır. Legitimləşdirici mesajlar milli təhlükəsizlik və ümumi dəyərlərə müraciət etmək vasitəsilə hökumətin hərəkətlərinə haqq qazandırır, legitim hakimiyyəti gücləndirir. Hüquqi repressiya və nəzarət təhdidləri preventiv addımlardır, qabaqlayıcı şəkildə təhlükəni neytrallaşdırır, lakin cəmiyyət tərəfindən həddini aşmış müdaxilə kimi hesab edilsə, əks reaksiyaya səbəb ola bilər. İttifaqlar və diplomatik tanınma vasitəsilə beynəlxalq dəstək daxili legitimliyi gücləndirərək xarici təsdiqi nümayiş etdirir. İctimai məşğulluq və simvolik aktlar vətəndaşlarla birbaşa qarşılıqlı əlaqə və ictimai rifah üçün icraedici öhdəliklər vasitəsilə inam yaradır. Fövqəladə hallara effektiv cavab tədbirlərini əhatə edən böhranın idarə edilməsi dövlətin öz vətəndaşlarını qorumaq və təmin etmək qabiliyyətini nümayiş etdirir. Nəhayət, bu müdafiə sistemlərinin uğuru müxtəlif beynəlxalq təcrübələrdə və tarixi presedentlərdə göründüyü kimi, nizam-intizamı qoruyarkən narazılığın əsas səbəblərini aradan qaldıraraq, effektiv islahatlar və inandırma (*persuasion*) ilə məcburiyyəti (*coercion*) balanslaşdırmaq qabiliyyətindən asılıdır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Anti-corruption policy. URL: https://www.mindef.gov.sg/web/portal/mindef/defence-matters/mindef-policies/mindef-policies-detail/anti-corruption-policy
2. Chai, W.; Chai, M. The Meaning of Xi Jinping's Chinese Dream. American Journal of Chinese Studies, Vol. 20, No. 2 (OCTOBER 2013), pp. 95-97.
3. Fighting Corruption — the Hong Kong way. URL: https://www.cb.cityu.edu.hk/Programmes/Taught-Masters-Programmes/Student-Stories/Fighting-Corruption-the-Hong-Kong-way
4. Frederiksen, M. Constraining institutions, committed employees: unpacking the procedural legitimacy of welfare institutions in Sweden and Denmark. European Societies, 2018, 20(2), 236–256.
5. Gherghina, S. Direct democracy and subjective regime legitimacy in Europe. Democratization, 2017, 24(4), 613–631.
6. Habermas, J. Legitimation Crisis. Cambridge: Polity Press, 1988. 166 pages.
7. Johnston, R.; Pattie, C. Do canvassing and campaigning work? Evidence from the 2001 general election in England. British Elections & Parties Review, 2003, 13(1), 248–273.
8. Keeley, G. Reporting on corruption in Venezuela carries high toll, journalists find. URL: https://www.voanews.com/a/reporting-on-corruption-in-venezuela-carries-high-toll-journalists-find/7609415.html
9. Kim, H.J. Political Legitimacy in South Korea. In: Kane, J., Loy, HC., Patapan, H. (eds) Political Legitimacy in Asia. Palgrave Series on Asian Governance. Palgrave Macmillan, New York. https://doi.org/10.1057/9781137001474_11
10. Krawatzek, F.; Sasse, G. Belarus protests: why people have been taking to the streets – new data. URL:https://theconversation.com/belarus-protests-why-people-have-been-taking-to-the-streets-new-data-154494
11. Nyblade, B. Political Legitimacy, Satisfaction, and Japanese Democracy. East Asian Perspectives on Political Legitimacy Bridging the Empirical-Normative Divide, pp. 218 - 237. DOI: https://doi.org/10.1017/9781316466896.010
12. Ronglan, L.T. Elite sport in Scandinavian welfare states: legitimacy under pressure? International Journal of Sport Policy and Politics, 2015, 7(3), 345–363.
13. Rutledge, J.G. The Indian Onion Crisis: Agricultural Pricing Policy and State Legitimacy. South Asia: Journal of South Asian Studies, 2020, 43(4), 658–674.
14. UN. Myanmar: Human rights situation worsens as military lashes out indiscriminately amid losses. URL: https://www.ohchr.org/en/press-releases/2024/01/myanmar-human-rights-situation-worsens-military-lashes-out-indiscriminately
15. US Mission OAS. OAS Condemns the Worsening Crisis in Guatemala. URL: https://usoas.usmission.gov/oas-condemns-the-worsening-crisis-in-guatemala/

**Rəyçi: f.f.d., dos. Zeynəddin Şabanov**

**UOT 32**
**https://doi.org/10.30546/ifs.2024.2(43).028**

# “BÖYÜK QAYIDIŞ” TİMSALINDA AZƏRBAYCANDA BƏRPA PROSESİNİN DİGƏR ÖLKƏ TƏCRÜBƏLƏRİNDƏN FƏRQLƏNMƏSİ

**Rauf Abbasov**
Doktorant, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, **Azərbaycan**
rauf-abbasov-2009@mail.ru
https://orcid.org 0009–0006–4553–8922

Sosial marketinq ünsiyyət formalarının yığılması birbaşa sosial marketinq mütəxəssislərinin hədəf auditoriyada və ya bütövlükdə cəmiyyətdə müəyyən bir sosial problemlə bağlı tapdıqları məlumatların ilkin təhlili ilə bağlıdır. Bu səbəbdən mövcud sosial problemlə bağlı formalaşmış sosial marketinq mesajının ötürülməsi üçün düzgün ünsiyyət formalarının seçilməsi çox vacibdir. Sosial marketinq proqramı üçün kommunikasiya planını qurarkən müxtəlif kommunikasiya formaları arasında əlaqə olmalıdır. Belə olduqda sosial marketinq prosesinin gedişi də hamar və hədəf auditoriya, cəmiyyətin bir hissəsi və sosial marketinq sahəsində çalışan təcrübəçilər üçün dəyərli olacaqdır.

**Müasir ünsiyyət nümunələrinin inteqrasiyası**

Sosial marketinq prosesində ünsiyyət mərhələsi müəyyən bir cəmiyyətdə mövcud sosial səbəbin düzgün həllinin müəyyənləşdirilməsi istiqamətində hər bir sosial marketinq təşəbbüsündə yüksək qiymətləndirilir. Ünsiyyət modeli cəmiyyətdə birləşdirici rolunu oynayır və onun müvafiq üzvləri üçün səmərəli mübadilə üçün əsas elementdir. Ünsiyyət nümunələri verbal və qeyri-verbal ünsiyyət, danışıq strategiyaları və münasibət dinamikası daxil olmaqla, insanların ünsiyyətdə iştirak etdiyi xarakterik üsullara istinad edir. Bu nümunələrə mədəni dəyərlər, sosial normalar və situasiya amilləri təsir edir və onlar şəxsiyyətlərarası qarşılıqlı əlaqələrin keyfiyyətini və nəticələrini formalaşdırır [1]. Bütün əlaqələrin müvafiq icma nümayəndələri üçün mümkün müsbət təsirləri var. Sosial qarşılıqlı əlaqənin komponentləri üzrə daha ətraflı təhlil 2017-ci ildə Qrey tərəfindən təqdim edilmiş və daha sonra 2022-ci ildə Hoppler, Segerer və Nikitin tərəfindən 6 qrupa bölünməklə təsnif edilmişdir. Aşağıda sosial qarşılıqlı əlaqənin altı bölməsinə ümumi baxış verilmişdir.

Sosial qarşılıqlı əlaqənin altı komponenti:

- Aktyor
- Tərəfdaş

- Münasibət
- Fəaliyyətlər
- Kontekst
- Qiymətləndirmə

**Mənbə:** Hoppler et al., [13] Grey [12] əsasında.

Hal-hazırda demək olar ki, bütün sosial marketinq kommunikasiyaları rəqəmsal təşəbbüslərə yönəlib, çünki gənc nəslin əksəriyyəti sosial şəbəkələrdə və platformalarda mövcuddur. Sosial marketinq kommunikasiyasının bəzi yeni formaları təhsil, özəl və ya ictimai mühitə görə müxtəlif sferalarda və sənayelərdə yaxşı tanınır.

Hər bir sosial marketinq kommunikasiya modeli hədəf auditoriyada və ya bütövlükdə cəmiyyətdə mövcud olan sosial problemi həlletmə təşəbbüslərində ən səmərəli və məhsuldar olmaqla yanaşı, sosial marketinq proqramının ümumi məqsədinə uyğun olmalıdır. Beləliklə, sosial marketinq kommunikasiyası yaxşı planlaşdırılmalı və sistemli şəkildə həyata keçirilməlidir.

**Sosial marketinqin Azərbaycanda həyata keçirilməsi yolları**

Sosial marketinq cəmiyyətin rifahını yüksəltmək üçün kommersiya marketinq strategiyalarını geniş tətbiq edən bir proses kimi tanınır və o, ətraf mühitin mühafizəsi, ictimai sağlamlıq və təhsil də daxil olmaqla, qlobal problemlərin həlli üçün mühüm alət kimi istifadə olunur. Sürətli sosial və iqtisadi transformasiyanı yaşayan Azərbaycanda sosial marketinq üsullarından istifadə təxirəsalınmaz məsələlərin həllində və davamlı inkişaf məqsədlərinə nail olmaqda çox faydalı ola bilər.

Azərbaycanda sosial marketinq təşəbbüslərinin uğurlu tətbiqi üçün aşağıdakı strategiyalar nəzərə alına bilər:

1. Dövlət-Özəl tərəfdaşlıq

Dövlət qurumları, qeyri-hökumət təşkilatları (QHT) və kommersiya sektoru birlikdə işlədikdə sosial kampaniyalar artan resurslardan və təcrübədən faydalana bilər. Məsələn, daha geniş auditoriyaya çatmaq və daha böyük təsir göstərmək üçün sağlamlıq yönümlü kampaniyalar qeyri-infeksion xəstəlikləri hədəfə alaraq dövlət sektoru infrastrukturunu özəl sektorun pulu və marketinq təcrübəsi ilə birləşdirə bilər.

2. İcma ilə əlaqə

Yerli icmaları öz dizaynında və icrasında fəal şəkildə cəlb edən kampaniyaların mədəni əhəmiyyəti və yerli problemlərin həllində xüsusi rolu danılmazdır. Sosial marketinq təşəbbüsləri yerli liderlərin köməyinə müraciət etməklə və iştirakçı tədqiqat üsullarını tətbiq etməklə inam yarada və uzunmüddətli icma əlaqəsini təşviq edə bilər.

3. Rəqəmsal platformalardan istifadə

Sosial media Azərbaycanda ünsiyyət vasitəsi kimi getdikcə populyarlaşır. İnteraktiv və vizual olaraq cəlbedici olan kampaniyalar Facebook, Instagram və TikTok kimi platformalardan istifadə etməklə başlana bilər. Məsələn, sağlamlıq haqqında məlumatlılığı artıran və ya ekoloji problemlərə toxunan qısa videolar izləyiciləri uğurla cəlb edə bilər.

4. Bacarıqların artırılması

QHT-lər, yerli qurumlar və icma liderləri sosial marketinq üsullarını başa düşmələrini və istifadələrini təkmilləşdirən təlim proqramlarından faydalana bilərlər. Universitetlər sosial marketinqi öz kurikulumlarına daxil etməklə, bu cür layihələrə kömək etmək üçün ixtisaslı mütəxəssislərin hazırlanmasına zəmanət verəcəkdir.

5. Məlumata əsaslanan yanaşmalar

Davranış məlumatlarının toplanması və təhlili sübutlarla dəstəklənən sosial marketinq təşəbbüslərinin yaradılmasına kömək edir. Məqsədli müdaxilələr sorğuların və analitiklərin ictimai münasibət və davranışa təklif edə biləcəyi məlumatlarla mümkün olur. Müsbət sosial aktlar davranış strategiyalarından istifadə edilməklə təşviq edilə bilər.

6. Kütləvi informasiya vasitələri kampaniyaları

Azərbaycanda radio və televiziya kimi ənənəvi media vasitələri xüsusilə kənd yerlərində əhəmiyyətli təsir göstərməkdə davam edir. Yaxşı planlaşdırılmış kütləvi informasiya vasitələri təşəbbüsləri mühüm mesajları daha geniş şəkildə əlçatan etməklə, internetlə əlaqəni tamamlaya bilər.

7. Siyasət inteqrasiyası

Dövlət siyasətinin təsirini sosial marketinq konsepsiyalarını daxil etməklə artırmaq olar. Məsələn, siqaret əleyhinə təşəbbüslər tütün reklamını məhdudlaşdıran qanunlarla birləşdirildikdə davranış dəyişikliyini təşviq edən atmosfer yaranır.

Azərbaycanda tətbiq oluna bilən sosial marketinq təcrübələri və təşəbbüslərinin potensialına baxmayaraq, bir sıra problemlər mövcuddur:

• Resurs məhdudiyyətləri: Genişmiqyaslı təşəbbüslərin əhatə dairəsi və effektivliyi vəsait çatışmazlığı ilə məhdudlaşdırıla bilər.

• Mədəni maneələr: İcmanın iştirakı kənar təşəbbüslərə qarşı skeptisizm və dəyişikliyə qarşı müqavimət nəticəsində mane ola bilər.

• Təsirin qiymətləndirilməsi: Kampaniya nəticələrini qiymətləndirmək üçün etibarlı tədbirlərin işlənib hazırlanması hələ də çətindir və tez-tez tədqiqat və təhlil üçün daha çox maliyyə tələb edir.

Fərqli mədəniyyəti və rəqəmsal mühitinə görə Azərbaycan sosial marketinq üsullarından səmərəli istifadə üçün çoxlu potensiala malikdir. Sosial marketinq kampaniyaları texnologiyadan istifadə etməklə, icmaları cəlb etməklə və dövlət-özəl tərəfdaşlıqları təşviq etməklə mühüm sosial problemləri uğurla həll edə bilər. Azərbaycan diqqətli hazırlıq və inklüziv metodlara sədaqət prinsipinə əsaslanaraq regionda sosial marketinq təşəbbüsləri üçün standart yarada bilər.

**Nəticə**

Bütövlükdə, müəyyən edilmiş cəmiyyət və ya əhalinin bir hissəsi daxilində mühüm sosial problemlərin həllinə yönəlmiş sosial marketinq təşəbbüsləri dəqiq və yaxşı uyğunlaşdırılmış olmalıdır. Beləliklə, sosial marketinq proqramlarının və müəyyən bir sosial səbəbin və ya problemin müəyyən edilmiş hədəf auditoriyasında həlli üçün uyğun ünsiyyət modellərinin seçilməsi ən vacib məsələdir. Bu səbəbdən sosial marketinq təşəbbüslərində belə planlaşdırma apararkən aşağıdakı məqamları nəzərə almaq çox vacibdir:

1) Sosial problem və ya səbəb cəmiyyətin və ya bütövlükdə əhalinin hədəf olan hissəsində öz səviyyələri daxilində müəyyən edilməli və aydınlaşdırılmalıdır.

2) Qarşıya qoyulan sosial problem və ya səbəbin aydın mənzərəsini formalaşdırmaq üçün hədəf auditoriyalar üzrə dərin təhlil aparılmalıdır.

3) Marketinq kompleksinə uyğun olaraq düzgün ünsiyyət modellərinin seçilməsi sosial marketinq proqramı və ya çərçivə siyahısında olmalıdır.

4) Cəmiyyətdəki sosial problem və ya səbəblə bağlı mesajın hədəf auditoriyaya çatdırılması üçün aydın və sağlam ünsiyyətin formalaşdırılması böyük əhəmiyyət kəsb edir.

5) Müəyyən edilmiş sosial marketinq proqramının və ya çərçivənin düzgün həyata keçirilməsi üçün hərtərəfli yoxlamalar və təhlillər aparılmalı və gələcəkdə potensial ödənişlər üçün səhvlər üzrə təhlillər aparılmalıdır.

Yuxarıda qeyd olunanların hamısı düzgün formada və qaydada həyata keçirilərsə, cəmiyyətdə və ya əhalinin bir hissəsində mövcud olan sosial səbəb və ya problem öz həllini tapıb hədəf auditoriyaya və ya bütövlükdə əhaliyə fayda verə bilər.

**İstifadə olunmuş ədəbiyyat**

1. Adler, R. B. Interplay: The Process of Interpersonal Communication. / R. B. Adler, L. B. Rosenfeld, R. F. Proctor. – Oxford University Press, – 2020. – 496 p.

2. Andreasen, A. R. Marketing Social marketing in the social change marketplace: // – Sage Journals: Journal of Public Policy & Marketing, – vol. 21. – 2002. – p. 3-13.

3. Andreasen, A. R. Marketing social change: Changing Behavior to Promote Health, Social Development, and the Environment. / A. R. Andreasen. – Jossey-Bass, – 1995a. – 368 p.

4. Andreasen, A. R. Marketing social change: Changing Behavior to Promote Health, Social Development, and the Environment. / A. R. Andreasen. – Jossey-Bass, – 1995b. – 368 p.

5. Baptista, N. Examining social capital and online social support links: a study in online health communities facing treatment uncertainty // International Review on Public and Nonprofit Marketing, – 2021. 18 (1), – p. 57-94.

6. Best, J. Social problems. / J. Best. – W. W. Norton, – 2020. – 416 p.

7. Bucher, T., Helmond, A. The Affordances of Social Media Platforms. In J. Burgess, A. Marwick, & T. Poell (Eds.) // The SAGE Handbook of Social Media, – 2018. – p. 233-253.

8. Cooley, C. H. Social organization: A study of the larger mind. / C. H. Cooley. – In Charles Scribner’s Sons eBooks, – 1909. – 419 p.

9. Covello, V. T. Best practices in public Health risk and crisis communication // Journal of Health Communication, – 2003. 8 (sup1), – p. 5-8.

10. French, J., Blair-Stevens, C. The Big Pocket Guide to Using Social Marketing for Behaviour Change: [Electronic source], London: The NSMC. – 2005. URL: www.thensmc.-com/sites/default/files/Big_pocket_guide_2011.pdf

11. Friesner, T. Digital Marketing Communications. - Marketing Teacher: [Electronic source], Marketing Teacher. – 2014, November 1. URL: https://www.marketingteacher.com/digital-marketing-communications/

12. Gray, K. How to Map theory: Reliable methods are fruitless without rigorous theory // Perspectives on Psychological Science, – 2017. 12 (5), – p. 731-741.

13. Hoppler, S. S., Segerer, R., Nikitin, J. The six components of social interactions: actor, partner, relation, activities, context, and evaluation // Frontiers in Psychology, – 2022. 12.

14. Huhn, J. What is social marketing? 10 examples of how it works for business: Referral Rock Blog. – 2022, October 28. URL: https://referralrock.com/blog/social-marketing/

15. Indeed Editorial Team. 11 Types of direct marketing: Indeed.com. – 2023, March 11. URL: https://www.indeed.com/career-advice/career-development/types-of-direct-marketing

16. Jardine, C. G. Development of a public participation and communication protocol for establishing fish consumption advisories // Risk Analysis, – 2003. 23 (3), – p. 461-471.

17. Kotler, P., Zaltman, G. Social Marketing: an approach to planned social change // Journal of Marketing, – 1971. 35 (3), – p. 3-12.

18. Kutev, C. What is traditional marketing? (Plus types, pros and Cons):Indeed.com. – 2023, July 25. URL: https://www.indeed.com/career-advice/career-development/traditional-marketing

19. Lauer, R. H. Social problems and the quality of life. / R. H. Lauer. – WCB/McGraw-Hill, – 1986. – 592 p.

20. Lefebvre, R. C. An integrative model for social marketing // Journal of Social Marketing, – 2011. 1 (1), – p. 54-72.

21. Lefebvre, R. C., Flora, J. A. Social marketing and public health intervention // Health Education Quarterly, – 1988. 15 (3), – p. 299-315.

22. Leon-Guerrero, A. Social problems: Community, Policy, and Social Action. / A. Leon-Guerrero. – SAGE Publications, Incorporated, – 2018. – 480 p.

23. Lundgren, R. E., McMakin, A. H. Risk communication: A Handbook for Communicating Environmental, Safety, and Health Risks. 2018. – 544 p.

24. Merton, R. K. Social structure and anomie // American Sociological Review, – 1938. 3 (5), – p. 672-682.

25. O’Grady, N. Indirect Marketing: What it is and how to use it: [Electronic source], Demand Curve. – 2022, April 21. URL: https://www.demandcurve.com/blog/indirect-marketing

26. Rundle-Thiele, S. Looking back and moving forwards: An agenda for social marketing research // Recherche Et Applications En Marketing (English Edition), – 2015. 30 (3), – p. 128-133.

27. Thompson, W. E. Society in focus: An Introduction to Sociology. / W. E. Thompson, J. V. Hickey, M. L. Thompson. – Rowman & Littlefield Publishers, 2016. – 656 p.

28. Walsh, D. C., Rudd, R. E., Moeykens, B., Moloney, T. W. Social marketing for public health // Health Affairs, – 1993. 12 (2), – p. 104-119.

**Rəyçi: f.f.d., dos. Zeynəddin Şabanov**

**OXUCU RƏYİ**

**UOT 316**
**https://doi.org/10.30546/ifs.2024.2(43).033**

# EYNULLA MƏDƏTLİNİN "HEYDƏR ƏLİYEVİN SİYASİ İRSİ: AZƏRBAYCANÇILIQ VƏ AZƏRBAYCAN–TÜRKİYƏ BİRLİYİNİN FƏLSƏFƏSİ" MONOQRAFİYASI HAQQINDA

**Şölət Zeynalov**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
aparıcı elmi işçi, f.f.d, dosent, **Azərbaycan**

***Heydər Əliyev:*** *Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmləndirək və yüksəklərə qaldıraq*[1].

Mübaliğəsiz demək olar ki, xalqları, millətləri, cəmiyyət və dövlətləri böyük ideyalar, ideologiyalar və böyük şəxsiyyətlər, dühalar yaradırlar. Bu dahilər dövləti və xalqı tarixin yaratdığı çətin anlardan, keşməkeşli situasiyalardan, böhranlardan, ziqzaqlardan keçirərək böyük üfüqlərə çatdırır, onun təməl prinsiplərini müəyyən edir və həmin xalqın gələcəyinin formalaşmasında müstəsna rol oynayırlar. Bu baxımdan tarix daima təkrar-təkrar tədqiq olunması və yazılması, interpretasiyası zəruri olan sivilizasion bir prosesdir. Əslində, bu prosesi insanın öz yaratdığı dəyərlərlə, təsisat və reallıqlarla dialoqu da adlandırmaq olar. Ancaq aqillər demişkən, ola bilər ki, bu proses yalnız dialoq kimi deyil, tarixin cəmiyyət, insanın, sivilizasiya taleyində, həyatında həm də qarşılıqlı ünsiyyəti, – kimin üçünsə monoloqu kimi də qiymətləndirilə bilər.

Aydındır ki, tarixin obyektiv dərk olunması asan məsələ deyildir. Yəni, söhbət ondan gedir ki, istər fərd olaraq insanlar, istərsə də cəmiyyət və xalqlar öz həyat və fəaliyyətlərində daima ideala doğru can atırlar və demək olar ki, bu yolda qarşılaşdıqları istənilən situasiyalarda hər bir identiklik və ya təsisat ideya və ideologiya uğrunda mübarizədə özünün daha düzgün yolda olduğunu düşünür və haqlı sayırlar. Ola bilər ki, həyatın, siyasətin, ideologiya və dəyərlərin də mənası bundadır: bəşəri, milli, əxlaqi və insani dəyərlər uğrunda mübarizə! Vaxtilə alman filosofu İ.Kant hesab edirdi ki, həyatı mənalı edən şey insanın, deməli, həm də cəmiyyətin yetişmək istədiyi və can atdığı idealdır. Ancaq ədəbiyatdan da, real insani təcrübədən də elmi təfəkkürə məlumdur ki, ideala çatmaq, onu tarixin yaratdığı monolit həqiqət kimi dərk etmək, onunla təmənnasız dialoqda olmaq elə də asan məsələ deyildir. Bu baxımdan ona görə də tarixin həqiqi faktlar əsasında düzgün yazılması, obyektiv tədqiqi, millətin, dövlət və dövlətçilik tarixinin ən zəruri şərtlərindəndir. Müşahidələr göstərir ki, tarix və tarixin memarları cəmiyyəti, fərd və identikliyi fiziki anlamda əbədi xoşbəxt edə bilməsələr də, mənəvi baxımdan əbədi səadətə tam qovuşdura, ona dünyada necə yaşamağı, necə fəaliyyət göstərməyi, necə olmağı, necə "ölməyi" öyrədə bilər. Təsadüfi deyildir ki, müasir ekzistensialist filosof Martin Haydegger izah edirdi ki, böyük olmaq böyüklükdən – böyük düşünməkdən başlanır. Böyük olmaq, böyük düşünmək, oddan keçərək katarsis olunmaq isə, şübhəsiz, müdriklik sənətidir ki, daima böyük şəxsiyyətlər, böyük dühalar ona – bu sənətə doğru can atırlar. Nəzəri fikir tarixinə müraciət etdikdə görürük ki, istər Şərqdə, istərsə də Qərbdə tarixən filosoflar, personalist nəzəriyyəçilər böyük dühaları, şəxsiyyətləri, strateqləri Tanrıların Yer üzünə hədiyyəsi hesab etmişlər. Məhz Ulu öndər Heydər Əliyev də bu baxımdan müasir tariximizin mehvərini yaradan onu tarixin yaratdığı monoloji ziqzaqlarda, labirintlərdə itməyə, səmt küləklərinin gətirdiyi tale gəmisi kimi okeanların dərinliklərinə qərq olmağa qoymayan tarix və tanrının XX əsr dünyasına, insanına bəxş etdiyi misilsiz əbədiyaşar siyasi xadimlərindən biridir.

Dahi şəxsiyyətlərin istər cəmiyyət həyatında, istərsə də dövlətçilik və tarix baxımından fəaliyyətlərinin araşdırılması, ictimai-siyasi fikir tarixində əhəmiyyəti həmişə vacib hesab

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab, Bakı, "Azərnəşr", 2000, s. 280-281.

olunmuşdur. XX əsr Azərbaycan tarixinə nəzər saldıqda xalqın və dövlətin, cəmiyyət və ölkənin inkişaf kursunun Heydər Əliyev dühasının siyasəti və dövlətçilik irsinin dialoqu kontekstində araşdırılması, onun elmi-fəlsəfi, siyasi aspektlərinin həm ölkə daxilində, həm də xarici ölkələrdə təbliği və öyrənilməsi qədər son dərəcə aktual olan ikinci bir hadisəni təsəvvür etmək çətindir. Bu fenomenin mahiyyəti ondadır ki, o, tarixi yaradır, ona yön verir, onun paradiqmalarını müəyyən etməklə gələcək nəsillərə əvəzsiz bir irs qoyur. Geniş auditoriyanın və intellektual oxucunun diqqətinə çatdırılmış haqqında bəhs olunan monoqrafiyanı son dərəcə əvəzsiz edən də məhz budur: Heydər Əliyevin bəşər tarixində, Azərbaycan və region xalqlarının həyatında fəaliyyəti və irsinin, kiçik bir hissəsini də olsa, tədqiqata cəlb etmək, onun fəlsəfəsi və ziyasından insanlara təmənnasız hədiyyə vermək!

2023-cü ildə “Heydər Əliyev ili” çərçivəsində AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru, “Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi” şöbəsinin müdiri Eynulla Mədətlinin imzası ilə “Heydər Əliyevin siyasi irsi: Azərbaycançılıq və Azərbaycan–Türkiyə birliyinin fəlsəfəsi” adlı çox sanballı elmi-fəlsəfi və müasir dövlətçiliyimiz baxımından aktual olan monoqrafiya işıq üzü görmüşdür. Elmi-siyasi-ideoloji kontekstdə qələmə alınmış əsərlə tanışlıq bir daha təsdiq edir ki, həmin çətin illərdə ölkəmizə rəhbərlik etmiş nəhəng siyasi xadim, Ulu öndər Heydər Əliyevin dühası, siyasi irsi, dövlətçilik fəlsəfəsi, həqiqətən də, daima, dönə-dönə elmi-nəzəri, ictimai-siyasi anlamda araşdırılmaq üçün əvəzsiz bir milli xəzinədir. Bu xəzinənin hansı istiqamətinə, hansı mərhələsinə müraciət edirsən et, mütləq bu nəhəng milli irsin ziyası fonunda sanballı bir xəzinə meydana çıxacaqdır. Bu həm də onunla bağlıdır ki, dahilərin qoyduğu iz, təyin etdiyi strategiya, siyasi-ideoloji xətt, dövlətçilik meyarı tükənməzdir, daima, dönə-dönə araşdırılmağa layıqdir. Tədqiqatın ikinci ən vacib özəlliyi ondadır ki, müəllifin əsərinin ümumi xarakteristikası oxucuda fundamental bir fikri formalaşdırır: Heydər Əliyev siyasi irsi və onun şəxsi keyfiyyətləri sübut edir ki, o, nəinki Cənubi Qafqaz və Türk dünyasi liderləri sırasında, o cümlədən XX əsr dünya siyasi şəxsiyyətləri sırasında öndə dayanan siyasi xadimlər içərisində ən öncüllərdən biri olmuşdur. Əsərin üçüncü vacib məziyyətlərindən biri aşağıdakı kimidir: müəllifin elmi-fəlsəfi təhlili oxucuda bir daha əminlik yaradır ki, Ulu öndər Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının dünya miqyasında ərsəyə gətirdiyi yeganə misilsiz liderdir, onu tariximizdə heç bir siyasi xadimlə müqayisə etmədən “Ümummilli lider” statusuna qəbul etməklə, Azərbaycan xalqı özünün ən düzgün qərarını vermişdir. Başqa sözlə desək, əsərdən aydın şəkildə hasil etmək olur ki, həqiqətən də, dövlət, xalq, millət, Azərbaycan sevgisi, dövlətçilik maraqlarının təminatı qüdrətli və strateji komandanın formalaşması, regionun digər xalqları ilə qonşuluq prinsiplərində sülh və təhlükəsizlik, strategiyada sekulyar və demokratik əsaslar, dilimizin qorunması, mədəniyyət, tarix və dinimizə sayğı, cəmiyyəti daima irəli səsləyən modern inkişaf kursu bilavasitə Heydər Əliyev məktəbinin başlıca istiqamətini təşkil etmişdir.

Məsələnin digər özəlliyi ondadır ki, bu sanballı monoqrafiyanın müəllifi həm də uzun müddət Heydər Əliyev məktəbinin, fəaliyyətinin, idarəetməsi və aurasının ətrafında, əhatəsində olmuş və Heydər Əliyev akademiyasının meyarlarından bəhrələnmişdir. Bu mükafat və tale qismətinin özəlliyi müəllifə şəksiz üstünlüklər verir ki, bu da əsərin yazılmasını maraqlı və fundamental etməklə yanaşı, monoqrafiyanı daha da oxunaqlı və canlı edir. Başqa formada desək, əsərin hansı bölümü, fəsil və altbaşlıqları ilə təmasda olursan ol, aydın şəkildə hiss olunur ki, müəllif əsərin yazılmasını qarşısına məqsəd qoyarkən onun yalnız siyasi, fəlsəfi, ideologi və tarixi tərəflərini deyil, həm də mənəvi, milli, insani, ruhi tərəflərini qabartmağı, göstərməyi əsas məqsəd kimi qarşıya qoymuş və şübhəsiz buna nail olmuşdur. Bu onunla bağlıdır ki, böyük şəxsiyyətlər, liderlər, sərkərdələr yalnız tarixin yaratdığı dahilər, “apollonlar”, memarlar deyillər, onların da hissləri, duyğuları, sevgiləri vardır. Ona görə də müəllifin yazdığı bu əsəri yalnız iki dövlətin uğurlu dostluğu və qardaşlığı, yaxud siyasət və ideologiya kontekstində mənalandırmaq deyil, həm də insanların, xalq və millətlərin taleyinə hopmuş həyat hekayəsi kimi oxumaq, fikirmizcə, daha doğru olardı. Başqa sözlə desək, əsərlə tanışlıq zamanı həm müəllifin taleyində, həm də monoqrafiyanın bütövlükdə məzmununda bilavasitə Ulu öndər Heydər Əliyevin nəzərlərinin, məktəbinin, dühasının ziyası, nuru və siyasi xəttinin hənirtisi ən yüksək şəkildə hiss olunur. Bu baxımdan ictimai-siyasi mühitdə öz elmi imzası və fəaliyyəti ilə tanınan, həmçinin uzun illər xarici dövlətlərdə ölkəmizi yüksək səviyyədə Fövqəladə və Səlahiyyətli Səfir

kimi təmsil edən, gənclik illərində Ulu öndərin dövlətçilik təcrübəsindən, siyasi irsinin nəzəri və praktik əsaslarından bəhrələnmək qisməti olan müəllifin Heydər Əliyevin siyasi irsindən sanballı bir əsər ortaya qoyması qətiyyən təsadüfi sayıla bilməz – Heydər Əliyev məktəbi böyük bir xəzinədir və müəllif buradan öz biliyi, səriştəsi, qisməti qədər bəhrələnmişdir. Bu da əsərin digər bir uğurudur.

Məhz bu səbəbdən də azərbaycançılıq fəlsəfəsi və Azərbaycan-Türkiyə münasibətlərində Ulu öndər Heydər Əliyev məktəbinin elmi-fəlsəfi əsaslarından müəllifin bəhs etməsi elmi mühit üçün həm bir stimul, həm də bir yenilik olmaqla əsərin fundamentallığını daha da artırmış olur. Monoqrafiya XX əsrin siyasi nəhənglərindən biri olan, Azərbaycan dövlətçilik tarixində misilsiz xidmətləri ilə tariximizin yeni məhvərini qoyan, onu dünyada demokratik, bəşəri əsaslarla tanıdan Ulu öndərin siyasi irsi kontekstində Azərbaycan-Türkiyə münasibətlərinin, birliyinin, “Bir millət-iki dövlət” formulunun müasir dinamikası, inkişaf perspektivləri və regionda yaratdığı strateji təhlükəsizlik məsələlərinə həsr olunmuşdur. Müəllifin elmi mühit və geniş oxucu kütləsinin diqqətinə təqdim etdiyi əsərdə ilk əvvəl nəzəri olaraq siyasi irsin elmi-fəlsəfi mahiyyəti, onun tarixi rolu, xalqın, dövlətin, cəmiyyətin həyatında oynadığı əhəmiyyətin vacibliyini çox ətraflı təqdim edir. Müstəqilliyimizin ilk illərində baş verən çətinliklərdən, həmin dövrdə yaranan müxtəlif ziddiyyətlərdən qurtulmaqda Heydər Əliyev dühasının böyüklüyünə, miqyasına vurğu edərək müəlllif liderin siyasi təcrübəsinin əvəzsizliyindən, dövlətçilik təcrübəsinin zənginliyindən, tarixdə xalqların taleyində liderlərin, rəhbər və sərkərdələrin oynadığı vacib əhəmiyyətdən bəhs edərək əsərin girişində fundamental bir tezisi qeyd edir: *“Tarix sübut edir ki, siyasi irs əsasən xalqların yetişdirib tarix səhnəsinə çıxardığı rəhbərlərin, sərkərdələrin, görkəmli şəxsiyyətlərin genişmiqyaslı ictimai-siyasi fəaliyyəti ilə formalaşır. Bu siyasi liderlərin şəxsi məziyyətləri, milli-mənəvi keyfiyyətləri fonunda milli iradə formalaşır, milli inkişaf yolu müəyyənləşir, milli dövlətçilik bərqərar olur, beləliklə də, zəngin və əbədi milli irs yaranır. Yəni, xalqın önündə gedən siyasi liderin, onun inandığı, güvəndiyi rəhbərin, xalqın varlığı və müqəddəratı üçün məsuliyyət daşıyan sərkərdənin şəxsi keyfiyyətləri həm də dövlətlərin, xalqların taleyini müəyyənləşdirən vacib amildir” (s.4).* Bu vacib tezislə müəllif təsdiq edir ki, xalqın, cəmiyyətin, dövlətin siyasi irsi yalnız öz-özünə tarixi axın və ya sadə bir düzxətli inkişafla deyil, məhz burada şəxsiyyətin bilavasitə, dinamik fəaliyyəti, xarizması milli ideya kontekstində fundamental strategiyası nəticəsində yaranır. Müəllif tarixi ekskursun və tarixi prosesdə şəxsiyyət amilinin zəruruliyini əsərin birinci fəslində akademik İsa Həbibbəyliyə istinadən belə bir fikri müdafiə edir. “Sovet hakimiyyəti dövründə Heydər Əliyevin apardığı məqsədyönlü və düşünülmüş millilik və vətənpərvərlik siyasətinə görə ölkəmiz müstəqillik qazandıqdan sonra digər dövlət müstəqilliyi əldə etmiş postsovet ölkələri ilə müqayisədə bir neçə addım irəlidə olmuşdur” (səh. 11). Müəllif həmçinin əsərin birinci fəslində məntiqi olaraq Heydər Əliyev siyasi irsinin elmi-fəlsəfi mahiyyəti, o cümlədən azərbaycançılıq ideyası və ideologiyası, Ulu öndərin siyasi irsinin özəl xüsusiyyətləri, milli dövlətçilik və milli məfkurənin anlamı, mahiyyəti barədə ətraflı bəhs etmişdir. Eyni zamanda bu fəsildə Ulu öndərin Azərbaycana qayıdışı, onun böyük çətinliklərə baxmayaraq, yenidən xalqın təkidiylə siyasi fəaliyyətə başlaması, dövlətçiliyi ən müxtəlif səviyyəli təhlükələrdən xilas etməsi, Heydər Əliyev fenomeninin Naxçıvan dövrü, onun xilaskarlıq missiyası haqqında ətraflı bəhs olunmuşdur. Müəllif əsərin ideyası və metodoloji qoyuluşundan çıxış edərək həmin dövrdə Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının düşdüyü çətin böhrandan, iqtisadi-siyasi ziddiyyətlərdən çıxarılması səylərindən, bu istiqamətdə Türkiyə Cümhuriyyəti ilə əlaqə və münasibətlərinin qurulmasından, “Ümid körpüsü”nün təməllərinin nəzəri və praktiki əhəmiyyətindən bəhs etmişdir. Əsərin birinci fəsli “Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq” adlanır. Müəllif məntiqi olaraq bu fəsildə elmi-nəzəri araşdırmanın xüsusiyyətlərindən çıxış edərək Ulu öndərin siyasi irsinin özəllikləri, Azərbaycanın milli məfkurəsinin və milli dövlətçilik fəlsəfəsinin formalaşmasında Heydər Əliyev şəxsiyyətinin müstəsna əhəmiyyətindən, onun Azərbaycana qayıdışından, böyük siyasi xadimin siyasi irsinin substansiv və funksional aspektlərini araşdırmağı qarşıya məqsəd qoymuşdur. Əsərlə tanışlıq göstərir ki, Ulu öndərin Azərbaycana qayıdışının Naxçıvan mərhələsi Azərbaycanın suverenliyinin təmin edilməsi sahəsində onun xilaskar missiyasının həyata keçirilməsi həmin dövrdə Naxçıvan MR-in iqtisadi, siyasi böhrandan çıxarılması sahəsində Türkiyə ilə təmasların və gələcək strateji əməkdaşlığın müəyyən olunması yalnız Heydər Əliyev dühasına məxsus olan bir strategiya ola bilərdi. Əsərin ikinci fəsli “Heydər Əliyevin siyasi irsi

və qardaş Türkiyə Cümhuriyyəti ilə münasibətlər” adlanır ki, bu fəsildə müəllif maraqlı, sanballı şəkildə müasir gerçəklikləri araşdırma obyektinə çevirmişdir. Ulu öndər Heydər Əliyevin “Bir millət-iki dövlət” konsepsiyasının tarixi- siyasi aspektinin Naxçıvan mərhələsini, onun Türkiyə Cümhuriyyətinə səfərlərini, iki qardaş ölkə arasında strateji tərəfdaşlığın nəzəri və təcrübi aspektlərini bu fəsildə izah edən müəllif həmçinin burada Heydər Əliyevin “Bir millət-iki dövlət” düsturunu – Azərbaycan-Türkiyə birliyinin strategiya və fəlsəfəsinin nəzəri aspektlərini oxucunun diqqətinə çatdırır, onun tarix baxımından fundamentallığını göstərir.

Əsəri maraqlı və oxunaqlı edən məziyyətlərdən biri budur ki, müəllifin qələmə aldığı bu fundamental monoqrafiya yalnız tədqiqat xarakteri daşımır, o həm də elmi-publisist və fəlsəfi xüsusiyyətləri ilə oxucunu heyrətləndirə bilir.

Üçüncü fəsildə müəllif Ulu öndərin siyasi irsində dövlətçilik ənənələri və mədəniyyət fəlsəfəsini araşdırma obyektinə çevirir. Burada E.Mədətli özünün tarix bilgisindən çıxış edərək, məhz tarixin fəlsəfəsinə fəlsəfi aspektdən yanaşaraq Ulu öndər Heydər Əliyev irsində Azərbaycan Xalq Cümhuriyyətinə münasibət və varislik məsələsinin tarixi baxımdan əhəmiyyətini göstərir. Bu fəsildə həmçinin Heydər Əliyev və mədəniyyət siyasətində milli-mənəvi dəyərlər, İslam həmrəyliyi təcrübəsi və milli xüsusiyyətlər, Ulu öndərin irsində Azərbaycan xalq mədəniyyətinə münasibətin fəlsəfəsi, Heydər Əliyev şəxsiyyətinin miqyası və onun sərhədləri aşan cazibəsi araşdırma predmetinə çevrilərək oxuculara təqdim olunur. Məsələn, müəllif yazır: “Muxtar Respublikanın üzləşdiyi bütün subyektiv və obyektiv xarakterli çətinliklərə baxmayaraq, Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinə Sədr seçilməsi ilə ilk gündən müstəqil Azərbaycan dövlətçiliyinin quruculuğuna başlanıldı. O zaman üçün ən ümdə aparıcı vəzifə Muxtar Respublikanı işğalçı Ermənistanın getdikcə genişlənən təcavüzündən qorumaq idi” (səh. 51). Həqiqətən də, etiraf etməliyik ki, Azərbaycan dövlətçilik tarixində ötən əsrin 90-cı illərdəki qədər keşməkeşli bir zamanı təsəvvür etmək çətindir. Sonrakı tarixi təcrübə sübut etdi ki, 1991-1993-cü illərdə Heydər Əliyevin Naxçıvan MR-in Ali Məclisinə rəhbərliyi məhz Naxçıvanın o dövrdə qurtuluşuna çevrildi.

Heydər Əliyev siyasətinin miqyasını, təbii ki, bir əsərlə ümumiləşdirmək¸ geniş auditoriyalara çatdırmaq mümkün deyil. Təhsil, səhiyyə, sosial strategiya, sülh və təhlükəsizlik, ölkənin xaosdan çıxarılması, dayanıqlı və davamlı inkişaf kursuna yönəlmək – bütün bunlar həmin dövr üçün elə də asan deyildi. Müəllif haqlı olaraq əsərdə qeyd edir: “Dünya xalqlarının inkişaf və tərəqqisində təhsilin və elmin əvəzsiz rolunu vurğulayan Heydər Əliyev qeyd etdi ki, “*bir şeyi bilmək lazımdır ki, əgər hər hansı bir xalq inkişaf etmək istəyirsə, o, gərək bəşər mədəniyyətinə, bəşər elminə yiyələnsin. Mən 20 il bundan öncə də, indi də çox arzusunda olmuşam ki, azərbaycanlı balaları Türkiyədə, İranda, Rusiyada, Almaniyada, Ərəbistanda, İtaliyada, İngiltərədə, Amerikada, Fransada və hətta Hindistanda, Çində belə, təhsil alsınlar. Çünki öz içimizdə olan biliklər özümüzdədir və bunu heç kəs bizim əlimizdən ala bilməz. Ancaq dünyanın cürbəcür ölkələrindəki təhsil sistemlərindən istifadə edərək, böyük elmi nailiyyətlərə müvəffəq olaraq xalqı daha da irəliyə aparmaq olar*” (səh. 134).

Müəllifin böyük sevgi və peşəkarlıqla qələmə aldığı əsəri maraqlı edən əsas xüsusiyyətlərdən biri də odur ki, monoqrafiya yalnız siyasi, ideoloji, fəlsəfi və s. xüsusiyyətlərin interpretasiyası ilə məhdudlaşmır. Burada müəllif Ulu öndər Heydər Əliyevin bir növ milli identikliyə, dilimizə, dinimizə, mənəvi dəyərlərimizə ekstensial və ontoloji anlamda dərin münasibəti ilə üz-üzə qalır, canlı şəkildə elə bil ki, onunla danışır, onun daxili aləmi ilə təmasda olur, dahi liderin milli xüsusiyyətlərə, milli irsə, milli kimliyə nə qədər önəm verdiyinə əyani şahid olur. Müəllif Ulu öndərin canlı dialoquna istinad edərək yazır: “Heydər Əliyev incə mənayüklü yumora malik idi. Bəzən bu, kinayə və məzəmmət qarışıq ifadə kimi səslənirdi, yeri gələndə bundan məharətlə istifadə edirdi, hətta rəsmi görüşlərdə də bəzən belə kinayəli yumordan istifadə edirdi. Atalar sözlərindən, zərbi-məsəllərdən yerində istifadə edirdi, özünün işlətdiyi ifadələrin bir çoxu da atalar sözünə, zərbi-məsələ çevrilirdi. Məsələn deyirdi: *Öz ana dilində danışa bilməyən adam şikəstdir*” (səh. 296). Bu onu göstərirdi ki, Ulu öndər öz xalqını, ana dilini, milli dövlətçiliyini öz varlığından əziz tutur, onu vətəndaş mövcudluğunun məhvəri hesab edirdi.

Sonda intellektual oxuculara yalnız əsəri oxumalarını tövsiyə edə bilərik. Bu zaman onlar Ulu öndər Heydər Əliyevin siyasi və dövlətçilik irsinin fundamentallığı, onun gələcəyə hesablanmış strategiyası ilə yanaşı, oxucunun burada Ulu öndərin insani keyfiyyətlərinin, bəşəri xüsusiyyətlərinin,

həssas qəlbinin bilavasitə sadəliyi və son dərəcə nəhəngliyi ilə rastlaşacaqlarına və heyrətlənəcəklərinə əminliklə söz verə bilərik. Ona görə də bir daha əminliklə qeyd edə bilərik: dahilər ölmürlər, onlar yalnız bu dünyanı fiziki anlamda tərk edirlər, onların yaratdıqları dəyərlər, təsisatlar, dünya irsinə verdikləri xəzinələr daima insanlığa, dünyada sülh və əmin-amanlığın, humanizm və vəhdətin yaranmasını şərtləndirərək bəşəri irsə xidmət edir. Bu baxımdan Azərbaycan-Türkiyə əlaqələri də, Ulu öndərin qeyd etdiyi kimi, “Bir millət-iki dövlət” olaraq daim inkişaf edəcək, xalqlarımızın sevinc-kədəri də, xoş günləri də bir olacaqdır. Tarixi tendensiya göstərir ki, onların bu münasibəti nəinki region xalqları üçün, eyni zamanda sülh və həmrəyliyi dəstəkləyən dünya ölkələri üçün də bir örnək və paradiqma kimi daima nümunə olacaq, xalqlar, dövlətlər, cəmiyyət və sivilizasiyalar arasında dialoq və əməkdaşlıq akademiyası kimi öyrəniləcəkdir.

Hazırda heç kəsə sirr deyil ki, Cənubi Qafqazda yeni bir reallıq yaranmışdır və bu reallığın yaranması, əslində, yeni əməkdaşlıqlar və sülhün əldə edilməsi üçün yeni imkanlar yaratmışdır. Bu işdə Türkiyə-Azərbaycan birliyi və əməkdaşlığı regional sülh üçün əvəzsiz bir bəşəri nümunədir. *Ali Baş Komandan Prezident İlham Əliyevin qeyd etdiyi kimi,* **“...***Türkiyə və Azərbaycan xalqları arasında da münasibətlər, əlbəttə ki, uzunmüddətli dostluq və qardaşlıq əlaqələri üzərində qurulubdur. Bu, çox gözəl təməldir və bizim ölkələrimiz məhz bu təməl üzərində inkişaf edir, bir-birini dəstəkləyir. Mən deyərdim ki, İkinci Qarabağ müharibəsi zamanı Türkiyə, onun rəhbərliyi və xalqı ilk gündən, ilk saatlardan bizimlə çiyin-çiyinə dayanmışdı. O zaman Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi “Azərbaycan yalnız deyil!” bəyanatı bizim üçün çox böyük bir dəstək idi. Bütün 44 gün ərzində biz həmin o mənəvi dəstəyi qardaşlarımızdan hiss etdik”*[1].

[1] Prezident İlham Əliyevin “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimindəki çıxışından - 21 İyul 2023 https://president.az/az/articles/view/60544

**Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında məqalələrin qəbulu ilə bağlı qoyduğu tələblər**

Məqalələr Azərbaycan, rus,türk və ingilis dillərində çap olunmuş şəkildə və elektron variantda təqdim olunmalıdır. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir. Məqalələrin həcminin 10-12 səhifə, xülasələrin 15-18 sətir olması tövsiyə olunur.

Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunur.

Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə yaxud istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s.119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

Məqalələrin mətnləri Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 12 şrift ilə 1intervalla yığılmalıdır.

Məqalələr antiplagiat proqramı ilə yoxlanıldıqdan, rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa təqdim olunur.

Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə verilməlidir.

Məqalələrdə müəllif(lər)in adı və soyadı, işlədiyi müəssisə və onun ünvanı, elmi dərəcəsi və elmi adı (əgər varsa), müəllifin elektron poçt ünvanı göstərilməlidir.

Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalar və s. istinadlara üstünlük verilməlidir.

Jurnalda müvafiq elm sahəsində qabaqcıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına da yer verilir.

Jurnal yalnız öz profilinə uyğun məqalələri dərc edir.

---

Yuxarıda göstərilən şərtlərə uyğun olmayan məqalələr redaksiya heyəti tərəfindən qəbul edilmir.

## Требования Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики к научным изданиям при приеме статей, отражающих основное содержание диссертации

Статьи должны быть представлены на азербайджанском, русском, английском языках в напечатанном виде и электронном варианте. К статье, написанной на одном языке, должны быть даны резюме на двух языках. Рекомендуется представлять статьи объемом 10-12 страниц, а резюме 15-18 строчек.

Резюме к статьям на различных языках должны быть идентичные и соответствовать содержанию статьи. Статьи должны быть тщательно отредактированы с научной и грамматической точки зрения.

Должны быть ссылки на научные источники, связанные с темой. Список литературы, приведенный в конце статьи, должен быть дан в алфавитном порядке или пронумерован в порядке встречающейся в тексте ссылки на литературу, как, например, (1) или (1, с.119). Если в статье встречаются повторные ссылки на одну и ту же литературу, тогда эта литература должна быть дана под предыдущим номером.

Статья должна быть обсуждена на кафедре или в отделе, где работает автор, а выписка из протокола собрания должна быть представлена редакции.

Текст статей на азербайджанском языке должен быть дан латинским алфавитом, на русском языке – кириллицей, на английском языке – английским алфавитом (США), Times New Roman – 12 шрифтом, 1интервала.

Статьи могут быть представлены к печати после получения тайного отзыва со стороны отраслевого редактора или специалиста из членов Редакционного совета.

В конце статьи автор должен сказать о цели, методологии, научной новизне работы, ее прикладном значении и экономической пользе, соответствующей характеру статьи.

В каждой статье должны быть даны индексы типа УДК и PACS, а также ключевые слова на трех языках.

В статье должны быть указаны имя и фамилия автора, его место работы, адрес и электронная почта.

В списке литературы предпочтение должно быть дано ссылкам из статей, монографий и т.д., написанных за последние 5-10 лет.

В журнале помещаются статьи, поступающие из разных стран мира с развитой наукой.

Журнал печатает статьи, соответствующие его профилю.

---

Статьи, не отвечающие вышеизложенным требованиям, не принимаются редакционным советом.

**Requirements of the Supreme Attestation Commission under the Azerbaijan Republic President to be fulfilled at acceptance of the articles comprising the basic conclusions of the theses by the scientific editions recommended for publication**

Articles should be submitted in Azerbaijani, Russian, English languages in printed form and electronic version. In addition to the article written in one language, two summaries of it in other languages are to be presented. It is recommended to present 10–12-page articles and summary in 15-18 lines.

Summaries to articles in different languages should be identical and in conformity with the contents of the article. The articles should be carefully edited from the scientific and grammar point of view.

There should be references to the scientific sources connected to the theme. Literature list cited at the end of the article is to be given either alphabetically or numbered in order of reference to literature met in the text, as for instance (1) or (1, p.119). If in the article there are met the repeated references to one and the same literature, this literature should be given under the previous number.

Article is to be discussed in a chair or department where the author works, an extract from the minutes is to be submitted to the editorial board.

Text of the articles in Azerbaijani should be typed by Latin alphabet, in Russian – by Cyrillic alphabet, in English – by English alphabet (USA), Times New Roman – 12 font, 1 line spaced.

Articles may be submitted to the press after receiving the secret reference on the side of the branch editor or an expert from the members of the editorial staff.

In conclusion of the article the scientific innovation of the work, importance of applying, economic advantage corresponding to the scientific field and character of the work should be clearly indicated.

In every article the indices of UDC and PACS type, as well the keywords in three languages should be indicated.

In article an author's name, surname, his work and home addresses and e-mail are to be indicated.

In Literature List the preference should be given to references from the articles, monographs and oth. written for last 5-10 years.

In the journal there is a room for the articles coming in from the different countries of the world with advanced science.

The journal publishes only those articles which are in conformity with its profile.

---

Articles not meeting the above mentioned requirements are not accepted by the editorial board.

**ELMİ ƏSƏRLƏR**
**Beynəlxalq elmi-nəzəri jurnal**
**№ 2 (43) 2024**

**Redaktorlar:**

Rahilə Həsənova
Elnarə Əliyeva
Hafizə İmanova

**Kompüter tərtibatı və dizayn:**
Səbinə Mustafazadə

**Texniki redaktor:**
Adil Həşimov

**SCIENTIFIC WORKS**
**The international scientific and theoretical journal**
**№ 2 (43) 2024**

**Editors:**
Rahila Hasanova
Elnara Aliyeva
Hafiza İmanova

**Printing and design:**
Sabina Mustafazade

**Technical editor:**
Adil Hashimov

Yığılmağa verilmişdir: 07.12. 2024
Çapa imzalanmışdır: 23.12.2024
Kağız formatı: 60x84 16/1.
Çap vərəqi: 10,9. Tirajı 200.
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Redaksiya-Nəşriyyat şöbəsində nəşr olunmuşdur. Şöbə müdiri: fəlsəfə doktoru Adil Həşimov
Tel:(050)337-74-33.Ünvan: H.Cavid pr-ti 117.
Tel.: (99412) 539-28-74
E-mail: elmieserler@gmail.com

Submitted to collection: 07.12.2024
Sent to the press: 23.12.2024
Paper format: 60x84 16/1
Print sheet: 10,9. Copies: 200
Published in the Editorial-Publishing department of IPS of ANAS, department chief: doctor of philosophy Adil Hashimov
Phone: (050) 337-74-33. Address: H.Javid ave.117.
Phone: (99412) 539-28-74
E-mail: elmieserler@gmail.com